


2

**BİZİM VERGİLƏRİMİZİN 75 FAİZİ ÖZƏL SEKTORDA FORMALAŞIR**





Baş Nazir cənab Əli Əsədovun rəhbərliyi ilə Operativ Qərargah fasiləsiz iş rejimində

13



İqtisadiyyat naziri Mikayıl Cabbarov sahibkarlarla görüşdü





16

ALİM QULİYEV:

Prioritet istiqamətlərdən biri də biznesin inkişafında maliyyə təminatının daha da gücləndirilməsidir





22

Neft-qaz sənayesi pandemiya dövründə





48





26

“Gömrük orqanlarındakı islahatlar iqtisadi təhlükəsizliyi təmin edir”

Taxıl OPEK-i ideyası və Azərbaycandan keçən nəql yolları





60


# BİZNES HƏYATI


AVQUST, 2020

N°25



**Redaksiya şurası:**
Məmməd Musayev
Ziyad Səmədzadə
Xanhüseyn Kazımlı
Şirzad Abdullayev
Bəxtiyar Ağayev
Vüqar Zeynalov
Taleh Qasımov
Vüqar Abbasov
Aliyə Əzimova
Jalə Hacıyeva
Abbas Əliyev
Əbülfət Məhərrəmov

**Baş redaktor**
İlhamə Abdullayeva

**Art dizayner**
Niyazi Quliyev



Xəbər bloklarının hazırlanmasında www.ask.org.az saytının materiallarından istifadə edilmişdir.
Müəllif mövqeyi redaksiyanın mövqeyilə üst-üstə düşməyə bilər. Reklam materiallarının məzmununa görə redaksiya məsuliyyət daşımır.
Jurnal Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən təsis edilmişdir.



Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1010
Nizami küç. 90 A, Landmark III, II mərtəbə
Tel: (+99412) 465 76 92/93
E-mail: office@ask.org.az
iabdullayeva@ask.org.az
www.ask.org.az






Prezident İlham Əliyev:

# Bizim vergilərimizin 75 faizi özəl sektorda formalaşır

Məlum olduğu kimi, cari ilin avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.

Ölkə Prezidenti müşavirədə mühüm iqtisadi məsələlərə toxunaraq bildirib ki, iqtisadi sahədə biznesə dəstək məsələlərində də çox böyük addımlar atılmış və bundan sonra da davam etməlidir.

"Biz bu çətin dövrdə hər bir Azərbaycan vətəndaşına dəstək vermək istəyirik", -deyən ölkə başçısı Azərbaycan dövlətinin istənilən böhrana hazır olduğunu vurğulayıb: "Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır".

Müşavirədə çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov bugünədək bu yeni proqram çərçivəsində banklar tərəfindən sahibkarlara 12,5 milyon manatdan çox kreditlər ayrıldığını söylədi. Nazir bildirib ki, mövcud kreditlərin faizlərinin ödənişlərinə dəstək proqramı icra olunmaqdadır. Vergi güzəştlərinə aid olan bütün tədbirlər qanunvericilikdə öz əksini tapıb, o cümlədən ipoteka proqramının genişlənməsinə dair tədbirlər də həyata keçirilib. Dövlət sektorunda fəaliyyət göstərən və bir sıra digər müəssisələrə də bu proqram çərçivəsində dəstək göstərilmişdir. Lakin, ciddi karantin rejiminin müəyyən müddət uzadılması iqtisadi fəallığa da tə-

bii olaraq mənfi təsir göstərir. Bu, özünü həm də makroproqnozların, yəni 2020-ci ilin ümumdaxili məhsulun proqnozunda göstərir. Hazırda mövsümdən asılı olan ticarət və iaşə obyektlərinin fəaliyyətində, məlum quraqlıq nəticəsində kənd təsərrüfatı sahəsində nəzərdə tutulan proqnozdan daha mənfi nəticələr gözlənilir. Obyektiv səbəblərə görə ölkədaxili və xaricdən gələn turizm axınının dayanması müvafiq sektora təsir edir. Enerji bazarlarının da hələ tam bərpa olunmaması bizim üçün obyektiv çətinliklər yaradır.

Prezident İlham Əliyevin sözlərinə görə, heç kim deyə bilməz ki, postpandemiya dövrü nə vaxt başlayacaq. "Yeni fəaliyyətə başlayan biznes sahələri dövlətin dəstəyini nəzərə alaraq artıq öz gələcək planlarını elə qurmalıdırlar ki, ölkənin ümumi iqtisadiyyatında canlanma daha da tez baş versin"- deyən ölkə başçısı aşağıdakı məsələlərə xüsusi toxunub:

"Mən yenə də qeyd etmək istəyirəm ki, bizim bu sahədə itkilərimiz var. Ancaq bu itkilər daha genişmiqyaslı ola bilərdi. Bizim iqtisadiyyatımız altı ayda cəmi 2,7 faiz aşağı düşüb. Burada, eyni zamanda, neftin qiymətinin aşağı düşməsi də rol oynayıb. Eyni zamanda, OPEC çərçivəsində götürdüyümüz öhdəliklər də öz rolunu oynadı. Çünki biz hasilatı ixtisar etdik. Hazırda bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 14 faiz, 20 faiz, ondan da çoxdur. Əlbəttə ki, bu ölkələrə baxdıqda bizdə vəziyyət daha yaxşıdır. Ancaq yenə də iqtisadi inkişafımız təmin edilməlidir. Hesab edirəm ki, bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar bu iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır. Dövlət şirkətlərində itkilər kifayət qədər böyükdür. Qaz itkiləri, son vaxtlar azalıb, ancaq yenə də dözülməz həddədir. Su məsələlərinin həlli ilə bağlı xüsusi müşavirə keçirmişdim, Tədbirlər Planı qəbul edilib və artıq icra olunur. Amma itkilər 40-50 faiz səviyyəsindədir. Elektrik xətlərindəki itkilər də, əlbəttə ki, bizi narahat edir. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük vəsait qoyulub, müasir infrastruktur yaradılıb, lakin yenə də itkilər var. Amma özəl sektorda əgər itki varsa, bu özəl sektorun subyekti müflisləşir, biznesini bağlayır və heç kim bunun köməyinə gəlmir. Amma dövlət şirkətləri gözləyirlər ki, onların bütün qüsurları, bütün itkiləri dövlət tərəfindən bağlanacaq. Hətta ölkəmizdə qazlaşdırma dövlət büdcəsi hesabına aparılır. Halbuki bu, Dövlət Neft Şirkətinin bilavasitə vəzifəsidir. Biz bu il dövlət büdcəsində kəndlərin qazlaşdırılması üçün 100 milyon manat vəsait nəzərdə tuturuq.

> *Elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək.*

Bütün digər dövlət şirkətlərinin də vəziyyəti buna bənzərdir. Amma fakt odur ki, əgər dövlət şirkətləri normal korporativ idarəetmə əsasında işləməzsə, onda biz bu problemlərlə daim üzləşəcəyik. Bundan sonra buna dözmək olmaz. Hesab edirəm ki, dövlət şirkətlərinə ayrılan vəsait o şirkətlərin səmərəliliyi ilə üst-üstə düşmür. Bu qədər vəsait ayrılıb, daha da böyük nəticə əldə olunmalı idi. Ancaq bu, yoxdur. Çünki birinci növbədə onlar tam əmindirlər ki, dövlət həmişə bunların bütün problemlərini öz üzərinə götürəcək, onların götürdükləri və verə bilmədikləri kreditləri öz üzərinə götürəcək, onlara subsidiya verəcək və beləliklə, bunlarda arxayınlıq yaranıbdır.

Eyni zamanda, israfçılığa yol verilir, bəzi hallarda lazım olmayan layihələr icra edilir, yaxud da bu layihələrin icrasına start verilir. Təbii ki, bu layihələr başa çatdırılmalıdır. Bu layihələr başa çatandan sonra aydın olur ki, bunun səmərəsi yoxdur. Burada, əlbəttə ki, həm idarəetmədə mövcud olan pozuntular, eyni zamanda, bəzi hallarda şəxsi maraqlar rol oynayır. Mən demişəm, bir daha demək istəyirəm ki, dövlət büdcəsinin formalaşması ərəfəsində, müzakirə zamanı bütün dövlət şirkətlərindən sifarişlər gəlir - buraya bu qədər, oraya bu qədər vəsait verin. Biz əlbəttə ki, sosial infrastruktur layihələrinə bundan sonra da dövlət vəsaiti ayıracağıq. Halbuki baxmaq lazımdır, burada da dövlət-özəl sektor tərəfdaşlığı mümkündür, inkişaf etmiş ölkələrdə bu, var. Amma necə deyərlər, əsas layihələr üçün tələblər dövlət şirkətlərindən büdcə müzakirə olunan zaman gəlir ki, bu qədər vəsait verin bu işi görək. Lakin bu işin səmərəliliyinə heç kim baxmır - bu iş görülməlidir, yaxud görülməməlidir? Bu iş bu ilmi görülməlidir, yoxsa 2 il gözləyə bilər? Buna da heç kim baxmır. Nəzarət aşağı səviyyədədir. Ona görə bu məsələyə mütləq diqqət yetirilməlidir.

Mən bir daha demək istəyirəm ki, əsas məsələ insanların sağlamlığı, onların sosial vəziyyəti və bizim iqtisadi dayanıqlılığımızdır. Çünki əgər bu, olmasa, bu birinci iki vəzifəni biz icra edə bilməyəcəyik. Bizim güclü iqtisadi imkanlarımız olmasa, bütün niyyətlərimiz kağızda qalacaq. Ancaq biz istəyirik bu işləri elə görək ki, ölkə inkişaf etsin, ölkənin gələcəyi qeyri-neft



> *Hesab edirəm ki, bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır.*

sektorunun inkişafı hesabına təmin edilsin. Əlbəttə, makroiqtisadi vəziyyətin sabit qalması sevindirici amildir, inflyasiya təqribən 3 faiz ətrafındadır və artıq məlumat verildi ki, bizdə xarici borc artmayıb. Ümumi daxili məhsula nisbətdə ola bilsin ki, artıb, çünki ümumi daxili məhsul bizdə azalır və azalacaq. Ancaq bizdə mütləq rəqəmlərdə xarici borc artmayıb və hesab edirəm ki, ilin sonuna qədər azalmalıdır.

Sahibkarlara dəstək bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəkdir. Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir. Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır.

Əfsuslar olsun ki, bu il turizm sektoru tam tənəzzülə uğrayıb və əlbəttə, bizi məyus edir. Çünki çox böyük perspektivlər var idi. Ancaq indi yumşalma rejimi çərçivəsində daxili turizmin inkişafı, təşviq edilməsi ilə əlaqədar tədbirlər planı hazırlanmalıdır. Hesab edirəm ki, kifayət qədər imkanlar var.

Onu da bildirməliyəm ki, bizim vergilərimizin 75 faizi özəl sektorda formalaşır. Əgər vergi sistemində ciddi islahatlar aparılmasaydı, biz bu vergiləri də yığa bilməyəcəkdik, onları görə bilməyəcəkdik. Məhz bu sahədə aparılan islahatlar nəticəsində biz 6 ay ərzində proqnozdan əlavə vəsait yığa bildik. Ancaq, əlbəttə ki, ilin sonuna qədər bu, belə davam edə bilməz. Çünki xarici ticarət böyük dərəcədə tənəzzülə uğrayıb, bir çox ticarət obyektləri bağlıdır. Ancaq bu rəqəm həm sevindiricidir, həm də narahatedicidir. Sevindiricidir ona görə ki, bizim özəl sektorumuz artıq vergi verməyə öyrəşir. Onlara edilən güzəştlər, öz mühasibatlığını kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçirmək üçün verilən müddət artıq öz səmərəsini verdi. Biz əlbəttə ki, bəri başdan cəza tədbirləri tətbiq edə bilərdik və bunun nəticəsində bir çox şirkətlər çətin vəziyyətə düşə bilərdi. Ancaq onlara vaxt, izahat və tövsiyələr verildi – bundan sonra şəffaf işləməlisiniz, gəlirləri gizlətməməlisiniz, kölgə mühasibatlığı yaratmamalısınız. Təmiz işləyin ki, həm vicdanınız rahat olsun, həm də halal pul qazanın. Azərbaycanda halal pul qazanmaq üçün kifayət qədər imkanlar var. Ona görə bu, sevindiricidir. Ancaq narahat edən nədir? Bəs dövlət şirkətlərinin payı? Bəs, dövlət şirkətləri tərəfindən ödənilən vergilər hansı səviy-

yadədir? Əgər onların vergilərini, dövlət tərəfindən onlara verilən subsidiyaları və birbaşa vəsaitin qoyuluşunu götürsək, görərik ki, nə qədər böyük fərq var. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, dövlət şirkətləri bizim ölkəmizi, bizim iqtisadiyyatımızı aşağı aparır. Bunun başqa izahı ola bilməz.

Dövlət Neft Şirkətinə pul verilir, təkcə qazlaşdırmaya yox, qazma işlərinə, onların xarici tərəfdaşlarla birgə çalışdıqları konsorsiumlarda payının maliyyələşməsinə, digər infrastruktur layihələrinin icrasına. Bu pul haradan gəlir? Dövlət büdcəsindən, özü də böyük vəsait. Xəzər Dəniz Gəmiçiliyi. Düzdür, digər dövlət şirkətləri ilə müqayisədə Xəzər Dəniz Gəmiçiliyində vəziyyət daha yaxşıdır. Ancaq burada da gəmilər, tankerlər hansı pulla alınır? Dövlət büdcəsi hesabına. Biz indi Gəmiqayırma zavodunda bir neçə gəmi inşa edirik - yük gəmiləri, Ro-Ro tipli gəmilər. Bunu dövlət büdcəsi hesabına edirik, sonra da veririk Xəzər Dəniz Gəmiçiliyinə. Onlar da istismar edirlər və sonra o pulu qaytarırlar? Bu, böyük sualdır. “Azərenerji”yə nə qədər vəsait ayrılır? Düzdür, böyük işlər görülübdür, stansiyalar, yarımstansiyalar tikilir, Mingəçevir İstilik Elektrik Stansiyası demək olar ki, yenidən qurulub. Amma vəsait haradan gəlir, özünün qazandığı vəsaitdən xərcləyir? Yox, dövlət büdcəsindən. Bu gün dövlət büdcəsinin əsas mənbəyi neft-qaz sahəsidir. Digər şirkətlər – AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək? Dəmir yolunda da, yeni xətlər çəkilir, yeni vaqonlar, yeni lokomotivlər alınır, yüz milyonlarla manat vəsait ayrılır. Bəs, bunun səmərəsi haradadır? Axı, səmərə ilə işləməlidir.

Biz demirik ki, inkişaf etmiş ölkələrdə bu işlər lazımi səviyyədə tənzimlənir? Orada zərərlə kim işləyər? Ola bilər hansısa strateji sahələrə dövlət tərəfindən dəstək və dotasiya verilir. Lakin bir çox hallarda orada bütün iqtisadi münasibətlər bazar iqtisadiyyatı prinsipi əsasında qurulub. Bizdə özəl sektor bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərir, - halbuki dövlət oraya da dəstək verir, - amma dövlət şirkətləri elə bil ki, sosialist iqtisadi modelində işləyir. Ona görə bu istiqamətdə çox ciddi addımlar atılmalıdır. Sizə tapşırıram, dövlət şirkətlərinin işi ciddi təftiş edilməli və yeni idarəetmə sistemi qurulmalıdır. Bu nəzarətsizlik bundan sonra davam edə bilməz.

Digər məsələ bütövlükdə iqtisadiyyatın liberallaşdırılması ilə bağlıdır. Biz buna da getməliyik. Son vaxtlar bu sahədə aparılan müzakirələr deməyə əsas verir ki, artıq ciddi addımların atılması labüddür. Özəlləşdirmə sahəsində daha geniş islahatlar aparılmalıdır. Həm özəl, həm də xarici şirkətləri biz maraqlandırmalıyıq. Çünki bəzi hallarda şirkətlər müraciət edir və onların müraciətlərinə baxılmır, bəzi hallarda uzadılır. Layihələrin bəziləri icra edilir, bəziləri isə icra edilmir. Biz özümüz maraqlı olmalıyıq. Biz xarici və yerli investorlara biznesplan verməliyik - bu sahə var, bu müəssisə var, gəl bunu özəlləşdir. Əgər strateji investor oraya böyük vəsait qoyacaqsa, bunu simvolik qiymətə özəlləşdirmək olar. Əgər, o, zəmanət verirsə ki, buraya böyük vəsait qoyacaq. Ancaq bu yolla biz bu müəssisələri işə sala bilərik. Çünki bizim Bakı şəhərində sovet vaxtından qalan nə qədər dağılmış müəssisələr var. Onların böyük əraziləri var. O ərazilərdə həm yeni sənaye müəssisələri yaradıla bilər, - əlbəttə ki, ekoloji standartları tam gözləmək şərti ilə, - eyni zamanda, şəhərsalma ilə əlaqədar burada böyük layihələr icra oluna bilər. Çünki pandemiya dövründə tənəzzülə uğrayan tikinti sektoru özündə böyük potensial cəmləşdirib. Həm iş yerlərinin açılmasına, həm tikinti materialları sənayesinə, həm də bir neçə sahəyə bunun



**Prezident İlham Əliyev İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Azərbaycana gətirilmiş yeni təcili tibbi yardım avtomobilləri ilə tanış olarkən.** ***30 iyul 2020-ci il***



**Qəbələdə yeni modul tipli xəstəxana.** ***29 iyul 2020-ci il***

müsbət təsiri olar. İndi şəhərin içində bizim o qədər yarıdağılmış, çürümüş sənaye müəssisələrimiz var. O investorları cəlb etmək lazımdır. Qoy, gedib öz puluna ərazini abadlaşdırsın, ictimai zonalar yaratsın və binalar tikilsin. Çünki buna ehtiyac var və bu, biznesi canlandıracaq.

Mən artıq qeyd etdim ki, dövlət-özəl sektor tərəfdaşlığı gərək daha konkret layihələr əsasında özünü göstərsin. Deyə bilərəm ki, bu, hələ bir çox hallarda niyyət olaraq qalır. Bizdə bir neçə layihədə dövlət və özəl şirkətlər fəaliyyət göstərirlər, sərmayə qoyublar. Amma bu layihələrin sayı çox azdır. Ona görə burada mütləq yeni yanaşma olmalıdır. Bəlkə də hansısa yeni sahələrdə, hətta infrastruktur layihələrində özəl sektor fəaliyyət göstərə bilər. Bu da mümkündür. Təkcə sənaye müəssisələrinin yaradılmasında yox, infrastruktur layihələrində. Onları, sadəcə olaraq, stimullaşdırmaq lazımdır. Eyni zamanda, biz xarici tərəfdaşları da bu işlərə cəlb etməliyik.

Əlbəttə, xərclərə dövlət nəzarəti mexanizmi daha da təkmil olmalıdır. Burada, əlbəttə ki, dövlət qurumları konkret əlavə təkliflər verməlidirlər və ictimai nəzarət olmalıdır. Bizim üçün böyük əhəmiyyət kəsb edən bütün layihələrin icrasında ictimaiyyət nümayəndələri iştirak etməlidirlər. Mən su ilə bağlı müşavirədə qeyd etdim. Alimlər, qeyri-hökumət təşkilatları, mütəxəssislər, media nümayəndələri - onlar da bu işlərdə iştirak etsinlər. Onlar öz təkliflərini versinlər. Yəni, geniş ictimaiyyət gərək bu işlərə cəlb olunsun. Onda bizim işimiz daha rahat gedəcək və xərclərə nəzarət mexanizmi bir neçə təbəqədən ibarət olacaq.

Biz bütün bu işləri onsuz da görməli idik və görürük. Bizim niyyətimiz və siyasətimiz artıq birmənalı şəkildə vətəndaşlara təqdim edilib. Şəffaflıq, dürüstlük, kölgə iqtisadiyyatının əhatə dairəsinin daralması, biznes mühitinin yaxşılaşdırılması və bu istiqamətdə bundan sonra atılacaq addımlar əminəm ki, həm pandemiya dövründə, həm də postpandemiya dövründə bizə yeni imkanlar qazandıracaq".

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun, İqtisadiyyat naziri Mikayıl Cabbarovun və Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin iştirakı ilə keçən müşavirənin sonunda ölkə Prezidenti müşavirəni yekunlaşdıraraq, qeyd etdi ki, "O ki qaldı, koronavirusla bağlı mübarizəyə, biz bundan sonra da addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq. Biz hamımız yaxşı başa düşürük ki, insanlar yorulub, karantin rejimi hamımızı yorub. Bütün rəhbərlik fasiləsiz, demək olar ki, 24 saat ərzində iş başındadır. Çünki bu, elə bir bəladır, elə bir xəstəlikdir ki, hələ çarəsi yoxdur. Ona görə yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir. Odur ki, buna uyğun şəkildə addımlar atılacaq. Karantin rejimi nə vaxt mümkünsə yumşaldılacaqdır. Ancaq vətəndaşlar da başa düşməlidirlər ki, əgər bu yumşalmadan sonra biz yenə də xəstəliyin kəskin artdığını görsək, başqa çarəmiz olmayacaq, karantin rejimi sərtləşdiriləcəkdir. Biz bunu etmək istəmirik. Mən istəyirəm ki, bu yumşalma prosesi tədricən davam etsin və sonrakı yumşalma addımını şərtləndirsin. Əgər vətəndaşlar qaydalara əməl etməsələr xəstəlik yenidən alovlanacaq, Yenə də sərtləşdirilmiş tədbirlər görüləcək, yenə də iqtisadiyyata zərbə vurulacaq, yenə də insanlar xəstələnəcəklər. Ona görə bütün Azərbaycan vətəndaşlarına bir daha müraciət edirəm ki, məsuliyyətli olun. Bu, dünya üçün çox ciddi problemdir, bu gün dünyanın bir nömrəli bəlasıdır. Ona görə hamımız məsuliyyətli olmalıyıq. Əgər belə olsa, dediyim bütün tapşırıqlar yerinə yetirilsə, biz qısa müddət ərzində bu karantin rejimini daha da yumşaldıb normal həyata daha tez qayıda bilərik.

Hesab edirəm ki, bugünkü müzakirə çox faydalı oldu və verilən bütün tapşırıqlar lazımi səviyyədə yerinə yetirilməlidir.



Azərbaycanın birinci vitse-prezidenti:

# "Mən gələcəyə nikbin baxıram"

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, xeyriyyəçilik aksiyalarının həyata keçirilməsi, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu aktuallıq, ilk növbədə, onunla şərtlənir ki, elmi-texniki inqilabın məhsulu olan müasir informasiya-kommunikasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, bəzi hallarda insanlar arasında mənəvi uçurumu, psixoloji səddi dərinləşdirir, mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək, ictimai düşüncədə xeyirxahlıq, humanizm, insanpərvərlik, mərhəmət kimi ali keyfiyyətlərin möhkəmlənməsinə nail olmaq missiyası isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ülu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata

keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Bütün dövrlərin belə parlaq simaları üçün səciyyəvi keyfiyyətlərdən biri də onların qlobal miqyasda insanlığın nicatına xidmət edən ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. Bu baxımdan deyə bilirik ki, narahat dünyamızda nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə əzmlə çalışan, insan amilini daim uca tutan sülh elçiləri sırasında Azərbaycanın birinci xanımı, 1-ci Vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir.

Qədim və zəngin tariximizin hər bir səhifəsində Azərbaycan qadınının müdrikliyi və qəhrəmanlığının parlaq nümunələri olub. Mehriban xanım öz fəaliyyətində Azərbaycanda qadın hərəkatını canlandıraraq onun tarixində yeni bir mərhələ açmışdır.

Ulu öndərin yaratdığı və özünün də müəllifi olduğu Yeni Azərbaycan Partiyasının təşəkkül tapdığı 1992-ci ildən Mehriban xanım partiyanın üzvü olaraq, müasir və müstəqil dövlətimizin qurulması və daha da inkişaf etməsi prosesinin fəal iştirakçısına çevrildi. O, yaxşı dərk edirdi ki, bütün zamanlarda milləti qədim, köklü xalq kimi tanıdan və bütün dünyada qəbul etdirən onun dili, mədəniyyəti, tarixi, milli-mənəvi dəyərləridir. Məhz buna görə də o, özünün çoxşaxəli fəaliyyətini bu amillər, prinsiplər üzərində qurdu. Bütün ictimai şüuru ilə azərbaycançılıq ideologiyasına bağlı olması, dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə fəaliyyət göstərməsi az bir zamanda ona xalqın böyük rəğbətini, sevgisini qazandırdı. Onun fəaliyyətini qiymətləndirən bir çox xarici ölkələrin tanınmış siyasətçiləri, ictimai xadimləri qeyd edirlər ki, “Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir”.

Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərə nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil.

> *Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir.*

1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunun prezidenti, 2002-ci ildə isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi üzərinə böyük məsuliyyət götürərək, yaddan çıxmış sahələri ətalətdən çıxararaq onlara kütləvilik elementləri ilə zəngin olan ictimai məzmun verdi. Mehriban xanım Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması, təbliği üçün ilk olaraq “İrs” jurnalını təsis etməklə başladı. Təbii ki, görülən işlərin mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı.

Onun fəaliyyətinin mahiyyətində mərhəmət və ülvilik hissi dayanır. Mehriban xanımın bu fikirləri sözlərimizi təsdiq edər: “Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. İstər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır”.

O, 2004-cü il mayın 10-da Heydər Əliyev Fondunu yaratmaqla, ulu öndər Heydər Əliyevin vətənimizin və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Fondun çoxşaxəli fəaliyyətini göz önündə canlandıranda belə bir əzəmətli mənzərədən heyrətlənməmək olmur. Onun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş çalışmalar, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdu. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, “milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir”. Görülən işlərin, irimiqyaslı layihələrin həcmini təsəvvürə gətirəndə aydın olur ki, bütün bunlar Birinci vitse-prezident, Mehriban xanım Əliyevanın vətən və xalq naminə qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəldiyinin bariz nümunəsidir.

Mehriban xanım Əliyeva demişdir: “İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz



Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır. Əziz dostlar, mən öz ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir. Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam".

YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri kimi, Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması və qorunması sahəsində onun misilsiz fəaliyyətinin məntiqi nəticəsi kimi dəyərləndiririk. Xüsusən də, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin qurumun Ümumdünya İrs Siyahısına daxil edilməsi bütövlükdə Azərbaycanın, onun mədəniyyətinin böyük uğuru və qələbəsidir.

*İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq.*

Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban xanımın fondun rəhbəri kimi, ən böyük məqsədi də Heydər Əliyev irsinin bir məktəb kimi yeni nəslə öyrədilməsi, təbliğ olunmasıdır. Mehriban Əliyeva onun ideallarına sadiq qalaraq, milli-mənəvi dəyərlərimizi özünün həyat tərzində və düşüncəsində yaşadaraq ulu öndərin yolunu ləyaqətlə davam etdirir. Bu, xalqın gələcəyini möhkəm özüllər üstə qurmağa, onu inkişaf etdirməyə aparan ən işıqlı yoldur. Bu, ulu öndərin apardığı yaradıcılıq və quruculuq işlərinin davamı olaraq vətən və xalq naminə fəaliyyət göstərməyin ən doğru yoludur. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir.

O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin



**Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında.** ***31 oktyabr 2019-cu il***

dünya ictimaiyyətinə çatdırılması - xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atmış, dərin ictimai rəğbət qazanmışdır.

Mehriban xanım Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir. Bütün fəaliyyətində işgüzarlığı, böyük səyi və bacarığı ilə seçilən Mehriban xanım müsahibələrinin birində birinci xanım missiyasının məsuliyyətini şərh edərək demişdir: “Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür...”.

Ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğı, böyük dəstək vaxtaşırı olaraq idmançılarımızın dünyada keçirilən yarışlarda vətənə uğurlar qazandırmasına səbəb olmuşdur. Mehriban xanımın bu sahədə də böyük uğurlara nail olması, 2004-cü ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilməsi ölkəmizdə idmanın inkişafında məqsədyönlü fəaliyyətinin aparılmasına öz təsirini göstərdi. Azərbaycanda bir-birinin ardınca baş tutmuş beynəlxalq konfrans və festivallar, yüksək səviyyədə təşkil olunmuş idman oyunları dünyanın nüfuzlu dövlətlərinin böyük marağına səbəb olmuşdur. Onun “Bakı-2015” Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri olaraq əlahiddə bir bacarıq nümayiş etdirməsi ölkəmizə başqa dövlətlərin də inamının, böyük marağının yaranmasına səbəb olmuşdur. 2017-ci ildə ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsində də bu oyunların təşkilat komitəsinin sədri kimi onun zəhməti təqdirəlayiqdir.

Bütün bu çalışmalar, yeni axtarışlar bacarıqlı, işgüzar birinci ledinin vəzifə pillələrində yüksəlməsini zəruri etdi. Mehriban Əliyeva Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. Həmin gün Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyeva bildirmişdir:

“Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa, öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır... Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam”.

Ümumiyyətlə, Azərbaycan cə-

miyyətinin Birinci vitse-prezidentin təyinatı ilə bağlı nikbin ovqatı Mehriban xanım Əliyevanın dövlət idarəçiliyində xalqa və dövlətə daha çox fayda vermək imkanlarının genişlənməsi ilə bağlıdır.

Bu gün xalqımızın yaşadığı ağrılar heç şübhəsiz, torpaqlarımızın 20 faizindən çoxunun işğal altında olması, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın torpaq itkisi ilə bağlıdır. Mehriban xanımın gördüyü işlər sırasında qaçqın və məcburi köçkünlərin həyat və məişət şəraitinin yaxşılaşdırılması fəaliyyət proqramının ən ümdə vəzifələri sırasındadır. Azərbaycanın Birinci vitse-prezidenti kimi xanım Mehriban Əliyevanın elə ilk keçirdiyi müşavirə də müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin mənzillə təmin edilməsinə həsr olunmuşdur. Birinci vitse-prezident bildirib ki, "Dövlət proqramına uyğun olaraq, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir.

O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünya ölkələrində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bu, fitri istedad sahibinin milli-bəşəri ideallara sadiqliyi, dünya cəmiyyətinə nikbin baxışlarının məntiqi ifadəsidir.

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətdəki rolu barədə aydın təsəvvür yaradır. O, humanizm və qayğı kimi keyfiyyətləri təcəssüm etdirməklə hamı üçün gözəllik, xeyirxahlıq və mərhəmət nümunəsidir. Yüz il bundan əvvəl Azərbaycan Şərqdə qadınlara seçki hüququ verilən ilk ölkə kimi tarixə düşmüşdür. Bu gün, yəni, yüz il sonra Mehriban xanımın simasında Odlar diyarı dünyaya yeni qadın obrazı təqdim edir. Xüsusilə, postsovet məkanında birinci xanım institutunun əhəmiyyəti və rolunun aktivləşməsi sahəsində çox böyük töhfələr verir.

Mehriban xanım eyni zamanda möhtərəm Prezidentin ən yaxın silahdaşı, qayğıkeş ana, sevimli nənədir. Ailə qayğıları, ictimai və siyasi fəaliyyəti bir arada və yüksək səviyyədə yerinə yetirmək böyük peşəkarlıq və səbir tələb edir. Bununla bağlı, Mehriban xanım qeyd edir ki, "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə, həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, beş nəvəm var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla, istəmirəm".

*Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalıdır.*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın vətənin və xalqın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə inamımız böyükdür. Bu inamı yaradan başlıca amil də qeyd etdiyimiz kimi, onun hər zaman dövlətçiliyimizə, xalqımıza xidmət etmək istəyi, arzusunda olmasıdır.

Mehriban xanım Əliyeva 2005, 2010 və 2015-ci illərdə üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir.

Millət vəkili kimi ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbul edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı qanunlara dəyişiklik edilməsində, əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsində Mehriban xanımın iştirakı diqqətəlayiqdir.

Azərbaycanın Birinci vitse – prezidenti Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

23 noyabr 2019-cu il tarixdə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyanın nümayəndələri də iştirak etmişlər.

Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərdə Konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr fəal iştirak ediblər.

Konfederasiya üzvləri inanırlar ki, "Azərbaycan" pavilyonunun açılışı çərçivəsində Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumu azərbaycan sahibkarlarına münbit şərait yaratmaqla hər iki ölkənin iqtisadiyyatının inkişafına əhəmiyyətli tövhə verəcəkdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün




dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

Məlum olduğu kimi, cari ildə bütün bəşəriyyət görünməz bir düşmənə koronavirus pandemiyasına qarşı mübarizə aparır. Pandemiya dövrünün çətinlikləri fonunda maliyyə yardımı almaq məqsədilə dünyanın 150-dən çox ölkəsinin beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi bir şəraitdə Azərbaycanın öz problemlərini daxili imkanlar hesabına uğurla həll etməsi əldə olunmuş nailiyyətlərin mühüm amillərindən biri kimi qeyd edilməlidir.

Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və Birinci vitse-prezidentin rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.

Birinci vitse-prezidentin təşkilatçılığı ilə keçirilən bütün tədbirlərdə Mehriban xanım dəfələrlə qeyd etmişdir ki, pandemiya dövründə Azərbaycanın siyasətinin mərkəzində azərbaycan vətəndaşının sağlamlığı birinci dərəcəli prioritet məsələdir və bunun üçün dövlət bütün qüvvəsini səfərbər etmişdir.

Azərbaycan xalqına “Sevgilərlə, Sizin MEHRİBAN”, -deyə müraciət edən birinci vitse-prezident Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqa müraciətində yazır:

“Hörmətli həmvətənlər! Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun. Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə qürur. Vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə qürur. Ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi.

Birlik və ruh yüksəkliyi nümayiş etdirərək tarixi həqiqətin təntənəsi – Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir. Bu günlər ərzində əsl Vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram.

Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur. Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!”

Böyük qürur və iftixar hissi ilə qeyd etmək olar ki, Mehriban xanım öz zəngin fəaliyyəti ilə ölkəmizi bütün dünyada tanıdan şəxsiyyətlərdən biridir və bütövlükdə Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti göstərir ki, görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın Azərbaycanın inkişafı istiqamətində apardıları işləri dəstəkləyən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə sahibkarlarının yekdil iradəsini ifadə edərək, Mehriban xanımı ad günü münasibətilə ürəkdən təbrik edir, uzun ömür, can sağlığı və Azərbaycanın tərəqqisi naminə fədakar əməyində müvəffəqiyyətlər arzulayır.

# Baş Nazir cənab Əli Əsədovun rəhbərliyi ilə Operativ Qərargah fasiləsiz iş rejimində

Məlum olduğu kimi, cari ildə bütün bəşəriyyət görünməz bir düşmənə koronavirus pandemiyasına qarşı mübarizə aparır. Pandemiya dövrünün çətinlikləri fonunda maliyyə yardımı almaq məqsədilə dünyanın 150-dən çox ölkəsinin beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi bir şəraitdə Azərbaycanın nəinki öz problemlərini daxili imkanlar hesabına uğurla həll etməsi hətta digər ölkələrə yardım etməsi, əldə olunmuş nailiyyətlərin mühüm amillərindən biri kimi qeyd edilməlidir.



Ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamaqdadır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşmüş və ölkəmiz pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Modernləşmə kursunu həyata kecirən Azərbaycan Respublikasında iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsədüfü deyil ki, Koronavirus Pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda, ölkəmiz qlobal böhranın təsirindən qorunmuş, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etdirilir. Cənab Prezidentin tapşırığına əsasən pandemiya ilə əlaqədar maliyyə, inzibati və digər resursların hamısı bu sahəyə yönəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamı ilə pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər əsasında

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq tədbirlərinin və birdəfəlik aylıq yardımların maliyyələşməsi artıq həyata keçirilmiş, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara maliyyə dəstəyi tədbirləri mütamadi olaraq həyata keçirilməkdədir.

Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə Vergi Məcəlləsində güzəştlər nəzərdə tutulmuşdur. Qanunda həmin sahələrin adı verilməklə, karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması dövründə yeni fəaliyyət sahələri əlavə edilərsə, onların da bu güzəştlərdən faydalanması nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyevin tapşırığına əsasən ölkədə koronavirus pandemiyasına qarşı aparılan tədbirlərin görülməsində Nazirlər Kabinetinin fasiləsiz fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Belə ki, Nazirlər Kabinetinin 2020-ci il 30 yanvar tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilmiş və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir.

Cari ilin fevral ayında azərbaycanda ilk yoluxma faktı qeydə alındı və fevral ayının 27-dən başlayaraq bu xəstəliyin qarşısını almaq və əhalimizin sağlamlığı üçün mübarizəni gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Nazirlər Kabineti yanında Azərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədovun rəhbərliyi ilə aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradılmışdır.

İlk günlərdən başlayaraq bugünə qədər cənab Əli Əsədovun rəhbərliyi ilə Operativ Qərargahda iştirak edən bütün şəxslər, o cümlədən qərargahın üzvü olmayan digər bütün hökumət üzvləri və dövlət qurumları bunu əsas vəzifə kimi görür, bu istiqamətdə gecə-gündüz çalışırlar.

**İnsanlarımız maska və sosial izolyasiya rejiminə, sanitar-epidemioloji qaydalara hələ uzun müddət riayət etməlidir.**

Bununla bağlı ən qısa müddət ərzində Azərbaycanda koronavirusla birbaşa mübarizə üçün 10 mindən artıq çarpayı yeri hazırlanmış, Respublikanın 35 rayon və şəhərində 46 xəstəxana bu istiqamətdə fəaliyyət göstərir.

Bu dövr ərzində Azərbaycan həkimlərinin səyi nəticəsində təxminən 30 min nəfər xəstəlikdən sağalaraq evlərinə qayıtmışlar. Bu göstəricilər digər ölkələrlə müqayisədə həddindən artıq yaxşıdır. Rəsmi statistika həm bizim ölkə, həm də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən aparılır. Əsasən, iyunun 21-dən etibarən xəstəlik Bakı şəhəri ilə bərabər Azərbaycanın bəzi bölgələrində çoxalmağa başlamışdı. Bunu nəzərə alaraq, respublikanın 15 rayon və şəhərində sərtləşdirilmiş karantin rejimi tətbiq olundu. Bu zonalarda xüsusi sərtləşdirilmiş rejim tətbiq etməkdə məqsəd xəstəliyi cilovlamaq və bunun digər bölgələrə yayılmasının qarşısını almaq idi. Görülmüş tədbirlərin nəticəsi iki həftədən sonra özünü göstərdi. Bir rəqəmi xüsusi qeyd olunmalıdır ki, ən pik vəziyyət 15 iyul tarixində qeydə alınmışdır. Respublikada aktiv xəstələrin sayı 8,7 min nəfər idi və görülmüş tədbirlər nəticəsində son statistikaya əsasən müalicə alan xəstələrin sayı Naxçıvan Muxtar Respublikası da daxil olmaqla respublika üzrə 2,3 dəfə azalaraq 4 min nəfərdən az olmuşdur. Bununla əlaqədar, əvvəlki 6 laboratoriyanın əvəzinə, hazırda fəaliyyət göstərən 31 laboratoriyada bu günədək 800 minə yaxın test aparılmışdır ki, bu digər ölkələrlə müqayisədə çox yüksək nəticədir. Azərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədovun rəhbərliyi ilə qısa müddətdə laboratoriyaların 40-a çatdırılması nəzərdə tutulmuşdur.

Ölkə Prezidentinin 18 mart tarixli Sərəncamına uyğun olaraq, koronavirusla mübarizədə iştirak edən tibbi personala əməkhaqqının 3-5 misli qədər müddətli əlavələr verilməsi tapşırılmış və Baş Nazir Əli Əsədovun rəhbərliyi ilə bu işlər icra edilərək, mart-iyun ayları ərzində 64 min 38 nəfər tibbi personala bu günə qədər 60 milyon manata yaxın vəsait vaxtında çatdırılmışdır.

Bununla yanaşı, Operativ Qərargahın köməkliyi ilə digər ölkələrdən böyük təcrübəyə malik olan həkim personalı Azərbaycana gətirilmişdir. Bu həkimlər Türkiyə, Rusiya, Çin, İtaliya və Kubadandır. Bu gün ümumilikdə 215 nəfərdən ibarət tibbi heyət bizim həkimlərlə bərabər fəaliyyət göstərir. Görülmüş preventiv tədbirlər nəticəsində və xüsusi karantin rejimi tətbiq olunandan sonra bu riskli zonalarda əhalimiz bu məsələlərdə daha diqqətli olmağa başlamışdır. Bu, özünü həm izolyasiyada, həm də maskalardan istifadə və digər epidemioloji tədbirlərə əməl edilməsində göstərir. Bunun nəticəsi olaraq, Operativ Qərargah görülmüş işlər, xəstəliyin cilovlanması və azalması sayəsində avqustun 5-dən bəzi yumşalma proseslərinə

başlamışdır. O cümlədən əvvəlki 16 şəhər və rayonun 3-ü Lənkəran, Samux və Siyəzən rayonları bu zonadan kənarlaşdırılmışdır.

Digər 13 şəhər və rayonda yumşalma prosesləri başlanılıb. Yay fəsli nəzərə alınaraq qərara alınıb ki, insanlar çimərliklərdən istifadə edə bilərlər. Əsas məqamlardan biri də ondan ibarətdir ki, SMS və "icaze.e-gov.az" portalı vasitəsilə icazə mexanizmi ləğv olunduqdan sonra vətəndaşlar sərbəst hərəkət edə bilirlər.

Bununla əlaqədar, insanlarımız maska və sosial izolyasiya rejiminə, sanitar-epidemioloji qaydalara hələ uzun müddət riayət etməlidir. O cümlədən həkimlərin və sanitar-epidemioloji qurumların tövsiyəsinə əsasən, açılmaqda olan obyektlərin fəaliyyəti üzrə lazım olan bütün təlimatlar hazırlanıb. Əhali və sahibkarlar da bilməlidir ki, həmin qaydalara çox ciddi şəkildə riayət olunmalıdır və buna xüsusi nəzarət ediləcək.

Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair tədbirlər planının ən əhatəli bölmələrindən biri də məhz məşğulluğa və sosial rifaha dəstək tədbirləri idi.

Bu dörd istiqamət olmaqla 12 tədbiri əhatə edirdi. Burada həm məşğulluq, həm sosial müdafiə, həm də sosial təminat məsələləri öz əksini tapmışdır.

Demək olar, əhalinin yarısını, beş milyon insanı əhatə edən tədbirlər planı icra olunmaqdadır. Tədbirlər planının birinci istiqaməti əmək müqaviləsi ilə işləyən insanların məşğulluğunun qorunması və onun təmin edilməsi idi. Həm dövlət, həm də özəl sektorda 1 milyon 660 min insanın məşğulluğu davam etdi, onların iş yerləri və əməkhaqları qorundu.

İkinci bir istiqamət isə, işsiz və gəlirini itirən aztəminatlı qeyri-formal işləyən şəxslər idi. Bu istiqamətdə bir sıra silsilə tədbirlər




həyata keçirildi. 190 manatla bağlı ödəniş aprel, may, iyun aylarında tam şəkildə icra olunub. Ölkə Prezidentinin tapşırığına əsasən avqust ayı üzrə də 13 şəhər və rayon üzrə bu ödənişlər çox sürətlə həyata keçirilir. Bu istiqamətlər üzrə indiyədək 280 milyon manat vəsait xərclənmişdir.

Digər bir istiqamət olaraq, işsiz və qeyri-formal işləyən şəxslər üçün xüsusi olaraq yaradılan haqqıödənilən ictimai işlər proqramı idi. Bu iş yerlərinin sayı da 90 minə qədər artırıldı, özünüməşğulluq proqramının genişləndirilməsinə başlanıldı. Onlardan 38 mini davamlı iş yerləridir, 52 mini isə ikiaylıq iş yerləri idi.

Ünvanlı sosial yardım proqramının artırılması, əlavə 14 min ailənin, 58 min şəxsin bu proqrama cəlb olunması, digər tərəfdən mənzil və avtomobil təminatı proqramımızın genişləndirilməsi çox önəmli rol oynadı.

Sosial tərəfdaşların köməyi ilə 100 min ailəyə iki dəfə, yəni faktiki 200 min ərzaq payı təqdim olundu. Burada əsas əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqları olan ailələr, çoxuşaqlı ailələr, aztəminatlı digər kateqoriyadan olan insanlara dəstək tədbirləri göstərildi.

Məlum olduğu kimi, cari ilin avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.

Müşavirədə çıxış edən Baş Nazir cənab Əli Əsədov ölkə başçısının tapşırıqlarının icrası olaraq, Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın qarşısına qoyulmuş vəzifələrin bundan sonra da uğurla icra ediləcəyini vurğulayaraq, xalqın sağlamlığının birinci dərəcəli prioritet məsələ olaraq gündəmdə qaldığını bildirdi.

Baş nazirin dövlətin bu istiqamətdə həyata keçirdiyi proqramların davamlı olacağını söyləməsi onu deməyə əsas verir ki, Azərbaycan hökuməti pandemiyanın vurduğu zərərlərdən çox az itkilərlə çıxmaq üçün bütün gücünü səfərbər etmişdir və bunun uğurlu nəticələri göz qabağındadır.

Ölkə Prezidenti müşavirənin sonunda Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Operativ Qərargah tərəfindən görülən işlərə yüksək qiymət verərək, bütün tapşırıqların bundan sonra da lazımi səviyyədə yerinə yetiriləcəyinə inandığını bildirdi.

# İqtisadiyyat naziri Mikayıl Cabbarov sahibkarlarla görüşdü

**Avqustun 7-də İqtisadiyyat naziri Mikayıl Cabbarov sahibkarlarla onlayn görüş keçirib.**




Görüşdə İqtisadiyyat Nazirliyinin rəhbər vəzifəli şəxsləri, eləcə də pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən 280-dən çox sahibkar iştirak edib.

Tədbirin əsas məqsədi yeni şəraitdə biznesin fəaliyyəti, istehsal və xidmət sahələrində tətbiq edilən davranış qaydaları, pandemiyanın özəl sektora mənfi təsirlərinin aradan qaldırılması yollarının müzakirəsi olub.

Görüşdə İqtisadiyyat naziri qeyd edib ki, 2020-ci il Azərbaycan üçün uğurlu başlasa da, pandemiya bütün ölkələrdə olduğu kimi, milli iqtisadiyyatı da yeni çağırışlarla üz-üzə qoyub, məcburi məhdudlaşdırmalar iqtisadi fəallığın zəifləməsinə, biznesin maliyyə itkiləri ilə qarşılaşmasına gətirib çıxarıb. Pandemiyanın milli iqtisadiyyata, məşğulluğa və sahibkarlıq subyektlərinə mənfi təsirlərinin minimallaşdırılması üçün Prezident İlham Əliyev dövlət orqanları qarşısında çox ciddi vəzifələr qoyub. Nazirlər Kabineti tərəfindən iqtisadiyyata geniş dəstək paketini nəzərdə tutan proqramlar, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən çoxşaxəli mühüm sənədlər qəbul edilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində insan amilinin dayandığını vurğulayan nazir, sıx dövlət-vətəndaş həmrəyliyinə söykənərək insanların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin önəmini diqqətə çatdırıb.

Pandemiyanın iqtisadiyyata neqativ təsirləri barədə məlumat verən İqtisadiyyat naziri, 2020-ci ilin birinci yarımilliyi üzrə ÜDM-də azalmanın qeydə alındığını, əksər iqtisadi sektorlarda azalma müşahidə olunduğunu qeyd edib. Vurğulanıb ki, iqtisadiyyata təhdidlərin qarşısının alınması istiqamətində qeyri-neft sektorunda iqtisadi fəallığın canlandırılması, iş yerlərinin qorunması baxımından stimullaşdırıcı effektli layihələrin və tədbirlərin maliyyələşdirilməsi, investisiyayönümlü kreditləşdirmə, özəl investisiya qoyuluşunun təşviq edilməsi, tikinti-məşğulluq və digər istiqamətlərdə təkanverici tədbirlərin görülməsi qarşıda duran əsas hədəflərdəndir.

Özəl sektorun iqtisadiyyatın aparıcı qüvvəsi olduğunu vurğulayan Mikayıl Cabbarov, dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinə yeni maliyyə dəstəyinin göstərilməsi ba-

rədə qərar qəbul etdiyini bildirib. Qərara əsasən, mövcud şəraitin sahibkarlığa mənfi təsirlərini minimallaşdırmaq və məşğulluğun qorunmasına dəstək məqsədilə pandemiyadan zərərçəkmiş sahələrdə çalışan vergiödəyicilərinə işçi sayına münasibətdə bir aylıq əməkhaqqı fondu həcmində, fərdi (mikro) sahibkarların isə daha çox ehtiyacı olan hissəsinə təkrarən 250 manat həcmində maliyyə dəstəyi göstəriləcək. Bunlarla yanaşı, Nazirlər Kabinetinin qərarı ilə 2020-ci il aprelin 1-dən 2021-ci il 1 yanvarın 1-dək sahibkarlar dövlət və bələdiyyə torpaq sahələrinin, hüquqi şəxslər və fərdi sahibkarlar (o cümlədən həmin kateqoriyadan olan sənaye məhəllələrinin iştirakçıları) dövlət əmlakının icarə haqqından azad edilir. İqtisadiyyat naziri, həmçinin sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, pandemiyadan zərərçəkmiş sahələrə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə sahibkarlığın maliyyələşdirilməsi alətlərinin genişləndirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, sahibkarların dövlət zəmanətli krediti asan və şəffaf formada əldə etməsi üçün yaradılmış Elektron Kredit Platforması vasitəsilə artıq bir ay ərzində 12 milyon manatdan çox kredit verilməsi təsdiq edilib.

Bildirilib ki, hazırkı şəraitdə cəmiyyət, eləcə də sahibkarlar yaranmış yeni tələblərə uyğunlaşmalıdır. Pandemiyanın nə zaman bitəcəyi məlum deyil. Cəmiyyət yeni həyat tərzinə hazır olmalı, sahibkarlar da biznes fəaliyyətini yaranmış şəraitə uyğunlaşdırmalıdırlar. Qapalı məkanlarda maska taxılmalı, obyektlər mütəmadi olaraq dezinfeksiya edilməli, antiseptik vasitələrdən istifadə olunmalı, işçi heyətin maska və əlcəkdən istifadəsi təmin edilməli, vətəndaşların maskasız obyektlərə daxil olmasının və sıxlığın qarşısı alınmalı, fiziki məsafə qorunmalıdır. Yeni həyat tərzinin rəqəmsal həllərin tətbiqini tələb etdiyini deyən İqtisadiyyat naziri məsafəli xidmətin imkanlarının genişləndirilməsinin vacibliyini vurğulayıb. Ticarət və xidmət obyektləri yeni qaydalara nə qədər tez vərdiş etsələr, bu onların biznesi üçün bir o qədər səmərəli olar.

Görüşdə sahibkarlar yaranmış vəziyyətin onların fəaliyyətinə göstərdiyi mənfi təsirləri qeyd edib, istehsal və xidmət sektorlarında yeni qaydaların tətbiqinin təkcə sahibkarlardan deyil, eləcə də cəmiyyətin hər bir üzvündən asılı olduğunu bildirib, iqtisadi itkilərin aradan qaldırılması, iqtisadi fəallığın bərpası üçün dövlətdən əlavə dəstək gözlədiklərini diqqətə çatdırıblar. Biznesin fəaliyyətinin yeni, fərqli şəraitdə davam edəcəyini vurğulayan iş adamları bu çətin dövrdə dövlət-biznes əməkdaşlığının daha zəruri xarakter daşıdığını qeyd ediblər.

Görüşlə bağlı əvvəlcədən elan edilmiş elektron poçt ünvanına sahibkarlardan çoxsaylı sual və təkliflər daxil olub, həmçinin tədbir zamanı əlavə təkliflər səsləndirilib. Müraciətlərin əsas hissəsi pandemiyadan zərərçəkmiş sahələrin əhatə dairəsinin genişləndirilməsi, vergi güzəştlərinin müddətinin uzadılması, vergi borclarının ödənilməsi üçün güzəşt müddətlərinin müəyyən edilməsi, sosial ödəmələr üzrə əlavə tətilin verilməsi, dövlət zəmanətli kreditlərin müddətinin uzadılması və sair məsələlərlə bağlı olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov sahibkarların suallarını cavablandırıb, təkliflərlə bağlı fikirlərini bildirib. Görüşdə pandemiyanın özəl sektora təsirlərinin minimallaşdırılması, biznesin dirçəldilməsi və inkişafı yolları müzakirə olunub.



# Azərbaycan sahibkarı ölkə rəhbərliyinin hər bir çağrışına hazırdır

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı nəzərə alan ölkə Prezidenti milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışır.

Məlum olduğu kimi, cari ildə bütün bəşəriyyət görünməz bir düşmənə koronavirus pandemiyasına qarşı mübarizə aparır. Pandemiya dövrünün çətinlikləri fonunda maliyyə yardımı almaq məqsədilə dünyanın 150-dən çox ölkəsinin beynəlxalq maliyyə qurumlarına müraciət edildiyi bir şəraitdə Azərbaycanın öz problemlərini daxili imkanlar hesabına uğurla həll etməsi haqqındakı məlumatlar da əldə olunmuş nailiyyətlərin mühüm amillərindən biri kimi qeyd edilməlidir.

Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.



**MƏMMƏD MUSAYEV**
Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışlara sahibkarlar da qoşularaq cəmiyyətində yüksək həmrəylik nümayiş etdirilmişdirlər.

Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamı ilə pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər əsasında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq tədbirlərinin və birdəfəlik aylıq yardımların maliyyələşməsi, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara maliyyə dəstəyi tədbirləri mütamadi olaraq həyata keçirilməkdədir.




Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə Vergi Məcəlləsində güzəştlər nəzərdə tutulmuşdur. Qanunda həmin sahələrin adı verilməklə, karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması dövründə yeni fəaliyyət sahələri əlavə edilərsə, onların da bu güzəştlərdən faydalanması nəzərdə tutulmuşdur.

Cari ilin iyulun 15-də Prezidentin Sədrlik etdiyi Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarımilinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası Azərbaycan dövlətinin tarixinə pandemiya dövrünün sosial-iqtisadi inkişafının hesabatı kimi daxil oldu. Çünki 2020-ci ilin birinci yarısının üç aydan artıq müddəti koronavirusla mübarizənin prioritet hesab edildiyi bir mərhələ olmuşdur.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının yekunlarına həsr edilmiş iclası həm də sanki müharibə şəraitində dövlət səviyyəsində çağırılmış ölkəmiqyaslı toplantı idi. Qeyd edilən iclasda müzakirə edilmiş əsas məsələlərdən biri də Ermənistan-Azərbaycan sərhəddində baş vermiş hadisələrə həsr edilmişdir.

Bu dövrdə Konfederasiyaya sahibkarlardan çoxlu sayda müraciət daxil olmuş, bütün sahibkarlarımız dövlətimizin, ordumuzun, qəhrəman əsgərlərimizin yanında olduqlarını bəyan etməklə, onlara dəstək olmaq istədiklərini qeyd etmişlər.

Azərbaycan sahibkarları dövlət başçısı cənab İlham Əliyevin apardığı siyasəti bəyənir, onun rəhbərliyi ilə atılacaq hər hansı bir addımlara dəstək verməyə daim hazır olduqlarını bildirmişlər.

Azərbaycan Sahibkarlar Konfederasiyası dövrü mətbuat vasitəsilə ictimaiyyətə müraciət edərək, koronavirus pandemiyasının doğurduğu ciddi təhlükəni bir an belə unutmamağı, yoluxma riskini dəfələrlə artıran toplaşmalardan çəkinməyi, özünütəcrid qaydalarına riayət etməyi tövsiyyə etmişdir.

Konfederasiya rəhbərliyi inanır ki, ictimaiyyət bu müraciəti anlayışla qarşılayaraq xüsusi karantin rejiminin tələblərinə əməl edəcək, insanların sağlamlığının qayğısına qalacaqdır.

Məlumdur ki, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində təxirəsalınmaz tədbirlərin görülməsi nəzərdə tutulur. Tədbirlər Planının bir istiqaməti pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi sahibkarlara, o cümlədən mikrosahibkarlara maliyyə dəstəyinin göstərilməsidir. Cari ilin 1 iyul tarixinə muzdlu işçilərin əməkhaqlarının kompensasiyası çərçivəsində 24 min 300 vergiödəyicisi üzrə 210 min muzdlu işçiyə 95 milyon manat vəsait ödənilib. Bundan başqa, mikrosahibkarlara maliyyə dəstəyi paketi çərçivəsində 105,6 min vergiödəyicisinə 63 milyon vəsait ödənilmişdir.

Tədbirlər Planının mühüm istiqamətlərindən biri də pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə veriləcək 500 milyon manat yeni bank kreditləri üzrə dövlət zəmanətlərinin verilməsi və 1 milyard həcmində mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasıdır. Hazırda hər iki mexanizm İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan və ölkədə ilk dəfə tətbiq olunan rəqəmsal kredit platforması vasitəsilə həyata keçirilir.



Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli fərmanı ilə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası təsdiq olunmuşdur.

Cari ilin iyul ayının sonunadək Elektron Kredit Platforması üzərindən yeni biznes krediti sifarişi təxmini olaraq 500 milyon manat olan 1500-dək müraciət daxil olmuş, artıq bir sıra müraciətlərə baxılmış və 50-dək müraciət üzrə ümumi həcmi təxmini 6 milyon manat olan kreditlərin ayrılması barədə qərarlar qəbul edilmişdir. Hazırda digər müraciətlərə baxılır və müəyyən olunmuş müddətdə nəticələr barədə sahibkarlara Elektron Kredit Platforması vasitəsilə məlumat veriləcəkdir.

Ümumilikdə qeyd olunan mexanizmin tətbiq olunması nəticəsində iqtisadi aktivliyin bərpa olunması, sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə əlçatanlığının artırılması, pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşunun sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması, pandemiyadan zərər çəkmiş sahibkarların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına imkan yaranacaqdır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütamadi olaraq iş aparılır.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

İqtisadiyyat nazirliyinin təşkilatçılığı ilə Sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədi ilə ötən il Bakıda və regionlarda 7 konfrans və dəyirmi masa təşkil edilib, ticarət qaydalarına əməl olunması ilə bağlı 8 maarifləndirici məlumat 560 mindən artıq elektron ünvana göndərilib, istehlakçı hüquqlarına dair 10 adda 13 mindən artıq buklet və yaddaş kitabçası paylanılıb. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərdə yaxından iştirak etmiş, tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabər hüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

2020-ci ilin mart ayında Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasın-

da 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında köməklik göstərir.

2019-cu ildə 19 xarici ölkəyə 25 ixrac missiyası həyata keçirilmiş, 11 beynəlxalq sərgilərdə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunmuş, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyinin daha da gücləndirilməsi istiqamətində daim iş aparılır.

Pandemiya dövrünün çətinlikləri fonunda maliyyə yardımı almaq məqsədilə bir çox ölkənin beynəlxalq maliyyə qurumlarına müraciət etdiyi bir şəraitdə Azərbaycanın öz problemlərini daxili imkanlar hesabına həll etməsi mühüm nailiyyətlərdəndir.



Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə 5 "Azərbaycan Ticarət Evi" açılmışır. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Azərbaycan Sahibkarlar Konfederasiyası tərəfindən 2020-ci il ərzində əksəriyyəti videokonfrans formatında olmaqla 40 yaxın konfrans, işçi görüş, dəyirmi masa və digər tədbirlərlə yanaşı, videogörüntü vasitəsilə 25-dən çox təlim və seminar keçirilmişdir.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaşlı işlər aparır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün ölkə prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından iştirakçı olmalıdırlar.

Biz isə Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq, koronavirus pandemiyasına qarşı çətin mübarizə günlərinə və erməni təxribatına baxmayaraq həmrəylik nümayiş etdirərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanır və əmin edirik ki, dövlətimizin daha da güclənməsi, rəqabətə davamlı istehsalın genişləndirilməsi və dünya miqyasında nüfuzunun daha da artması üçün bütün gücümüzü səfərbər edəcək, əlverişli biznes mühitindən yararlanmaqla ölkəmizin daha da çiçəklənməsi, əhalinin rifah halının yaxşılaşdırılması üçün var gücümüzlə çalışacağıq.

# Alim Quliyev: Prioritet istiqamətlərdən biri də biznesin inkişafında maliyyə təminatının daha da gücləndirilməsidir

2020-ci ilin yanvar ayından Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin yanında Sahibkarlarla Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Bu dövrdə Şuranın bir neçə iclası baş tutmuş, maliyyə sektoru ilə real sektor arasında birbaşa əməkdaşlığın qurulmasına və sahibkarları maraqlandıran bir neçə məsələnin həllini tapmasına səbəb olmuşdur.
*Müsahibimiz Azərbaycan Respublikası Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevdir.*

*– Alim müəllim, maliyyə bazarlarına nəzarət funksiyaları Azərbaycan Mərkəzi Bankına verildikdən sonra Mərkəzi Bankın ilk təşəbbüslərindən biri Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının yaradılması oldu. Xahiş edirəm, bu təşəbbüsün zəruriliyini şərh edəsiniz.*

– Ölkəmizin sosial-iqtisadi inkişafı, makroiqitisadi və maliyyə sabitliyinin dayanıqlığının artırılması istiqamətində Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında görülən əhəmiyyətli işlər, genişmiqyaslı islahatlar, xüsusən məlum pandemiya şəraitində və neft qiymətlərinin kəskin düşməsi nəticəsində qlobal iqtisadiyyatın üzləşdiyi ağır böhranın milli iqtisadiyyatımıza təsirlərinin azaldılması, əhalinin sağlamlığının qorunması, onun iqtisadi fəallığının təmin olunması üzrə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində iqtisadi tənzimləmə institutları və maliyyə sektorunun qarşısında mühüm vəzifələr qoyulmuşdur. Bu xüsusda prioritet istiqamətlərdən biri də biznes sektorunun inkişafının maliyyə təminatının daha da gücləndirilməsi, sahibkarların maliyyə xidmətlərinə çıxış imkanlarının davamlı yaxşılaşdırıllması ilə bağlıdır.

Məhz, qeyd olunan strateji çağırışları, xüsusilə özəl sektorun maliyyə xidmətlərinə çıxışının daha da yaxşılaşdırılması zərurətini nəzərə alaraq məsələnin səmərəli və operativ həlli üçün hesab etdik ki, aktiv dialoq qurmaqdan əlaqəli tərəflərin bir masa ətrafında əyləşməsinə ehtiyac var. Bu ehtiyacdan çıxış edərək Mərkəzi Bankın nəzdində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Banklar Assosiasiyasının da iştirakı ilə sahibkarlarla maliyyə-bank sektoru arasında aktiv dialoq platforması kimi Sahibkarlarla Əməkdaşlıq Şurasının yaradılması təşəbbüsünü irəli sürdük. Bu təşəbbüs çox müsbət qarşılandı və cari ilin əvvəlində belə bir Şura yaradıldı və aktiv fəaliyyətə başladı. Bu dialoq platforması sahibkarların gündəlik fəaliyyətlərində qarşılaşdıqları problemlərin, real sektor müəssisələrinin maliyyə sektoru, xüsusilə banklarla qarşılıqlı fəaliyyətlərində meydana çıxan çətinliklərin həlli yollarının tapılmasına, nəticədə biznesin maliyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılmasına şərait yaradır. Sahibkarlarla maliyyə-bank sektoru arasında davamlı və sıx əməkdaşlıq bütövlükdə ölkədə istehsal və xidmət sahələrinin inkişafına, milli iqtisadiyyatın prioriteti kimi qeyri-neft sektorunda iqtisadi artımın sürətlənməsinə mühüm töhfə verir.

Özəl sektorun müxtəlif istiqamətlərini təmsil edən biznes subyektləri və bank nümayəndələri ilə yanaşı, sığortaçılar və kapital bazarı assosiasiyalarının nümayəndələrinin də daxil olduğu Sahibkarlarla Əməkdaşlıq Şurasının nəzdində spesifik məsələlərin hərtərəfli araşdırılması və həlli üçün yaradılmış İşçi Qrupları da fəaliyyət göstərir. Şurada qaldırılan məsələlər və səsləndirilən təkliflər hərtərəfli öyrənilir, həmin istiqamətlər üzrə maliyyə-bank sektoru və sahikarlarla birgə iş aparılır. Taktiki məsələlərin həlli üzrə operativ tədbirlər görülür, strateji xarakter daşıyan məsələlər üzrə isə Hökumətə, eləcə də müvafiq institutlara təkliflər verilir.

*– Bu günədək Sahibkarlarla Əməkdaşlıq Şurasının artıq iki iclası keçirilib. Şuranın fəaliyyəti və onun*



*sahibkarlar üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

– Bəli, qeyd etdiyiniz kimi Şurasın geniş iclasları keçirilmişdir. Bununla yanaşı, müvafiq İşçi qruplarının toplantıları təşkil olunmuş, qaldırılmış məsələlərin operativ həlli istiqamətində işlər aparılmışdır.

Şuranın fəaliyyəti çərçivəsində artıq görülmüş işlər barədə bir qədər təfərrüatlı yanaşsaq nümunə olaraq bir neçə prioritet məsələnin həlli üzrə görülmüş işləri qeyd etmək istərdim. Sahibkarların idxal əməliyyatları üzrə cari valyuta rejiminin effektivliyinin artırılması məqsədilə "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri- rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"na dəyişikliklər edilmişdir. Belə ki, qabaqcadan malların idxalı ilə əlaqədar ödəniş aparıldıqda malların ölkəyə idxalını təsdiq edən gömrük bəyannaməsi və ya idxal olunan xidmətlərin göstərilməsini təsdiq edən sənədlərin müvəkkil banka təqdim olunması müddəti mövcud 270 gündən ən geci 2 il müddətinə qədər uzadılmış, eyni zamanda idxal olunmayan mal və xidmətlərin dəyəri 10.000 (on min) ABŞ dolları ekvivalenti məbləğini aşmadığı halda valyuta nəzarəti orqanına bu barədə məlumatın verilməsi tələbi aradan qaldırılmışdır. Valyuta rejiminə dair bu dəyişiklik idxal əməliyyatlarının maliyyələşdirilməsində sahibkarların üzləşdiyi çətinliklərin həlli baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Ticarət əməliyyatlarında çeklərlə hesablaşmaların aparılması təcrübəsinin ölkəyə gətirilməsi istiqamətində də aktiv iş aparılır. Bu mexanizmin ölkəmizdə tətbiqi biznes hesablaşmalarının şəffaflaşmasına, ticarət dövriyyəsinin artmasına, ticarət əməliyyatlarının aparılmasında tərəfdaşların günlük likvidlik zərurətinin azalmasına, sahibkarlar tərəfindən gələcək valyutalaşma tarixində ödənişlərin həyata keçirilməsi, çeki təminat qismində təqdim etməklə bankdan əlavə resurs cəlb edilməsi imkanının yaranmasına, həmçinin ölkədə nağd pul dövriyyəsinin azalmasına şərait yaradacaqdır.

Bunlarla yanaşı, ölkə başçısının çağırışlarına cavab olaraq özünüməşğulluq proqramına banklar tərəfindən dəstək göstərilməsi, dövriyyə vəsaitlərinin çatışmazlığının həllindən ötrü sahibkarlara yeni kreditlərin ayrılması, kənd yerlərində girovsuz kreditlərin verilməsi, zəmanət mexanizmlərindən daha geniş istifadə edilməsi, sahibkarların nağdsız ödəniş imkanlarının genişləndirilməsi, kapital bazarlarına sağlam iştirakçıların cəlb edilməsi üçün stimullaşdırıcı tədbirlərin görülməsi, həmçinin sahibkarların maliyyə savadlılığının davamlı yüksəldilməsi və digər istiqamətlərdə fəal iş aparılır.

Xüsusilə qeyd etmək istərdim ki, biznes sektorunda gedən proseslər Mərkəzi Bankda dərindən təhlil olunur, sektorun problematikasının davamlı monitorinqi aparılır. Belə ki, Real Sektorun Monitorinqi çərçivəsində ildə 4 dəfə olmaqla bir ay müddətində 380 müəssisə və təşkilat, eləcə də 4250 ev təsərrüfatı arasında sorğular keçirilir. Müəssisələr arasında aparılan sorğular vasitəsilə işgüzar fəallıq və biznesə inam indeksi qiymətləndirilir, eləcə də iqtisadi konyunktur meylinin dəyişməsini əks etdirən qabaqlayıcı indekslər hesablanır. Bu proses, biznes sektorunda problemlərə çevik reaksiya vermək üçün aidiyyəti dövlət orqanının mütəmadi məlumatlandırılmasına, habelə Şuranın müzakirəsinə həmin məsələlərin vaxtında çıxarılmasına imkan verir.

Bütövlükdə Şuranın fəaliyyəti çərçivəsində bütün məsələlərin mütərəqqi və uğurlu həlli üçün qabaqcıl beynəlxalq təcrübələr, seçilmiş ölkələrin müvafiq modelləri yaxından öyrənilir. Bir qədər öncə toxunduğumuz çeklərlə hesablaşmalar təcrübəsinin ölkəyə gətirilməsi məqsədilə Türkiyənin Ziraat Bankı ilə təcrübə mübadiləsi, eyni zamanda Türkiyə Ticarət Nazirliyi və Türkiyə Kredi Kayıt Bürosu ilə danışıqlar aparılır. Yaradılması nəzərdə tutulmuş elektron çek sisteminin infrastrukturunun blokçeyn bazasında qurulması imkanları ABŞ-ın IBM şirkəti ilə müzakirə edilir. Bunlarla yanaşı, ölkədə mikrokredit və mikromaliyyə alətlərinin yaradılması, inkişafı üzrə təcrübə mübadiləsini təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə İtaliya Respublikasının Milli Mikrokredit Agentliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

*– Artıq qeyd etdiyiniz kimi, nağdsız dövriyyə ilə bağlı Türkiyədəki mövcud çek sisteminin tətbiqinə hazırlıq gedir. Bu sistemin Azərbaycanda qurulması ilə bağlı hansı planlarınız var?*

– Bəli, qeyd etdiyimiz kimi ticarət əməliyyatlarında çeklərlə hesablaşma modelinin ölkəmizdə tətbiqi məqsədilə Türkiyə təcrübəsi tərəfimizdən yaxından araşdırılmışdır. Çekin özünəməxsus xüsusiyyətləri ilə fərqlənən Türkiyə modelində çek ticarətin maliyyələşdirilməsi aləti kimi aktiv istifadə edilir. Belə ki, təsərrüfat subyektləri mal və xidmətlərin alışı zamanı hesabında vəsait olmasa belə, gələcək tarixə ödəniş öhdəliyi götürməklə mal və ya xidməti ala bilirlər. Bu isə birbaşa iqtisadi aktivliyi dəstəkləməklə yanaşı, dövriyyələrdə nağd puldan istifadə zəruruliyini azaldır. İstifadəsinin asanlığı bu aləti həm alıcı, həm də satıcı iqtisadi subyekt üçün maraqlı edir.

Hal-hazırda tərəfimizdən biznesə əlavə maliyyələşmə alətlərindən istifadə imkanlarının yaradılması məqsədilə anoloji infrastrukturun qurulması layihəsinə start verilmişdir. 2021-ci ilin sonunadək yekunlaşacaq layihənin ən müasir texnologiya və funksional imkanlara malik platformada qurulması nəzərdə tutulmuşdur. Çek üzrə bütün prosesin tam elektronlaşmasını nəzərdə tutan bu sistem iqtisadi dövriyyələrin gizlədilməsi imkanlarının maksimum aradan qaldırılmasına, ticarət münasibətlərinin güvənliliyinin artırılmasına imkan verəcəkdir.

*– Məlumdur ki, COVİD-19 pandemiyası bütün dünyada olduğu kimi Azərbaycanda da sahibkarlara böyük ziyan vurdu. Sahibkarlara dəstək tədbirlərindən biri kimi bank kreditləri üzrə möhlətin verilməsi də qərara alındı. Hazırda biznes kreditləri ilə bağlı restrukturizasiya xarakterli müraciətlər çoxdurmu?*

– Qeyd olduğu kimi Mərkəzi Bank tərəfindən cari ilin aprel ayında qəbul edilmiş “Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar kredit təşkilatlarının müvəqqəti tənzimləmə Qaydası” ilə pandemiyadan zərərçəkmiş sahələrə və şəxslərə dəstək göstərməsi məqsədilə kredit təşkilatlarına münasibətdə müvafiq güzəştlər nəzərdə tutulmuşdur. Bununla yanaşı, pandemiyanın təsirləri nəzərə alınaraq borcalanların maliyyə vəziyyətinin ağırlaşdırılmaması ilə bağlı Mərkəzi Bank tərəfindən kredit təşkilatlarına aidiyyəti tövsiyələr də ünvanlanmışdır.

Qeyd edək ki, pandemiya ilə bağlı banklar tərəfindən aktiv restrukturizasiya prosesləri cari ilin aprel ayından başlanılmışdır və hazırda da davam etdirilir. Bu günə qədər, 67.2 min sayda borcalan tərəfindən ümumilikdə 1.2 mlrd. manat məbləğində kreditlərlə bağlı banklara müraciət olunmuşdur ki, bu məbləğin 87 faizi (və ya 1 mlrd. manatı) biznes kreditləri üzrədir. Qeyd edək ki, 600 milyon manat məbləğində biznes kreditləri üzrə restrukturizasiya müraciətləri banklar tərəfindən təmin edilmişdir. Bu müraciətlərə banklar tərəfindən baxılması prosesi davam etdirilir.

Əlavə olaraq qeyd edilməlidir ki, ipoteka kreditlərinin restrukturizasiyası ilə bağlı müraciətlərin 76 faizi (79 milyon manat), istehlak kreditləri üzrə müraciətlərin isə 82 faizi (45 milyon manat) banklar tərəfindən icra olunmuşdur.

Ümumilikdə, maliyyə-bank sektorunun sabitliyi davamlı monitorinq edilir və pandemiyanın mümkün təsirlərini qiymətləndirmək üçün müxtəlif ssenarilər əsasında stress-testlər aparılmaqdadır.

Əlavə olaraq bildirmək istərdim ki, kredit-zəmanət mexanizmi çərçivəsində yeni biznes kreditlərinin verilməsi məqsədilə müraciətlərin onlayn rejimdə qəbul edilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Elektron Kredit Platforması yaradılmış və 30 iyun tarixindən sahibkarların istifadəsinə verilmişdir. Hazırda 20 bank və “Aqrarkredit” QSC Bank olmayan Kredit Təşkilatı müvafiq Platformaya qoşulmuşdur.

Pandemiyanın real sektora təsirlərinin minimallaşdırılması məqsədi ilə biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizmi hazırlanmışdır. Bu çərçivədə 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60 faizədək hissəsinə dövlət zəmanətinin verilməsi, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50 faizinin dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur.

*– Sahibkarları narahat edən məsələlərdən biri nağdlaşdırma ilə bağlı limitlərin tətbiq edilməsidir. İş adamları hesab edirlər ki, nağdlaşdırma üçün qoyulan maksimum limit dövriyyədən asılı olaraq təyin edilməlidir. Bununla bağlı Sizin mövqeyinizi bilmək istərdik.*

– Məlumat üçün qeyd edim ki, sahibkarlar tərəfindən nağdlaşdır-

ma ilə bağlı tətbiq olunan limitlər "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir və 2016-cı ilin dekabr ayından qüvvədədir. Nağdsız hesablaşmaların inkişaf etdirilməsi və iqtisadiyyatda gedən şəffaflaşma prosesləri fonunda müvafiq Qanunun rolu əhəmiyyətli olmuşdur.

Məlum olduğu kimi, sözügedən Qanunla müvafiq limitlərlə yanaşı müəyyən istisnalar da nəzərdə tutulmuşdur. Sahibkarları narahat edən məqamlarla bağlı bu istisnaların siyahısına müəyyən dövr ərzində baxılaraq, aidiyyəti qurumlar tərəfindən təkliflər irəli sürülə bilər.

*– Kənd təsərrüfatı məhsullarının nadğsız ticarəti ilə bağlı kənd yerlərində infrastruktur istənilən vəziyyətdə deyil. Ümumiyyətlə rayonlarda maliyyə sistemi üzrə infrastrukturun genişləndirilməsi məqsədilə hansı planlarınız var?*

– Regionlarda, ucqar kənd yerlərində maliyyə əlçatanlığının artırılması Mərkəzi Bankın fəaliyyətinin əsas prioritetlərindəndir və bu istiqamətdə davamlı olaraq müxtəlif tədbirlər həyata keçirilir. Hələ 2007-ci ildə həyata keçirilən Azərpoçt layihəsi məhz bank filiallarının olmadığı kənd yerlərində insanların poçt şöbələri vasitəsilə maliyyə xidmətlərinə fiziki çıxış imkanı qazandırmaq məqsədi daşıyırdı.

Bu gün də regionlarda maliyyə inklüzivliyinin artırılmasına xidmət edən nağdsız ödəniş infrastrukturunun genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Statistikaya əsasən, hazırda Bakı şəhəri nəzərə alınmadan regionlarda 1265 bankomat və 20 minə yaxın POS-terminal quraşdırılmışdır.

Maliyyə inklüzivliyinə xidmət edən mikromaliyyə xidmətləri göstərən banklar, "Azərpoçt" MMC və bank olmayan kredit təşkilatları tərəfindən göstərilir. Ölkə üzrə regionlarda 245 bank filial və şöbələri, 163 bank olmayan kredit təşkilatlarının filialları və 1050 "Azərpoçt" MMC-nin filial və şöbələri vasitəsilə maliyyə xidmətləri təqdim edilir.

Ölkənin ucqar kəndlərində bank və maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması üçün "Agent Bankçılıq" modelinin inkişafı da mühüm potensiala malikdir. Bank filialları olmayan və ya az olan yerlərdə ilkin mərhələdə ən səmərəli və effektiv vasitə Azərpoçt MMC-nin potensialından bankların maliyyə agenti kimi istifadə edilməsidir. Hal-hazırda Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə bu istiqamətlə xüsusi bir layihə üzərində işlənilir. Növbəti mərhələdə isə, təsərrüfat subyektlərinin ödəniş agenti qisminə cəlb edilməsi nəzərdən keçirilir. Sahibkarlıq subyektləri ilə banklar arasında bağlanacaq müqavilə əsasında onlar vasitəsilə məhdud sayda maliyyə və bank xidmətlərinin göstərilməsi imkanlarının yaradılması planlaşdırılmışdır.

Maliyyə inklüzivliyinin artırılmasının digər yolu da elektron ticarət imkanları və elektron maliyyə xidmətləridir. Təbii ki, bu xidmətlərin keyfiyyəti və əlçatanlığı region və kəndlərdə internetin sürətindən və əhatəliliyindən asılıdır. Mərkəzi Bank olaraq biz elektron ödəniş xidmətlərinin hər kəsə əlçatan olması, bu xidmətlərin çeşidinin yüksəldilməsi üçün ölkəmiqyaslı infrastruktur layihələri həyata keçiririk. Yaxın aylarda istismara verəcəyimiz Ani Ödəniş Sistemi 24/7/365 rejimində yaşayış və fəaliyyət yerindən asılı olmayaraq, biznes və əhali arasında ödənişləri internetə çıxış zərurəti olmadan belə, mobil telefonlar üzərindən bank hesabları vasitəsilə aparmağa imkan verəcəkdir. Tərəfimizdən reallaşdırılan digər layihə olan Rəqəmsal İdentifikasiya Sistemi vasitəsilə ölkənin istənilən bölgəsindən, məsafədən bank məhsul və xidmətlərinin əldə edilməsi imkanı yaradılacaqdır. Sistemlərin istismarı ilə yanaşı, iş adamlarının və əhalinin bu barədə məlumatlandırılması məqsədilə xüsusi maarifləndirici tədbirlərin keçirilməsi də planlaşdırılır.

Ölkədə maliyyə inklüzivliyinin artımına nail olunması iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, ev təsərrüfatlarının istehlak imkanlarının artırılmasına və gəlir bərabərsizliyinin aradan qaldırılmasına əlavə dəstək verə bilər.

*– Məlumdur ki, iqtisadi inkişaf məzənnə sabitliyindən çox asılıdır. Bununla bağlı Mərkəzi Bankın qarşıdakı bir il üçün proqnozları necədir?*

– Manatın məzənnəsinin dinamikası orta müddətli perspektivdə inflyasiyanın stabil olması üçün vacib şərtlərindən biridir. Tədqiqatlara görə, manatın möhkəmlənməsinin qiymətlərə azaldıcı təsiri ilə müqayisədə onun ucuzlaşmasının artırıcı təsiri daha yüksəkdir. Bu səbəbdən valyuta bazarında tarazlığın təmin olunması mühüm əhəmiyyət kəsb edir. Xarici valyuta təklifi mənbələrinin diversifikasiyası, habelə dövlət tərəfindən valyuta təklifi və tələbinin effektiv tənzimlənməsi gələcəkdə valyuta bazarında uzunmüddətli tarazlığının əsas təminatçısı kimi çıxış edəcəkdir. Mərkəzi Bank valyuta bazarının likvid və şəffaf olmasını, onun özünütənzimləmə rejimində çalışmasını diqqətdə saxlayır.

Məlum olduğu kimi valyuta bazarında tarazlığı bundan sonra da qorumaq üçün ölkənin kifayət qədər maliyyə resursları və makroiqtisadi manevr etmə imkanları vardır. İlin əvvəlindən bəri xarici şoklara baxmayaraq ölkənin strateji valyuta ehtiyatları azalmamışdır. Ölkənin strateji valyuta ehtiyatları ümumi daxili məhsulun 100 faizini ötür.

Manatın məzənnəsinin sabitliyi makroiqtisadi sabitliyin əsas lövbəridir. Məzənnənin uzun müddət sabit qalmasının bir sıra şərtləri mövcuddur. Bu şərtlərdən başlıcası fiskal və monetar siyasətlər arasında koordinasiyanın olmasıdır.

# “Gömrük orqanlarındakı islahatlar iqtisadi təhlükəsizliyi təmin edir”

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general– polkovniki Səfər Mehdiyevin Azərbaycan Sahibkarlar Konfederasiyasının dövri mətbu orqanı olan “Biznes Həyatı” jurnalına müsahibəsi.



*– Səfər müəllim, Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Dövlət Gömrük Komitəsi arasında yaradılan İkitərəfli Əməkdaşlıq Şurasının fəaliyyəti haqqında nə deyə bilərsiniz?*

– Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə daxili istehsalın, ölkənin ixrac və tranzit potensialının artırılması, həmçinin qeyri– neft sektorunun inkişaf etdirilməsi istiqamətində ölkəmizdə innovativ islahatlar həyata keçirilməkdədir. Bu islahatlar gömrük orqanları qarşısında da gömrük– biznes münasibətlərinin beynəlxalq standartlara uyğun şəkildə tənzimlənməsi, şəffaflığın tam təmin olunması, korrupsiya hallarının aradan qaldırılması, münbit ticarət mühitinin yaradılması məqsədilə mühüm vəzifələr qoyub. Qeyd edilən vəzifələrin icrası istiqamətində gömrük orqanları informasiya texnologiyalarından və elmin müasir nailiyyətlərindən yararlanaraq, ticarətin asanlaşdırılması, biznes subyektlərinin məmnuniyyətinin maksimum dərəcədə təmin olunması istiqamətində layihələr həyata keçirməkdədir. Gömrük orqanlarında aparılan islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq mühitinin yaxşılaşdırılması və biznes mühitinin inkişafına da töhfəsini verir. Gömrük orqanlarının fəaliyyətinin yeni fəlsəfəsi formalaşdırılır, sahibkarlıq subyektləri ilə səmərəli dialoq qurulur, şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir.

Həyata keçirilən islahatların nəticəsi olaraq, Azərbaycanda biznes mühitinin formalaşmasında uğurlar əldə edilmiş və beynəlxalq ticarət zəncirində Azərbaycanın rolu getdikcə yüksəlmişdir. Bunun

bariz nümunəsidir ki, sahibkarlar rahat və asan şəkildə idxal– ixrac əməliyyatlarını həyata keçirir və sahibkarlıq subyektlərinin məmnunluğunun maksimum dərəcədə təmin olunmasına əlverişli şərait yaradılır.

Eyni zamanda, Dövlət Gömrük Komitəsi tərəfindən mütəmadi olaraq müxtəlif ticarət palataları və digər təşkilatlarla davamlı iş aparılır, onların üzləşdiyi çətinliklər və əngəllərin aradan qaldırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvləri ilə keçirilən görüşləri xüsusi olaraq qeyd etmək istəyirəm. Bu kimi görüşlərdə, eləcə də İkitərəfli Əməkdaşlıq Şurasının iclaslarında aparılan qarşılıqlı fikir mübadiləsi, səsləndirilən təkliflər gömrük– biznes münasibətlərinin daha da gücləndirilməsinə öz müsbət təsirini göstərir. Şəffaf fəaliyyətin qurulması, gömrük işinin daha da təkmilləşdirilməsi, o cümlədən Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvləri ilə qarşılıqlı işlərin daha da sürətləndirilməsi məqsədilə bu kimi görüşlər, aparılan müzakirələr, məlumat mübadiləsi gələcəkdə də davam etdiriləcəkdir.

*– “Yaşıl dəhliz” sisteminin tətbiqi gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində inqilabi addımlardan biridir. Hazırda bu dəhlizdən istifadə edən sahibkarların sayı nə qədərdir?*

– İslahatlar çərçivəsində biznes subyektlerinin məmnuniyyətinin maksimum dərəcədə təmin olunması istiqamətində “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqi gömrük xidmətinin fəaliyyətinin səmərəliliyinin artırılmasına və çevik idarəetmə sisteminin tətbiqinə imkan yaradıb.

“Yaşıl dəhliz” buraxılış sisteminin əhatə dairəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər üzrə ümumilikdə 770 xarici ticarət iştirakçısı tərəfindən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ünvanlanmış müraciətlər (454 idxal, 90 ixrac, həm idxal, həm ixrac üzrə isə 226) üzərindən səmərəli risk idarəetməsi əsasında 616 xarici ticarət iştirakçısına “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilib. Ümumilikdə, 396 xarici ticarət iştirakçısına idxal, 220 xarici ticarət iştirakçısına isə ixrac əməliyyatları üzrə “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun verilməsi təmin edilmişdir.

*– Maraqlıdır, bir malın və ya məhsulun gömrük rəsmiləşdirilməsinin ortalama müddəti nə qədərdir və müddətin optimallaşdırılması üçün hansı planlarınız var?*

– Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 104– cü maddəsinə əsasən, gömrük rəsmiləşdirilməsi bəyannaməsinin gömrük orqanına konkret malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı bəyannamə və ya müvafiq sənədləri təqdim etdiyi, yaxud bu Məcəllədə nəzərdə tutulmuş hallarda gömrük rəsmiləşdirilməsini həyata keçirmək barədə niyyətini şifahi formada gömrük orqanına bildirdiyi vaxtdan başlanır və malların müvafiq gömrük proseduru altında yerləşdirilməsinə dair tələblərə uyğun olaraq, zəruri gömrük əməliyyatları yerinə yetirildikdən və bu Məcəllədə nəzərdə tutulmuş gömrük ödənişləri ödənildikdən sonra gömrük rəsmiləşdirilməsi başa çatır.

Şəxs tərəfindən qanunvericiliyin tələblərinə əməl olunması cəhətdən, həmçinin bəyan olunan malların risk dərəcəsinə və seçilmiş gömrük prosedurunun növünə uyğun olaraq, gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanlarına təqdim olunan gömrük bəyannaməsində və digər sənədlərdə göstərilən məlumatların malların adlarına, mənşəyinə, sayına və dəyərinə uyğunluğunun yoxlanılması Gömrük Məcəlləsinin 160.1– ci maddəsinə əsasən, gömrük bəyannaməsinin təsdiq edildiyi, sənədlərin və malların isə təqdim edildiyi vaxtdan 2 (iki) gündən gec olmayaraq həyata keçirilir.

Eyni zamanda, Gömrük Məcəlləsinin 160.3– cü maddəsinə əsasən, gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan malların adlar və növlər üzrə ayrı– ayrı qablaşdırılmaması gömrük orqanlarına gömrük bəyannaməsində göstərilən mallar haqqında məlumatların düzgünlüyünün yoxlanmasına imkan vermirsə, Gömrük Məcəlləsinin 160.1– ci maddəsində nəzərdə tutulan müddət mallar barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri tərəfindən malların adlar və növlər üzrə ayırması üçün tələb olunan müddətədək (7 gündən çox olmayaraq) gömrük orqanının qərarı ilə uzadılır.

Xarici ticarət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılması, risk qiymətləndirilməsi əsasında gömrük nəzarəti formalarının tətbiqi, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin daha çevik və şəffaf həyata keçirilməsi və gömrük məqsədləri üçün tələb olunan sənədlərin sayının azaldılması istiqamətində görülən işlər nəticəsində gömrük bəyannamələrinin yoxlanılma müddəti minimuma endirilib və bu istiqamətdə işlər davam etdirilir.

*– Pandemiya nəticəsində sahibkarlara ziyan dəyib və onların dövriyyə vəsaitləri azalıb. Bu da gömrük ödənişlərinin həyata keçirilməsində çətinliklər yaradır, üstəlik, həmin yüklərin uzun müddət gömrük– keçid məntəqələrində qalması külli miqdarda əlavə xərclərə səbəb olur. Bu baxımdan, Gömrük Məcəlləsində nəzərədə tutulmuş qaydada – müvəqqəti saxlanca verilmə mexanizminin tətbiqi imkanları barədə nə düşünürsünüz?*

– Mövcud pandemiya dövründə zərurət yarandığı təqdirdə xarici ticarət iştirakçıları tərəfindən

elektron qaydada gömrük bəyannaməsi təqdim edilməklə malların müvəqqəti saxlanc proseduru altında yerləşdirilməsi həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələblər"in təsdiq edilməsi haqqında 3 may 2013– cü il tarixli, 73 nömrəli Qərarında göstərilən tələblərə cavab verən saxlanc anbarlarına malik olan sahibkarlar tərəfindən gömrük ərazisinə gətirilən xarici malların Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 178– ci maddəsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 avqust 2013– cü il tarixli, 229 nömrəli Qərarının müddəalarına uyğun olaraq müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsinə icazə verilir.

Eyni zamanda, müvəqqəti saxlanc xüsusi gömrük prosedurunun müddəalarının təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2018– ci il tarixli, 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İdxal– ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nında qoyulan tapşırıqların icrasının təmin edilməsi ilə bağlı Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu" layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

*– Bir şirkət tərəfindən gətirilən əsasən eyni növ mallar üzrə hər dəfə ekspertiza aparılması rəsmiləşdirmənin gecikməsinə səbəb olur. Bununla bağlı gömrük sistemində islahatlar gözlənilirmi?*

– Gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur– sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal– ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 21 may 2016– cı il tarixli, 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın müddəalarına uyğun olaraq "Mavi dəhliz" buraxılış sistemindən istifadə edilməsi nəzərdə tutulub.

"Mavi dəhliz" buraxılış sistemi əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük– sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə gömrük– sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılışından sonra gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemidir.

"Mavi dəhliz" buraxılış sistemindən istifadə etməklə gömrük ərazisinə buraxılan mallar və nəqliyyat vasitələri üzərində gömrük yoxlaması gömrük ərazisinə buraxılışdan sonra, idxalatçının sözügedən fərmanın tələblərinə uyğun olaraq müəyyən etdiyi yerdə, lakin gömrük orqanlarının iş vaxtı və Gömrük Məcəlləsi ilə müəyyən edilmiş gömrük bəyannaməsinin təqdim edilməsi və gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün son müddət nəzərə alınmaqla həyata keçirilir.

Beynəlxalq ticarət zənciri üzrə malların vaxt və xərc itkisinə məruz qalmadan maneəsiz və sürətli hərəkətinin, o cümlədən xarici ticarət iştirakçılarına öncədən biznes proqnozlaşdırılmasının təmin olunması məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən "Məcburi qərarlar"ın pilot layihəsinin tətbiqinə başlanılıb.

Məcburi qərar layihəsinin tətbiqi artıq sahibkarlara idxal– ixrac əməliyyatını həyata keçirməzdən öncə onlara malların təsnifatını, yəni xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodunu və mənşə ölkəsini müəyyən etmək imkanı verəcək. Bu da ticarətin asanlaşdırılması prosesinə mühüm təsir göstərməklə yanaşı, sahibkarlara öz biznes planlarının əvvəlcədən düzgün formalaşdırılması imkanı yaradacaq, eyni xüsusiyyət və göstəricilərə malik malların gömrük rəsmiləşdirilməsi üzrə təkrar sorğuları aradan qaldıracaq və məmur– vətəndaş təmasının sıfıra endirilməsi hesabına şəffaflığın təmin olunmasına gətirib çıxaracaqdır.

Belə ki, məcburi qərar layihəsinin tətbiqi ilə malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodunun öncədən təsnifləşdirilməsi imkanı mallara tətbiq olunan rüsum dərəcələri və icazələrin də əvvəlcədən müəyyən edilməsinə gətirib çıxaracaq ki, bu da malların gömrük rəsmiləşdirilməsi zamanı əhəmiyyətli dərəcədə vaxt və xərc itkisinin qarşısını alacaq.

Eyni zamanda, artıq şəxslər mənşə ölkəsinin öncədən müəyyən edilməsi imkanı ilə yanaşı, idxal edəcəkləri malların preferensial və ya qeyri– preferensial məqsədli olduğunu da müəyyən edə biləcəklər. Preferensiya dedikdə, Azərbaycan Respublikası-




nın ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişindən azadetmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür.

Misal olaraq, "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları haqqında 20 noyabr 2009– cu il tarixli Saziş"inə əsasən CT– 1 formalı mənşə sertifikatı təqdim olunmaqla qarşılıqlı güzəştlər tətbiq edilir.

Hazırda "Məcburi qərar"ların qeydiyyatının və elektron idarəetmə sisteminin yaradılması və elektron xidmət kimi xarici ticarət iştirakçılarına təqdim edilməsi sahəsində işlər davam etdirilir və ən qısa müddətdə tətbiqi prosesi başlanacaqdır.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 13– 1.1– ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 21 may 2016– cı il tarixli, 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın tələblərinə əsasən "Mavi dəhliz" buraxılış sisteminin tətbiqi ilə əlaqədar hazırda tədbirlər həyata keçirilir.

– *İxrac məhsulları üçün nəzərdə tutulan 7/24 rejimində çalışan gömrük terminalının açılması istiqamətində nə düşünürsünüz?*

– Gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, gömrük– sərhəd buraxılış məntəqələrində gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinə sərf olunan vaxtın azaldılması, baytarlıq, fitosanitar, sanitar, gömrük nəzarətinin və rəsmiləşdirilməsinin vahid məkan ərazisində aparılması, eləcə də ticarət həcminin artırılması üçün əlverişli imkanların əldə olunması məqsədilə "Qırmızı Körpü" gömrük– sərhəd buraxılış məntəqəsinin yaxınlığında Ticarətin Asanlaşdırılmaşı Mərkəzinin tikintisi və infrastrukturunun qurulması prosesi yekunlaşıb. Tezliklə bu cür mərkəzlər bütün respublikanı əhatə edəcək və ölkə ərazisindən keçən əsas beynəlxalq ticarət dəhlizləri vasitəsi ilə daşınan mallar və nəqliyyat vasitələri üzərində şəffaf və sürətli gömrük əməliyyatlarının aparılmasına xidmət göstərəcəkdir.

Ticarətin Asanlaşdırılması mərkəzlərində həyata keçirilən xidmətlərin vahid məkanda göstərilməsi prosesinin tənzimlənməsi məqsədilə daxili qaydalar layihəsi hazırlanıb və hazırda "Qırmızı Körpü" gömrük– sərhəd buraxılış məntəqəsinin yaxınlığında yerləşən Mərkəzin maddi– texniki bazasının qurulması yekunlaşıb və Mərkəz fəaliyyətə başlayıb. Ərazidə tikilmiş yükboşaltma yerləri, məhsulların saxlanması üçün saxlanc anbarlarları, eləcə də nəqliyyat vasitələri üçün dayanacaq imkanları və həmçinin xüsusi rentgen qurğuları gömrük nəzarəti və rəsmiləşdirilməsi prosesinin daha səmərəli həyata keçirilməsi və rəsmiləşdirilmə işlərinin sadələşdirilməsinə münbit şərait yaradacaqdır.

Bununla yanaşı, Dövlət Gömrük Komitəsi tərəfindən Gömrük Rəsmiləşdirilməsi üzrə Elektron Mərkəz istifadəyə verilib. Burada fəaliyyət göstərən əməkdaşlar təmənnasız şəkildə həm qısa idxal, həm də digər növ bəyannamələrin sahibkarlar üçün doldurulub təqdim edilməsi xidmətini 7/24 prinsipi ilə həyata keçirir və xaricdə yaşayan şəxslər də rahatlıqla yeni yaradılmış bu xidmətdən istifadə edə bilərlər.

### Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev:

# "Arzum budur ki, gələcəkdə də bütün banklar ABA-nı özünün doğma birliyi hesab etsinlər"

Azərbaycan Banklar Assosiasiyası (ABA) bu il yaranmasının 30 illik yubileyini qeyd edir. Fəaliyyət göstərdiyi müddətdə ABA Azərbaycan Respublikasının Mərkəzi Bankı, dövlətin digər qanunverici, icraedici və məhkəmə orqanları, ictimai təşkilatlar və beynəlxalq qurumlarla sıx əməkdaşlıq əlaqələri yaratmış və bununla da bank qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində, eləcə də bankların beynəlxalq əlaqələrinin qurulması, bank infrastrukturunun formalaşması, ölkədə həyata keçirilən iqtisadi islahatların bank sektoru tərəfindən dəstəklənməsində əhəmiyyətli işlər görmüşdür.

Müsahibimiz Azərbaycan Banklar Assosiasiyasının prezidenti və ASK-nın vitse-prezidenti Zakir Nuriyevdir.



*– 30 illik yubileyi münasibətilə ABA-nı və Siz başda olmaqla bütün kollektivinizi təbrik edirik. ABA - Azərbaycan banklarını birləşdirən bir qüvvədir, qurum haqqında başqa nə demək olar?*

– Təbrikə görə təşəkkür edirəm. Azərbaycan Banklar Assosiasiyası (ABA) müstəqillik dövründə yaranmış ilk ictimai təşkilatlardan biridir və müstəgil Azərbaycan Respublikasının müasir bankçılıq tarixi ilə eyni tarixə malikdir. Bu dövr ərzində qarşıya qoyduğumuz əsas məqsəd ABA-nı ölkədə fəaliyyət göstərən bütün bankların – həm dövlət və özəl, həm yerli və xarici bankların vahid birliyinə çevirmək idi. Əminliklə deyə bilərik ki, artıq bu gün ABA bu məqsədə nail olmuşdur. Bu dövr ərzində ABA sektorla əlaqədar qanunverici və tənzimləyici təşəbbüslərin, maliyyə xidmətlərinə əlçatanlığın və sektorda rəqəmsallaşmanın inkişafına dair dövlət proqramlarının, strateji yol xəritələrinin, həmçinin digər ölkə əhəmiyyətli prioritet hədəflərin reallaşdırılmasına öz dəstəyini göstərmiş və bu fəaliyyətini uğurla davam etdirməkdədir.

Maliyyə əlçatanlığının təmin edilməsi və artırılması qarşımızda duran əsas prioritetlərdən biridir. Bu məqsədlə ümumilikdə ölkə səviyyəsində yeni texnologiyaların tətbiqi, fintexlər və digər maraqlı tərəflərlə iş olduqca əhəmiyyətlidir. ABA banklarla bu istiqamətdə fəaliyyət göstərən təşkilatlar arasında qarşılıqlı əməkdaşlıq üçün platforma rolunu oynayır.

ABA-nın qarşısında dayanan hədəflərdən biri də Azərbaycanı beynəlxalq və regional səviyyəli maliyyə tədbirlərinin keçirildiyi mərkəzlərdən birinə çevirmək olmuşdur. Bu məqsədi reallaşdırmaqda əhəmiyyətli işlər görülmüş və ABA beynəlxalq səviyyəli maliyyə forumları və sammitlərin əsas təşkilatçısına çevrilmişdir. Biz həmçinin yeni bankirlər nəslinin inkişafına dəstək olmağı, onlara yeni vərdişlərin aşılanmasını və mövcud potensialın daha da genişləndirilməsini təmin etməyi hədəfləmişik. İnsan kapitalının inkişafına dəstək olmaq məqsədi ilə ABA nəzdində artıq 20 ildir ki fəaliyyət göstərən Azərbaycan Bank Tədris Mərkəzinin xidmətlərini mühüm hesab edirik.

Xüsusi önəm kəsb edən, məqamlardan biri də istehlakçılara təqdim edilən maliyyə xidmətlərindən istifadə zamanı müştəri məmnuniyyətinin təmin edilməsi və yarana biləcək mümkün anlaşılmazlıqların operativ həll edilməsi yönündəki fəaliyyətdir. Bu məqsədlə, ABA tərəfindən Bank Ombudsmanı institutu təsis edilmiş və bu qurum hazırda uğurla fəaliyyət göstərməkdədir.

*– Bank Ombusdmanı institutunun fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz? Bank Ombudsmanı İnstitutunun yaradılması hansı zərurətdən doğulmuşdur?*

– 2015-ci ildə baş vermiş məlum devalvasiyalardan sonra banklarda dollarla krediti olan müştərilərin ödəmə qabiliyyəti tədricən zəiflədi və nəticədə banklarda geri ödənilməyən kreditlərin sayı artmağa, ümumilikdə ölkə üzrə problemli kreditlərin həcmi yüksəlməyə başladı. Vətəndaşların banklara olan ödənişləri ödəyə bilmir və banklar da öz növbəsində müqavilə öhdəliklərinin yerinə yetirilməməsi səbəbi ilə məhkəməyə müraciət etməli olurdular. Bu mənzərə bir tərəfdən məhkəmələrdə külli miqdarda problemli kreditlərə aid işlərin yığılmasına, digər tərəfdə isə vətəndaşların sosial durumla-

rının daha da pisləşməsinə səbəb olurdu. Belə bir dönəmdə dünya təcrbəsinə uyğun olaraq, müştərilərin banklara olan etimadının itirilməməsinə nail olmaq və banklarla müştərilər arasında yaranmış mübahisələrin məhkəməyə qədər həllinin tapılması məqsədilə Bank Ombudsmanı İnstitutunun yaradılması zərurəti ortaya çıxmışdır. Bu qurum banklarla müştərilər arasında olan mübahisələrin məhkəmədən kənar qaydada həll olunmasına xidmət edir.

Bank Ombudsmanın yaradılması haqda qərar Azərbaycan Banklar Assosiasiyasının Ümumi Yığıncağının 03 fevral 2017-ci il tarixli iclasında qəbul edilmiş, Bank Ombudsmanın Əsasnaməsi və Reqlamenti təsdiq olunmuşdur. Qurumun yaradılmasında məqsəd mübahisələri Bank Ombudsmanının köməyi ilə həll etməklə, banklar ilə müştəriləri arasında etimad münasibətlərinin formalaşdırılmasına nail olmaq, banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılmasıdır.

Müasir dövrdə mübahisələrin alternativ qaydada məhkəmədən kənar həlli çox müzakirə olunan və tətbiqini zəruri edən mühüm məsələlərdən biridir. Təsadüfi deyil ki, 2018 – 2019-cu illər arasında ölkədə Avropa İttifaqının qabaqcıl təcrübələrinə uyğun olaraq mediasiya institutunu inkişaf etdirilməsi üçün Yol xəritəsinin hazırlanması sahəsində mediasiya sisteminin yaradılması və təmin edilməsi məqsədi ilə İşçi qrup yaradılaraq fəaliyyət göstərmiş və bu fəaliyyətin nəticəsi olaraq 29 mart 2019-cu ildə “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Bu işçi qrupun tərkibində də Bank Ombudsmanı Katibliyi də fəal iştirak edərək bank sahəsində mediasiyanın aparılmasında pilot layihə olaraq gələcəkdə də fəaliyyətini davam etdirəcəkdir.

*– Bank sektorundakı kadrların hazırlıq səviyyəsi ilə bağlı hansı işləri görürsünüz və bununla bağlı əsas hədəfləriniz nədir?*

– Azərbaycan Bank Tədris Mərkəzi (ABTM) Azərbaycan Mərkəzi Bankının təşəbbüsü və dəstəyi, Azərbaycan Banklar Assosiasiyasının təsisçiliyi və yaxından köməyi, Avropa Birliyi TACİS proqramının texniki yardımı ilə 2000-ci ilin fevral ayında yaradılmışdır.

**ABA-nın qarşısında dayanan hədəflərdən biri də Azərbaycanı beynəlxalq və regional səviyyəli maliyyə tədbirlərinin keçirildiyi mərkəzlərdən birinə çevirmək olmuşdur.**

Yaradıldığı ilk illərdə yalnız kommersiya bank işi üzrə təlim xidmətləri göstərən ABTM hazırda öz sahəsində praktik təcrübəsi olan 70-dən çox yüksək peşəkar, xüsusi təlimdən keçmiş eksperti ilə bank işi ilə yanaşı, sığorta və lizinq işi, yumşaq vərdişlər və idarəetmə mövzuları üzrə geniş çeşidli təlim xidmətləri göstərir.

ABTM orta hesabla hər il 120-150 təlim kursu keçirir və bu kurslarda ildə 1500-1800 nəfər iştirak edir. Fəaliyyətinin ilk vaxtlarında qısamüddətli ixtisasartırma kursları təklif edən ABTM bu gün beynəlxalq və yerli sertifikasiya proqramları üzrə də təlimlər aparır. Artıq 20 min nəfərdən çox dinləyicisi olan ABTM həm Azərbaycanda, həm də kənarda geniş şəbəkəyə malikdir və onun məzunları arasında yüksək vəzifəli biznes rəhbərləri, dövlət və ictimai xadimlər mövcuddur.

ABTM biznes tərəfdaşlarının institusional inkişafına daim dəstək verir və onlara idarəetmənin bütün sahələri üzrə məsləhət xidmətləri göstərir.

Məhz ABTM-nin məsləhət xidmətləri nəticəsində onlarla bank və şirkət həm yerli, həm də xarici investor cəlb edə bilmiş, onların gəlirliliyi artmış və bazar mövqeləri möhkəmlənmişdir.

2001-ci ildən işləyənlərin peşəkar biliklərinin qiymətləndirilməsini həyata keçirən ABTM hazırda öz tərəfdaşlarına həm işə qəbul, həm də karyera inkişafı zamanı ən layiqli namizədlərin peşə və şəxsi keyfiyyətlərinin uyğunluğunun online qiymətləndirilməsi xidmətlərini təklif edir və artıq 10 mindən çox şəxsin qiymətləndirilməsini həyata keçirmişdir.

ABTM-nin Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Birliyi, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniya İnkişaf Bankı, Almaniya Əməkdaşlıq Təşkilatı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və digər beynəlxalq institutlarla sıx əməkdaşlığı vardır və bu qurumlar tərəfindən maliyyələşdirilən 30-dan artıq layihəyə cəlb olunmuşdur.

Təlim və məsləhət institutu olaraq, Mərkəzin əsas məqsədi bank sektorunun inkişafına öz xidmətləri ilə təkan verməkdir. Ona görə də bankçılıqda müşahidə olunan trendlər Mərkəzin fəaliyyətini istiqamətləndirir və prioritetlərini müəyyən edir. Son dövrdə bankçılıqda müşahidə olunan trendlər



və Mərkəzin prioritetləri arasında əlaqəni aşağıdakı cədvəldə görmək olar:

Mərkəzin statistikasına nəzər yetirsək görərik ki, 20 il ərzində 203 mövzuda 2132 təlim keçmiş və bu təlimlərdə 27.848 nəfər iştirak etmişdir. O cümlədən son 10 ildə Mərkəz əlavə 60-dan yeni təlim məhsulu hazırlamış, 962 təlim keçmiş və bu təlimlərdə 12.238 nəfər dinləyici iştirak etmişdir. Bir fakt da nəzərə alınmalıdır ki, əgər Mərkəzin fəaliyyətinin birinci 10 illiyində əgər təlim bazarında 20-dək şirkət fəaliyyət göstərirdisə və yalnız 2-3 bankda təlim mərkəzi mövcud idisə, rəqib təlim təchizatçılarının sayı 35-dən çoxdur və 7 bankda daxili təlim mərkəzləri fəaliyyət göstərir. Bu rəqabətə baxmayaraq, ABTM bank işi üzrə bazarın lider təlim və məsləhət institutu mövqeyini qoruyub saxlaması hesab edirəm ki, ilk növbədə onun göstərdiyi xidmətlərin keyfiyyətinə verilən qiymətdir.

*– ABA-nın tərkibində ekspert qrupları fəaliyyət göstərir. Bu qrupların işinin bank sektoruna faydaları barədə nə deyə bilərsiniz?*

– Hazırda ABA-nın nəzdində müvafiq məsələlər üzrə 12 Ekspert Qrupu fəaliyyət göstərir. Bu Qruplara ölkədə fəaliyyət göstərən bankların aparıcı mütəxəssislər, peşəkar bankirlər cəlb edilmişdir. Müxtəlif sahələr üzrə fəaliyyət göstərən Qruplar mütəmadi toplaşaraq yeni çağırışlar və qabaqcıl təcrübələrin öyrənilməsi, bu təcrübələrin yerli bank sisteminə tətbiqi imkanlarının araşdırılması, nəzarət orqanları ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, mümkün boşluq və ziddiyyətlərin aşkar edilməsi və bu istiqamətdə zəruri təkliflərin hazırlanması, bir sözlə bank sektorunun inkişafına xidmət edən bütün zəruri məsələləri müzakirə edirlər.

*– Yaxın gələcək üçün qarşıdakı planlara toxunmaq istərdik. Mövcud vəziyyətlə əlaqədar ABA-nın fəaliyyətində hər hansı dəyişiklik varmı?*

– Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar ABA karantin qaydalarına uyğun olaraq işini qurmuş, fəaliyyətini daha çox rəqəmsal müstəviyə keçirmişdir. Cari ilin 6 ayı ərzində ABA-nın Rəyasət Heyətinin 19, Assosiasiyanın nəzdində fəaliyyət göstərən Ekspert Qruplarının 25-dən çox iclası keçirilmişdir. Bu iclasların da böyük hissəsi onlayn iclaslardır. Bundan əlavə, ABA həm daxili həm də xarici tərəfdaşlarla əməkdaşlığı qoruyub saxlamış, təşkilatlarla mütamadi olaraq onlayn görüşlər təşkil edilərək müxtəlif məsələlərə dair fikir mübadiləsi aparmaqdadır.

Ümumilikdə xüsusi qeyd etmək istərdim ki, Koronavirus (COVID-19) pandemiyası dövründə ölkəmizdə tətbiq edilən müvafiq məhdudiyyətlərə baxmayaraq banklar yaranmış riskli şəraitdə milli iqtisadiyyatımıza və vətəndaşlarımıza xidmət göstərməyə davam etmiş, mümkün qədər müştəri məmnuniyyətinin təmin edilməsi və AR Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri çərçivəsində vətəndaşların bütün növ bank xidmətlərinə, o cümlədən xarici valyutaya olan tələblərinin tam ödənilməsi üçün fasiləsiz çalışmışlar.

Bu dövr ərzində COVID-19 xəstəliyinə yoluxma riskinə baxmayaraq çoxlu sayda əməkdaşlarımız xüsusi ilə bankların ön ofislərinin əməkdaşları, kredit xidməti sahələrin mütəxəssisləri çətin şəraitdə fəaliyyət göstərmiş, müştəriləri keyfiyyətli bank xidmətlərinin göstərilməsini təmin etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə banklar tərəfindən köməklik göstərilməsi ilə bağlı sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsü özünüməşğulluq proqramının genişləndirilməsi işlərində bankların da aktiv iştirakına təkan vermişdir.

Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası arasında əməkdaşlığa dair imzalanan memorandumun icrası istiqamətində fəal iş aparılır.

Hazırda bu proqramın icrasına ölkədə fəaliyyət göstərən 21 bank qoşulub. Bu günə olan statistikaya əsasən artıq 400 nəfərə yaxın şəxs banklar tərəfindən seçilib və onlardan 233 nəfərinə müvafiq sahibkarlıq istiqaməti üzrə artıq avadanlıq təqdim edilib.

Ölkə bankları tərəfindən layihənin icrası fəal formada davam edir və ilin sonuna qədər bu prossesin davamlı olması planlaşdırılır.

Sonda qeyd etmək istərdim ki, bu il biz Azərbaycan Banklar Assosiasiyasının, eyni zamanda Azərbaycan Bank Tədris Mərkəzinin yaradılmasının müvafiq olaraq, 30 və 20 illik yubileyini qeyd edirik. Arzum budur ki, gələcəkdə də bugün olduğu kimi bütün banklar ABA-nı özünün doğma birliyi hesab etsinlər və ümumi məqsədlərə doğru birlikdə irəliləsinlər.




RUSLAN MİRZƏYEV:

# "Mediasiyanın sahibkarlar üçün faydaları çoxdur"

Məlum olduğu kimi, Azərbaycanda mübahisələrin məhkəmədənkənar həlli üsulu olan mediasiya institutunun yaradılması ilə bağlı müvafiq tədbirlər görülür. Bununla bağlı, Mediasiya Şurasının Müşahidə Şurasının üzvü Ruslan Mirzəyevin "Biznes Həyatı" jurnalına müsahibəsini təqdim edirik:

*– Azərbaycanda Mediasiya institutu formalaşma mərhələsindədir. Hazırda hansı işlər görülür?*

– İlk öncə qeyd edim ki, mediasiyanın Azərbaycanda tətbiqi və inkişafı ilk dəfə 2016-cı ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında nəzərdə tutulmuşdur. Qeyd edilən fərmana uyğun olaraq, "Mediasiya haqqında" Qanunun qəbul edilməsi, Mediasiya Şurasının təsis edilməsi və mediasiya işlərinin sayının ikiqat artırılması nəzərdə tutulmuşdur. Qeyd edilən fərmana uyğun olaraq, 29 mart 2019-cu il tarixdə "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Daha sonra Mediasiya Şurasının nizamnaməsi bütün aidiyyəti qurumlarla razılaşdırılaraq cari il fevralın 12-də "Mediasiya Şurası" qeyri-kommersiya hüquqi şəxsi təsis edilmiş, fevralın 16-da Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.



Həmçinin, cari ilin yanvar ayında Ədliyyə Akademiyasında mediasiya təlimçilərinin təlimi (29 şəxs) keçirilmiş, Mediasiya Şurasının müvafiq qərarı ilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası mediasiya təlimi qurumu kimi Mediasiya Şurasının üzvlüyünə qəbul edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 383 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası"na uyğun olaraq mediator olmaq istəyən şəxslər üçün (təxminən 400 nəfərə yaxın şəxs müraciət etmişdir) sənəd qəbulu başlamış və Ədliyyə Akademiyasında təxminən 60 nəfər təlimlərə cəlb edilmişdir. Ümid edirəm ki, avqust ayının sonlarınadək ilk rəsmi mediatorların sertifikatlaşdırılması baş tutacaqdır.

Daha sonra isə vətəndaşların bütün respublika ərazisində mediasiya xidmətləri ilə təmin edilməsi üçün digər tədbirlərin görülməsi nəzərdə tutulur. Bu işlər əsasən Avropa Birliyinin və Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilir.

*– Bildiyimiz kimi Azərbaycanda məcburi mediasiya sisteminin tətbiq olunması ilə bağlı Qanun 01 iyul 2020-ci ildən qüvvəyə minməli idi. Lakin pandemiya şəraitində məcburi mediasiyaya keçid üçün zəruri işlərin yekunlaşlaşması barədə nə deyə bilərsiniz?*

– Çox düzgün qeyd etdiniz. Azərbaycan Respublikasında COVİD-19 pandemiyası ilə bağlı tətbiq edilən xüsusi karantin rejimi qeyd edilən təlimlərin əyani

formada keçirilməsinə maneələr törətmişdir. Azərbaycanda ailə, əmək və kommersiya mübahisələri üzrə məcburi ilkin mediasiya sessiyalarını aparmaq üçün ən azı 300 mediator tələb edilir.

Bununla əlaqədar qanunvericiliyə müvafiq dəyişikliklər olunaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 39-cu maddəsinin (iqtisadi, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak etmək tələb edilməsi ilə bağlı) qüvvəyə minmə tarixi 1 iyul 2020-ci il tarixindən 1 yanvar 2021-ci il tarixinə təxirə salınmışdır.

*– Mediasiyanın məğzinə aydınlıq gətirək. Bu qurum hansı şərtlər əsasında, kimlərin mübahisələrinə baxır? Sahibkarlar hansı yeniliklər yaradacaq?*

– Mediasiya, mübahisələrin məhkəmədənkənar həlli üsuludur. Mediasiya zamanı tərəflər mediatorun (vasitəçinin) köməyi ilə digər tərəfin mövqeyi barədə daha çox məlumat almaqla, öz mövqeyini yenidən qiymətləndirir və barışmaq imkanlarını araşdırır. Tərəflərin vicdanla yanaşdıqları və mübahisəni həll etməkdə maraqlı olduqları mediasiya proseslərində tərəflərin mübahisəni həll etmə ehtimalı olduqca yüksəkdir. Mediasiyanın sahibkarlar üçün faydaları çoxdur. Qısa şəkildə aşağıdakı faydaları qeyd edə bilərik:

Tərəflər mediasiya zamanı mübahisənin həllini üçüncü şəxsə etibar etmir, tam əksinə mübahisənin həllini öz əllərində saxlayırlar. Bu zaman hər hansı üçüncü şəxsin (məsələn, hakim və ya arbitrın) səhv qərar qəbul etmək ehtimalı azalır. Yəni, tərəflər öz mübahisələrinin müqəddəratını özləri müəyyən edirlər.

Mediasiya zamanı tərəflər mediatorun (vasitəçinin) köməyi ilə həm özlərinin, həm də qarşı tərəfin mövqeyini yenidən qiymətləndirmək imkanı əldə edirlər. Bu zaman tərəflər qarşı tərəfin sübutları və hüquqi əsasları ilə tanış olur, məhkəmə prosesinin gedişatı və nəticəsi barədə daha aydın mənzərə qazanırlar.

Mediasiya əksər məhkəmə proseslərindən fərqli olaraq, konfidensialdır. Bu isə tərəflər barədə həssas məlumatları qorumaqla yanaşı, tərəflərin arasındakı mübahisənin mövcudluğunu gizli saxlayır və tərəflərin öz işgüzar münasibətlərini davam etdirməklərinə şərait yaradır.

*– Mediasiya əsasında qəbul olunan qərarların hansı hüquqi qüvvəsi var? Onların icrası hansı formada təmin olunacaq?*

– Bu sual ən çox verilən suallardandır. Lakin, qeyd edim ki, mediasiyanın nəticəsində hər hansı bir qərar qəbul edilmir. Tərəflər özləri mübahisəni qarşılıqlı razılıqla həll etmək barədə razılığa gəlirlər. Belə razılıq barışıq sazişi formasında rəsmiləşdirilir. Tərəflərin könüllü razılaşdırdığı üçün barışıq sazişləri adətən könüllü icra edilir. Lakin, əgər tərəflərdən biri barışıq sazişini könüllü icra etməzsə, digər tərəf barışıq sazişinin təsdiq edilib, icraya yönəldilməsi üçün məhkəməyə və ya notariusa müraciət edə bilər.

*– Kimlər mediator ola bilər, onlara qarşı hansı kriteriyalar nəzərdə tutulub?*

– Qanunvericiliyə əsasən 25 yaşı tamam olmuş, ali təhsilli və istənilən sahədə 3 il iş təcrübəsi olan şəxslər mediatorların ilkin hazırlığı üzrə rəsmi təlimi keçdikdən sonra mediator ola bilərlər. Hal-hazırda Ədliyyə Akademiyası belə təlimləri keçirir.

Lakin, qeyd edim ki, dünya təcrübəsində uğurlu mediatorlar adətən kifayət qədər təcrübəli və insanlarla uzun illər ərzində işləmiş şəxslər olurlar. Burada təcrübə deyildikdə, həm peşəkar, həm də həyat təcrübəsi nəzərdə tutulur.

*– Mediasiya fəaliyyətinin maliyyələşməsi hansı formada olacaqdır? Əgər fəaliyyət pulu olacaqsa, bu, vətəndaşların məhkəmə əlçatanlığına hansı formada təsir edəcəkdir?*

– Mediasiya xidmətləri adətən ödənişli olacaq. Bununla belə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qaydasına əsasən ilkin mediasiya sessiyası zamanı mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxsin mediasiya xərclərinin dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulmuşdur.

*– Mediasiya institutunun formalaşmasında dövlətin hansı maraqları var?*

– Dünyanın bir çox ölkəsində mediasiyaya maraq artmaqdadır. Avropa Şurası, xüsusilə CEPEJ adlanan komissiyasında Avropa Şurasına üzv dövlətlərdə mediasiyanın inkişafı üçün tədbirlər görülür. Bir çox ölkələrdə qanunvericilikdə dəyişikliklər edilir. Sual yaranır ki, dövlətlərin bunda marağı nədən ibarətdir?

Deyərdim ki, dövlətlərin mediasiyanın inkişafında marağının olmasının 2 səbəbi var:

1. Mediasiya inkişaf etdikdə məhkəmələrin iş yükü azalır. Bu isə son nəticədə məhkəmələrin digər işlərə daha çox vaxt ayırmasına, nəticə etibarı ilə isə ədalət mühakiməsinin keyfiyyətinin artması ilə nəticələnir.

2. Mübahisə tərəflərinə mübahisələrin həllinin digər vasitələrini təklif etməklə, dövlətlər tərəflərə mübahisələri üçün daha münasib metodu seçməyə imkan verir. Bu isə öz növbəsində yenə də ədalət mühakiməsinin keyfiyyətinin artması ilə nəticələnir.

3. Mediasiya mədəniyyətinin formalaşması cəmiyyətdə barışığı və qarşılıqlı anlaşmanı təşviq edir.

Əlavə olaraq, mediasiyanın mövcudluğu xarici investisiyaların cəlb edilməsi üçün nəzərdən keçirilən faktorlardan biridir.




# COVID-19 pandemiyası ilə bağlı xarici ölkələrdə həyata keçirilmiş sosial-iqtisadi dəstək mexanizmləri

Faktiki olaraq, bir çox ölkənin milli təhlükəsizliyi sistemində, eləcə də sosial və iqtisadi inkişafında yaratdığı fəsadları ilə bu problem 2-ci dünya müharibəsindən sonra çağdaş bəşər tarixinin ən dağıdıcı böhranı hesab edilir.

COVID-19 səbəbilə Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi-sosial xarakterli dəstək mexanizmləri, qabaqlayıcı tədbirlər, eyni zamanda digər ölkələrə yardımlar ölkəmizin beynəlxalq imicinin daha da güclənməsinə səbəb olmuşdur. Eyni zamanda, ölkəmizin də üzv olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Turkish Council), İslam Əməkdaşlıq Təşkilatı (İCO), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) və digər nüfuzlu beynəlxalq təşkilatlar və onların üzv dövlətləri tərəfindən iqtisadi və sosial sahələrdə effektiv qabaqlayıcı tədbirlər həyata keçirilməkdədir. Bu ölkələrin qeyd olunan sahədə təcrübəsi ilə yaxından tanış olmaq, onlardan gələcək fəaliyyətimizdə istifadə etmək baxımından çox maraqlıdır.

İlk olaraq, qardaş Türkiyə Respublikasında koronavirus pandemiyasının iqtisadiyyata mənfi təsirlərinin azaldılması məqsədilə 100 milyard lirə həcmində vəsaiti özündə ehtiva edən "İqtisadi Sabitlik Qalxanı" paketi təsdiq edilmişdir. Bu da öz növbəsində, pandemiya nəticəsində ən çox təsirə məruz qalan sektorların vergi və sosial sığorta ödəmələrinin 6 ay müddətinə heç bir faiz əlavə olunmadan təxirə salınması, şirkətlərin banklara olan kredit ödənişlərinin 3 aylıq dayandırılması, aviadaşıyıcıların əlavə dəyər vergisinin 3 ay ərzində 1 faizə endirilməsi kimi dəstək mexanizmlərinin hazırlanmasına imkan vermişdir.

Özbəkistan Respublikasında ölkə rəhbərliyi pandemiya zamanı əhalinin və iqtisadi sektorların dəstəklənməsi üçün prioritet və əlavə tədbirlər haqqında" iki Fərman imzalanmışdır. Buna əsasən, koronavirus pandemiyasının iqtisadiyyata və əhalinin yaşayış standartlarına mənfi təsirlərinin azaldılması üçün cari ilin 31 dekabr tarixinədək tur operatorlar, səyahət agentləri, hava yolu şirkətləri və otel xidmətləri təklif edən sahibkarlıq subyektləri torpaq və əmlak vergilərindən azad olunmuş və sosial vergi dərəcəsi 12 faizdən 1 faizə endirilmiş, fərdi sahibkarlar üçün müəyyən edilmiş

fərdi gəlir vergisi və sosial verginin hesablanması dayandırılmış, öncəki ayla müqayisədə gəlirləri 50 faizdən çox azalan kiçik sahibkarlıq subyektlərinə gəlir, torpaq, əmlak, su və sosial vergilərini cair ilin 1 oktyabr tarixinədək yubatmaq imkanı verilmiş, iflas prosedurunun başlanmasına 1 oktyabr 2020-ci ilə tarixinədək moratorium tətbiq edilmişdir.



Qırğızıstan Respublikası pandemiya ilə mübarizə üçün təcili tədbirlər planı irəli sürmüş və sahibkarların dəstəklənməsi üçün böhran vəziyyətində istehsal fəaliyyətini azaldan şirkətlərə maliyyə dəstəyinin (subsidiyalar, güzəştli kreditlər) verilməsi, əhalinin qida təhlükəsizliyini və ilkin qida təminatını təmin etmək üçün qida sənayesi istehsalçılarına dövlət bankları vasitəsi ilə subsidiya şəklində dövlət dəstəyi verilməsi, patent əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün vergi hesabatlarının verilmə müddətlərinin uzadılması kimi tədbirlərin görülməsi nəzərdə tutulur.

Macarıstan Respublikasının Baş naziri şirkətlər üçün dəstək tədbirlərinin hazırlaması təklifi ilə çıxış etmiş və Macarıstan Ticarət və Sənaye Palatası sektorlar üzrə müəssisələrə dəymiş zərərlərin müəyyənləşdirilməsi üçün üzvləri arasında bir sorğu keçirmişdir. Bu araşdırma əsasında iqtisadi fəaliyyət planı üçün təkliflər hazırlanmış və hökumətə təqdim edilmişdir. Buna uyğun olaraq, Macarıstan hökuməti tərəfindən yeni iqtisadi və iş yerlərinin qorunmasına dair tədbirləri elan edilmişdir. Bu tədbirlərə əsasən, fiziki və hüquqi şəxslər üçün bu ilin sonuna qədər olan bütün kredit ödənişlərinə moratorium tətbiq edilməsi, qısamüddətli iş kreditlərinin 30 iyun tarixinə qədər uzadılması, eyni zamanda, yeni istehlak kreditləri üzrə illik faiz dərəcəsinin mərkəzi bankın ən yüksək faiz dərəcəsi – maksimal 5 faiz olaraq müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə Koronavirus böhranı ilə mübarizə tədbirləri çərçivəsində müxtəlif təşəbbüslər həyata keçirilmişdir. Belə ki, Misir Ərəb Respublikası özəl sektorun sənaye şirkətlərini maliyyələşdirmək üçün illik 10% dərəcəsi ilə 100 milyard funtun ayrılması, Misir Birjasını dəstəkləmək üçün 20 milyard funtun ayrılması, sənayedə elektrik enerjisinin qiymətinin 10 piaster azaldılması, bank müştərilərinin kredit öhdəliklərinin altı ay müddətinə təxirə salınması nəzərdə tutulmuşdur. Səudiyyə Ərəbistanı Krallığı özəl sektora, xüsusilə kiçik və orta sahibkarlığa və bu epidemiyanın nəticələrindən ən çox təsirlənən iqtisadi fəaliyyətə dəstək olmaq üçün ümumi həcmi 50 milyard riyaldan çox olan dəstək mexanizmini təsdiq etmişdir. Yaşayış müddəti 30 iyun 2020-ci il tarixinə qədər olan xaricilər maliyyə kompensasiyasından azad olunmuş, bank zəmanəti verilməsi müqabilində idxal gömrük rüsumlarının yığımının növbəti 3 ay üçün otuz gün müddətinə təxirə salınmışdır. Həmçinin, özəl sektor müəssisələrində ödəniləcək bəzi dövlət xidmətləri və bələdiyyə haqlarının ödənilməsini üç ay müddətinə təxirə salınmışdır. Küveyt Dövləti qlobal təşəbbüsə qoşularaq Ümumdünya Səhiyyə Təşkilatına 40 milyon dollar ianə etmişdir. Küveytin Mərkəzi Bankı, hökumətin koronavirusun yayılmasına qarşı göstərdiyi səyləri dəstəkləməsi üçün yerli banklar tərəfindən maliyyələşdiriləcək 10



milyon dinar (32,8 milyon dollar) məbləğində maliyyə fondu yaratmışdır. Eyni zamanda, Küveyt Banklar Birliyi fiziki şəxslər, mikro, kiçik və orta müəssisələr üçün kredit ödəmələrinin növbəti 6 ay üçün təxirə salındığını elan etmişdir. Qətər Dövləti qida və tibb məhsullarının altı ay müddətinə gömrük rüsumlarından azad edilməsi və özəl sektora 75 milyon Qətər rialı dəyərində maddi stimul verilməsi barədə qərar qəbul etmişdir. İordaniya Haşimilər Krallığı Mərkəzi Bankın iqtisadi sektorları maliyyələşdirmə və dəstəkləmə proqramı vasitəsilə İordaniya milli iqtisadiyyatına 1050 milyon İordaniya dinarı dəyərində əlavə likvidlik gətirməklə məcburi pul ehtiyatının və maliyyələşdirmə xərclərinin azaldılmasını nəzərdə tutmuşdur. Mərakeşdə tibbi xərcləri ödəmək və Koronavirus pandemiyasından təsirlənən iqtisadi sektorları dəstəkləmək üçün 10 milyon dirhəmlik fond yaradılmışdır. Eyni zamanda, koronavirusun təsirinə qarşı mübarizə aparmaq üçün əksər nazirliklərin, aidiyyəti qurumların və ticarət palatalarının daxil olduğu İqtisadi Sayıqlıq Komitəsi təsis edilmişdir. Bəhreyn Krallığı koronavirusun iqtisadi təsirlərinə qarşı mübarizə üçün 4.3 milyard Bəhreyn dinarı dəyərində maliyyə və iqtisadi paketi təsdiqləmişdir. Təsdiq olunmuş paketə uyğun olaraq, cari ilin aprel, may və iyun aylarının hər biri üçün ötən ilin eyni dövrünə görə olan xərcləri keçməyən bütün abunəçilərin və şirkətlərin ümumi dəyəri 150 milyon Bəhreyn dinarı olan elektrik enerjisi və su xərclərinin ödənilməsi, ticarət müəssisələrinin cari ilin aprel, may və iyun aylarının hər biri üçün ümumi dəyəri 25 milyon Bəhreyn dinarı olan bələdiyyə haqlarından azad edilməsi, likvidlik fondunun həcmini 100 milyon Bəhreyn dinarı artıraraq 200 milyon Bəhreyn dinarına çatdırılması kimi tədbirlər nəzərdə tutulmuşdur. Birləşmiş Ərəb Əmirlikləri Mərkəzi Bankı, koronavirusun əks təsirlərinin qarşısını almaqdan ötrü ölkədəki banklara və şirkətlərə dəstək olmaq üçün 100 milyard dirhəm dəyərində hərtərəfli iqtisadi dəstək planını açıqlamışdır. Bu iqtisadi paketdən faydalananların əksəriyyəti turizm, nəqliyyat, ticarət və daşınmaz əmlak sektorları, eləcə də kiçik və orta ölçülü şirkətlərdir. Əlcəzairdə koronavirusun qarşısının alınması çərçivəsində bütün tibbi materiallar, qoruyucu geyim və kimyəvi analiz cihazlarının gətirilməsini sürətləndirmək üçün 232 milyon dollar ayrılmışdır. 2.5 milyard dinara (850 milyon dollar) başa gələn fövqəladə tədbirlər paketi koronavirus pandemiyasının mənfi təsirlərini azaltmaq üçün şəxsləri və qurumları qorumaq məqsədi daşıyır. Tunis Respublikası koronovirusun Tunis iqtisadiyyatına mənfi təsirlərini azaltmaq üçün 2.5 milyard dinar həcmində fövqəladə tədbirlər paketi təsdiq etmişdir. Tədbirlər planına əsasən, bankların və maliyyə qurumlarına borc ödəmələri 6 aylıq təxirə salınmış, təşkilatların işləri həyata keçirməsi ilə bağlı yeni kreditlər verməsi üçün 500 milyon dinar zəmanət xətti eləcə də texniki olaraq işləyə bilməyən işçilərə yardım olaraq 300 milyon dinar maliyyələşdirmə xətti açılmışdır. Oman Sultanlığında əlavə likvidliyin təmin edilməsi

məqsədi ilə Sultanlıqda fəaliyyət göstərən bütün banklar, mübadilə və maliyyələşdirmə şirkətlərinin 8 milyard Oman rialı həcmində iqtisadi paketlə təmin olunmuşdur. Mərkəzi Bankın təkrar satınalmalar üzrə faiz dərəcəsini 70 baza bəndi üzrə azaldılaraq 0.50 faizə endirilmiş, dövlət xəzinədarlıq veksellləri üzrə faiz dərəcəsini 100 baza bəndi üzrə azaldılaraq 1 faizə endirməklə ən çox satınalma müddəti üç aya qaldırılmışdır. Pakistan İslam Respublikasında elektrik enerjisi və təbii qaz istehlakı üzrə ödənişlərin hissə-hissə ödəməsinə icazə verilməsi, habelə ixracatçılara verilən kreditlərin faizlərinin ödənilməsi üçün müvəqqəti gecikmə halları ilə bağlı güzəştlər nəzərdə tutulmuşdur.

Malayziyada insanları qorumaq və rifahını təmin etmək üçün təxminən 1 milyard rinqqit, kiçik və orta şirkətlər daxil olmaqla biznesi dəstəkləmək üçün 100 milyard rinqqit və milli iqtisadiyyatı inkişaf etdirmək üçün 2,0 milyard riqqit məbləğində vəsait ayrılmışdır. Kənd təsərrüfatı və sənaye ilə əlaqəli qida istehsalını və ərzaq ixracını artırmaq üçün 1 milyard rinqqit məbləğində maliyyə yardımının ayrılması planlaşdırılır.

Türk Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə yanaşı Avropanın sənaye mərkəzi və böyüklüyünə görə dünyanın ikinci ixracatçı ölkəsi olan Almaniya Federativ Respublikasıda pandemiyanın təsirlərinə məruz qalmış və bir sıra dəstək mexanizmlərini işləyib hazırlamışdır. Belə ki, Almaniya hökuməti alman şirkətlərini və işçilərini koronavirusun iqtisadi təsirindən qorumaq üçün 23 mart 2020-ci il tarixində 400 milyard avro dəyərində olan bir proqram hazırlamışdır. Bu proqram Almaniya tarixində tətbiq olunmuş ən böyük dövlət dəstəyi proqramıdır. “Qoruyucu qalxan” adlandırılmış bu proqramın əsas məqsədi müəssisələrin böhrandan çıxmasına kömək etmək üçün kifayət qədər maliyyə likvidliyinin təmin edilməsindən ibarətdir.

Bundan əlavə, Almaniya, həmçinin, koronavirusun yayılması nəticəsində zərər çəkmiş şirkətlərə dəstək proqramı qismində Avropa Komissiyasına bir sxem təqdim etmişdir. AB dövlətlərinə yardım qaydalarına uyğun olan bu dəstək proqramı, Komissiyanın 19 mart 2020-ci ildə qəbul etdiyi COVID-19 virusunun yayılması kontekstində iqtisadiyyatı dəstəkləmək üçün Dövlət yardımı Müvəqqəti Çərçivə sənədi ilə təsdiq edilmişdir. “Bundesregelung Kleinbeihilfen 2020” (“Federal Kiçik Yardım Sxemi 2020”) adlanan bu sxem, şirkətlərin üzləşdikləri çətinliklərin aradan qaldırılmasına kömək etmək məqsədi daşıyır.

Həmçinin, ölkəmizin ən böyük ticarət tərəfdaşlarından biri olan və iqtisadiyyatında baş verə biləcək istənilən dalğalanmanın regionun əksər ölkələrinə mənfi təsir göstərəcək Rusiya Federasiyasında COVID-19 pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiqi nəticəsində zərər görən sahibkarlıq subyektlərinin dəstəklənmə mexanizmləri işlənib hazırlanmışdır. Belə ki, sahibkarlara əlavə dəyər vergisindən başqa bütün vergilər üçün altı aylıq güzəşt dövrünün verilməsi, tətbiq olunan cərimələrə cari ilin sonuna qədər moratorium tətbiq edilməsi nəzərdə tutulur. Bundan əlavə, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə faiz ödənişlərinin paylanması təklif olunur, yəni faizin üçdə biri federal büdcədən subsidiya olunur; üçdə birini Rusiya Mərkəzi Bankı 4% səviyyəsində əlavə likvidlik verdiyinə görə kredit təşkilatları alır; son üçdə biri isə borcalan tərəfindən ödənilir. Ümumilikdə, bu proqramı təxminən 500 milyard rubl, yəni yarım trilyon kredit portfelini əhatə edəcəkdir. Digər bir həll yolu isə tək dövlət mülkiyyəti üçün deyil, həm də özəl ticarət mərkəzlərində ticarət sahəsi üçün icarə müddətinin təxirə salınmasıdır. Bu zaman əmlak sahibləri üçün kompensasiya tədbirlərinin görülməsi nəzərdə tutulur.

*Fuad Hümbətov*





# VERGİ QANUNVERİCİLİYİ ÇƏRÇİVƏSİNDƏ VERGİ GÜZƏŞTLƏRİ VƏ TƏTİLLƏRİ HANSILARDIR?

"Biznes Həyatı" jurnalı sahibkarları düşündürən əsas sualları ümumiləşdirərək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə göndərmişdir. Dövlət Vergi Xidmətinin Media və Kommunikasiya İdarəsinin həmin suallarla bağlı şərhini oxucularımıza təqdim edirik.

**1. Müvəqqəti vergi rejimi hansı fəaliyyət sahələrinə aid edilir?**

Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi aşağıdakı fəaliyyət istiqamətlərinə aiddir:

- Yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;
- Turoperator və turagent fəaliyyəti;
- İctimai iaşə fəaliyyəti;
- Avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;
- Sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;
- Sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;
- İdman-sağlamlıq obyektlərinin fəaliyyəti;
- Hazırlıq (tədris) və ixtisasartıma kurslarının, məktəbdənkənar təhsil müəssisələri, psixoloji mərkəzlərin fəaliyyəti;
- Koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi məqsədilə fəaliyyəti Nazirlər Kabineti tərəfindən tam və ya qismən məhdudlaşdırılmış digər fəaliyyət sahələri (dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından maliyyələşən digər dövlət orqanları (qurumları) istisna olmaqla).

**2. Əmlak və torpaq vergiləri üzrə güzəştlər hansı müddətə verilir?**

Vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə müvəqqəti vergi rejimi tətbiq edilən fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma tətbiq edilir. Bu güzəştlərin müddəti 2020-ci il yanvarın 1-dən etibarən bir il müddətinə müəyyən edilib.

**3. Mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən vergi ödəyicilərinə hansı güzəştlər tətbiq olunur?**

Koronavirus pandemiyasının təsirinə məruz qalan və müvəqqəti vergi rejimi tətbiq edilən fəaliyyət sahələrində çalışan vergi ödəyicilərinə 2020-ci il yanvarın 1-dən etibarən bir il müddətinə bir sıra vergi güzəştləri tətbiq edilir. Bu güzəştlər vergi ödəyicilərinin seçdikləri vergitutuma metodundan asılı olaraq tətbiq edilir. Mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən ödəyicilər üzrə əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştləri verilir.

**4. İctimai iaşə sahəsində sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hansı güzəştlərdən yararlana biləcək?**

Koronavirus pandemiyasının təsirinə məruz qalan və müvəqqəti vergi rejimi tətbiq edilən fəaliyyət sahələrində çalışan sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti və sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üzrə sadələşdirilmiş verginin məbləği üzrə 50 faiz güzəşt tətbiq edilir. İctimai iaşə sahəsində verginin dərəcəsi 8 faizdən 4 faizə endirilir.

**5. Koronavirus pandemiyasının təsirinə məruz qalan fəaliyyət sahələrində icarədən tutulan vergilərlə bağlı güzəştlər edilibmi?**

Koronavirus pandemiyasının mənfi təsir etdiyi və müvəqqəti vergi rejimi tətbiq edilən iqtisadi fəaliyyət sahələri üzrə fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsinin 14 faizdən 7 faizə endirilib.

**6. Karantin rejiminə təsadüf edən dövrlər üzrə vergi hesabatlarının və ödəmələrinn verilməsində tətillər nəzərdə tutulurmu?**

Koronavirus pandemiyasının mənfi təsir etdiyi və müvəqqəti vergi rejiminin tətbiq edildiyi iqtisadi fəaliyyət sahələri üzrə vergi bəyannamələrinin və hesabatlarının təqdim edilməsinə, habelə vergi ödəmələrinin həyata keçirilməsinə bir sıra vergi tətillərinin verilməsi nəzərdə tutulur. Bu güzəştlər aşağıdakılardır:

- 1 il müddətinə cari vergi ödəmələrindən və cari vergi ödəmələri ilə bağlı arayışların verilməsindən azad edilməsi, 2019-cu il üçün son verginin ödənilməsi müddətinin 1 sentyabr 2020-ci il tarixinədək uzadılması;
- mikro sahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin əvvəlki il üzrə hesablanmış mənfəət (gəlir) və əmlak vergilərinin ödənilməsi müddətinin cari ilin 1 sentyabr tarixinədək uzadılması;
- ödənilməmiş vergi, məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanması 2020-ci ilin 1 aprel tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınması;
- ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən 2020-ci il üzrə sadələşdirilmiş vergi metodunu seçmək hüququnun 20 aprel tarixindən 1 sentyabr tarixinədək uzadılması.

**7. Mikro sahibkarın fəaliyyət göstərdiyi sahə pandemiyadan zərər çəkmədiyi halda, ona güzəştlər şamil olunmur?**

Koronavirus pandemiyasının təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq, sadələşdirilmiş vergi ödəyicisi olan mikro sahibkarlara güzəştlər tətbiq edilir.

**8. Mikro sahibkarlara hansı güzəştlər verilib?**

Mikro sahibkarlara aşağıdakı vergi güzəştləri və tətilləri verilib:

- Sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi (verginin dərəcəsi 2 faizdən 1 faizə salınır);
- 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş vergi hesabatının və mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların təqdim olunması və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi;
- Nazirlər Kabinetinin qərarı ilə müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddətin sabit qəbz almaqla fərdi qaydada məşğul olan vergi ödəyiciləri tərəfindən əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilməməsi və ödənilmiş vergilərin növbəti dövrlərin ödəmələrinə aid edilməsi.





**9. Müəssisə koronavirusun yayılmasının qarşısının alınması məqsədilə dezinfeksiya tədbirlərinə vəsait xərcləyib. Bu xərclər gəlirdən çıxılan xərclərə aid edilirmi?**

Vergi Məcəlləsində dəyişikliklərlə bağlı qəbul edilmiş qanuna əsasən, müvəqqəti vergi rejimi müddətində əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclər məhdudiyyət nəzərə alınmadan gəlirdən çıxılır.

**10. Müəssisə ərzaq məhsullarının idxalı ilə məşğuldur. Bu fəaliyyət növünə spesifik güzəştlər nəzərdə tutulurmu?**

Müvəqqəti vergi rejimi müddətində əhalinin sağlamlığının və zəruri ərzaq məhsulları ilə ehtiyaclarının təmin edilməsi məqsədilə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məhsul (mal) növlərinin idxalı ƏDV-dən azad edilir.

Sosial sığorta qanunvericiliyi çərçivəsində güzəştlər barədə:

**11. Ticarət sektoru üçün məcburi dövlət sosial sığorta haqları məbləğində hansı dəyişiklik nəzərdə tutulub?**

Ticarət sektorunda sahibkarlıq fəaliyyəti üzrə məcburi dövlət sosial sığorta haqları 2 dəfə aşağı salınıb və 1 aprel 2020-ci il tarixindən 1 yanvar 2026-cı il tarixinədək minimum aylıq əməkhaqqının 25 faizi həddində olmaqla hesablanır. Bu zaman regionlar üzrə diferensial faiz əmsalları tətbiq edilir.

Misal:

*Bakı şəhərində ticarət fəaliyyəti ilə məşğul olan şəxslər indiyədək 125 manat sosial sığorta haqqı ödəyirdilər. Dəyişiklikdən sonra onlar 62,5 manat sosial sığorta ayırması həyata keçirəcək ki, bu da bütövlükdə 50 faiz azalma deməkdir.*

**12. Tikinti sektoru üçün məcburi dövlət sosial sığorta haqları üzrə hansı dəyişiklik var?**

Tikinti sektorunda sahibkarlıq fəaliyyəti üzrə məcburi dövlət sosial sığorta haqları 1 aprel 2020-ci il tarixindən 1 yanvar 2021-ci il tarixinədək minimum aylıq əməkhaqqının 25 faizi, 2021-ci il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək isə minimum aylıq əməkhaqqının 50 faizi həddində olmaqla hesablanır və regionlar üzrə diferensial faiz əmsalları tətbiq edilir.

**13. Xidmət sektorunda çalışan vergi ödəyiciləri üçün məcburi dövlət sosial sığorta haqları məbləğində hansı dəyişiklik var?**

Tikinti və ticarət sektorları istisna edilməklə, digər sektorlarda sahibkarlıq fəaliyyəti üzrə məcburi dövlət sosial sığorta haqqı 1 aprel 2020-ci il tarixindən 1 yanvar 2021-ci il tarixinədək minimum aylıq əməkhaqqının 15 faizi miqdarında, 2021-ci il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək isə 25 faizi miqdarında olmaqla hesablanır və regionlar üzrə diferensial faiz əmsalları tətbiq edilir.

Misal:

*Bakı şəhərində avtomobillərə texniki xidmət göstərən sahibkar indiyədək 62,5 manat sosial sığorta haqqı ödəyirdi. Dəyişiklikdən sonra 0, 37,5 manat sosial sığorta ayırması həyata keçirəcək ki, bu da bütövlükdə 40 faiz azalma deməkdir.*

**14. Bakı şəhərində fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxs üçün vergi və sosial sığorta yükü hansı şəkildə dəyişib?**

Sabit qəbz əldə etməklə fəaliyyət göstərən vergi ödəyicilərinin sosial sığorta yükünün azaldılması məqsədilə sosial sığorta haqqları regionlar üzrə diferensial qaydada minimum aylıq əməkhaqqının müəyyən misli məbləğində hesab-

lanır. Habelə sosial sığorta ödənişləri üzrə prosedurların sadələşdirilməsi məqsədilə belə şəxslər məcburi dövlət sosial sığorta haqqı ödənişlərini də sabit qəbz almaqla həyata keçirəcəklər.

Misal:

*Bakı şəhərində fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər indiyədək 30 manat vergi və 62,5 manat sosial sığorta haqqı ödəyirdilər. Onların cəmi vergi və sosial yükü 92,5 manat təşkil edirdi. Dəyişiklikdən sonra həmin şəxslər 30 manat vergi, 15 manat sosial sığorta ayırması həyata keçirəcəklər, beləliklə də onların cəmi vergi və sosial yükü 45 manata enəcək. Bu isə 47,5 faiz azalma deməkdir.*

**15. Bakıda taksi fəaliyyəti göstərən şəxslərə də güzəştlər nəzərdə tutulurmu?**

Fərqlənmə nişanı əldə etməklə fəaliyyət göstərən vergi ödəyicilərinin sosial sığorta yükünün azaldılması məqsədilə sosial sığorta haqqları regionlar üzrə diferensial qaydada minimum aylıq əməkhaqqının müəyyən misli məbləğində hesablanacaq. Həmçinin, sərnişin daşımaları fəaliyyəti həyata keçirən şəxslərin sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz güzəşt verilməsi nəzərdə tutulur.

Misal:

Bakı şəhərində taksi fəaliyyəti ilə məşğul olan şəxslər hazırda 18 manat vergi və 62,5 manat sosial sığorta haqqı ödəyirlər. Onların cəmi vergi və sosial yükü 80,5 manat təşkil edir. Vergi və sosial sığorta qanunvericiliyinə edilən dəyişiklikdən sonra bu şəxslər 9 manat vergi, 30 manat sosial sığorta ayırması həyata keçirəcəklər, nəticədə onların cəmi vergi və sosial yükü 39 manata enəcək. Bu isə bütövlükdə 51,5 faiz azalma deməkdir.

**16. Kənd təsərrüfatında çalışanların sosial sığorta yükü ilə bağlı dəyişikliklər nədən ibarətdir?**

İndiyədək mövcud olmuş qanunvericilikdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin, torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, sabit olaraq hər bir əmək qabiliyyətli ailə üzvünə görə minimum əməkhaqqının 6 faizi miqdarında baza sosial sığorta haqqı ödəməsi nəzərdə tutulurdu. Minimum aylıq əməkhaqqı məbləğinin 250 manat məbləğinədək artırıldığını nəzərə alsaq, 5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər aylıq 60 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəməli idilər.



Sosial sığorta qanunvericiliyinə edilmiş dəyişikliklərdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqının torpağın sahəsindən asılı olaraq minimum aylıq əməkhaqqının aşağıdakı dərəcələrində hesablanması nəzərdə tutulur:

- 5 hektaradək olduqda – 2 faiz miqdarında;
- 5 hektardan 10 hektaradək olduqda – 6 faiz miqdarında;
- 10 hektardan yuxarı olduqda – 10 faiz miqdarında.

Misal:

5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər adambaşına aylıq 5 manat məbləğində, cəmi ailə üzvləri isə 20 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəyəcəklər.

**17. Torpaq mülkiyyətçilərinin əksəriyyəti kənd yerlərində yaşayır. Onların hesabat verməsini yüngülləşdirmək nəzərdə tutulurmu?**

"Sosial sığorta haqqında" Qanuna edilmiş dəyişikliklərə əsasən, torpaq mülkiyyətçiləri tərəfindən sosial sığorta hesabatının verilməsi sabit qəbzlə əvəzlənmişdir.

**18. Vəkil, sərbəst auditor və mühasibat xidmətləri göstərən şəxslər üçün sosial sığorta yükünün azaldılması nəzərdə tutulurmu?**

"Sosial sığorta haqqında" Qanuna edilmiş dəyişikliklərə əsasən, vəkillərin, müstəqil mühasiblərin və auditorların sosial sığorta yükü optimallaşdırılmışdır. Qanunvericilikdə bu kateqoriyadan olan şəxslər tərəfindən ödənilən sosial sığorta haqqı, onların əldə etdikləri gəlirlərindən xərclər çıxılmaqla, qalan məbləğin 10 faizi miqdarında müəyyən edilib.

# ƏMLAK SIĞORTASI HAQQINDA NƏ BİLİRİK?

# HESABLAMA QAYDASI



*Bütün dünya “Evdə qal”, - deyə çağırış edir. Dünyanı bürümüş ən qorxulu xəstəlikdə təhlükəsiz sığınacaq yerimiz yalnız evimizdir. Ona görə də evini, əmlakını vaxtında sığortalayanlar yəqin ki, bu stressli günlərdə daha güvənlidirlər. Ümumiyyətlə, Azərbaycanda sığorta mədəniyyəti çox zəifdir və bunun sosial, iqtisadi səbəbləri çoxdur. Təkcə bir rəqəmi demək kifayətdir ki, sığorta haqqlarının ÜDM-dəki payı Avropada 16%-dək olduğu halda, ölkəmizdə heç 1 faizi ötmür.*

**Nəyə görə icbari?**

Sığorta əslində könüllülük əsasında olmalıdır. Yəni insanlar, dövlətlər malik olduqları əmlakları, vəsaitləri sığortalayaraq gözlənilməz təhlükələr, formajorlar nəticəsində çəkdiyi zərərin qarşılığını geri alırlar.

Obrazlı şəkildə desək, sığorta şirkətləri forsmajorlar, təhlükələr, fəlakətlər olmasın deyə kainata müsbət mesaj göndərən mələklərdir. Məqsəd isə budur ki, heç kimin əmlakı, vəsaiti batmasın ki, aldıqları sığorta haqqlarını gəlirə çevirsinlər.

Dünyada ticari əlaqələr, əmlak sahibliyi, vəsaitlərin yerləşdirildiyi banklar məkan baxımından o qədər müxtəlifləşib, harada nə baş verəcəyi ehtimalları o qədər anidir ki, sığorta hər yerdə bir zərurətə çevrilib.

Zəlzələ nəticəsində evlərin uçması, kəndlərin sel suları altında qalması, böyük ticarət mərkəzlərinin yanması və nəticədə sahibkarlara dəyən maddi ziyanın milyonlarla ölçülməsi faktları yaxın keçmişlərdə baş verib. Bu isə onu göstərir ki, sığorta sistemində ciddi dəyişikliklərə, islahatlara ehtiyac var və bu islahatlar ilk növbədə bizim şüurumuzda sığortaya baxışdan başlamalıdır.

İndi dünyanın sivil ölkələrində adi vərdişlərə çevrilmiş sığorta növləri Azərbaycanda işləmədiyi üçün hökumət, məsələn əmlak sığortasını məcburi formada tətbiq edir ki, bu sahədə əhali arasında maariflənmə prosesi daha sürətlə getsin.

**Əmlak sığortası hansı təminatları verir?**

Qanun deyir ki, daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi daşıyır.

Hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə siyahısı müvafiq icra hakimiyyəti

orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir.

Yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, eləcə də istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, bütün növ xarici, yaxud daxili mala, suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir *(istinad: https://asan.gov.az/az/service/asan-xidmetler/funksional-yardimci-xidmetler/sigorta-xidmetleri/dasinmaz-emlakin-icbari-sigortasi).*

Daşınmaz əmlakın aşağıdakı hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud digər formada itkisi sığorta hadisəsi hesab olunur:

- yanğın, ildırım düşməsi;
- məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı;
- elektrik naqillərində baş verən qısa qapanma;
- buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı;
- su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma;
- hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri;
- yerüstü nəqliyyat vasitəsinin dəyməsi;
- təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi;
- üçüncü şəxslərin hərəkətləri.

## Hansı istisnalar var?

İcbari sığortaya cəlb olunmayan tikililər bunlardır: sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan, qəzalı vəziyyətdə olan, özbaşına tikinti sayılan daşınmaz əmlak.

Bu hallarda əmlakın zədələnməsi, məhv olması və yaxud hər hansı formada itkisi sığorta hadisəsi hesab olunmur:

> Sığorta şirkətləri forsmajorlar, təhlükələr, fəlakətlər olmasın deyə kainata müsbət mesaj göndərən mələklərdir.

- sığortalanan şəxsin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər;
- sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan hərəkətlər nəticəsində əmlaka zərərin dəyməsi;
- hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması, dəyişdirilməsi və.s.
- qrunt sularının səviyyəsinin dəyişməsi nəticəsində əmlaka zərər vurulması;
- suyun borulardan və ya rezervuardan şaxta vurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması zamanı əmlaka zərər vurulması.

## Məsuliyyətin sığortası da icbaridir

Əsas qaydaları yuxarıda sadaladıq. İcbari Sığorta Bürosunun məlumatına görə, hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri, binaları və mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası isə “İcbari sığortalar haqqında” Qanunun Xüsusi bölməsinin 3-cü fəslində nəzərdə tutulub.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası müvafiq əmlakın istismarı, o cümlədən, həmin əmlakın ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin həyata keçirilməsi zamanı üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyən zərərin əvəzinin ödənilməsi məqsədilə tətbiq edilir.

Bu məqsədlər üçün əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin sığortası icbari olan əmlak dedikdə, hüquqi şəxslərin öz fəaliyyətini, həmçinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sahibkarlıq fəaliyyətini həyata keçirməsi üçün istismar etdiyi daşınmaz əmlak olan binalar, tikililər, qurğular, sahələr başa düşülür.

Yuxarıda sadaladığımız hər hansı əmlakın istismarı ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası da icbaridir.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin sığortası icbari olan əmlak dedikdə, hüquqi şəxslərin öz fəaliyyətini, həmçinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sahibkarlıq fəaliyyətinin həyata keçirməsi üçün istismar etdiyi daşınmaz əmlak olan binalar, tikililər, qurğular, sahələr başa düşülür.

## Sığorta etdirmək nə qədər sərfəlidir?

İndi gəlin baxaq, əmlakın sığortası nə qədər sərfəlidir? Bunu həm

yaşayış yerinin, həm də sahibkarlıq obyektlərinin nümunəsində hesablayaq.

Məsələn, Bakıda yaşayış evinin illik sığorta haqqı 50 manatdı. Sığorta məbləği isə maksimum 25 min manat təşkil edir. Sığorta hadisəsi baş verərsə, yəni tutaq ki evə 1000 manatlıq zərər dəyib. Bu 1000 manatın 750 manatını sığorta şirkəti, 250 manatını isə sığorta etdirən ödəyir. Və ya 25 min manat zərər hesablanıbsa sığorta ödənişi *(https://isb.az/sigorta-kalkulyatoru/)* bu cədvəldəki kimidir:

| *Sığorta məbləği* | *Azadolma məbləği* | *Sığorta haqqı* |
|---|---|---|
| 25.000 manat | 250 manat | 50 manat |

25 000 – 250 (azadolma məbləği - müştərinin öhdəliyində qalan bir məbləğdir) = 24 750 manat olacaq.

Deməli, bu halda Bakıda sığorta hadisəsi zamanı zərərçəkən şəxs sığorta şirkətindən 24 750 manat pul alacaq.

İndi isə İcbari Sığorta Bürosundakı Daşınmaz əmlak kalkulyatorundan istifadə edib 4-5 mərtəbəli ticarət mərkəzinin sığorta haqqını hesablayaq. Tutaq ki, ticarət mərkəzinin bazar dəyəri 25 000 000 manatdır.

Hesablama aparsaq, nəticələr belədir:



| *Sığorta məbləği* | *Azadolma məbləği* | *Sığorta haqqı* |
|---|---|---|
| 25.000.000 manat | 2.500 manat | 40.000 manat |

İllik rəqəm əlbəttə, nəzərəçarpandır. İndi gəlin, hesablayaq, bu qədər sığorta məbləğini ödəmək sərfəlidirmi?

25 min manatı illik 50 manata və 25 milyon manatı illik 40 min manata bölsək, neçə illik sığorta edir?

*25 000: 50 = 500 il*

*25 000 000: 40 000 = 625 il*

Yəni, sığorta etdirdiyiniz yaşayış evidirsə, sığorta hadisəsi nəticəsində ala biləcəyiniz 25 min manatı siz yalnız 500 il ərzində ödəsəniz sığorta şirkətinin "borcunu" bağlaya bilərsiniz". Halbu ki, bu vəsait sizə qarşılaşdığınız zərərin təminatı olaraq birdəfəlik verilir və siz geriyə heç bir ödəniş etmirsiniz.

Eləcə də 625 il hər il 40 min manat ödəsəniz, 25 milyon manat edir. Bu isə onu göstərir ki, sığorta etdirmək sərfəlidir və bu sahibkarı, eləcə də, hər bir əmlak sahibini riskdən qormağın ən yaxşı yoludur.

Ümumiyyətlə, icbari sığorta müqaviləsinin bağlanmamasına görə hansı cərimələrin tətbiq olunması İnzibati Xətalar Məcəlləsinin 569-cu maddəsi ilə tənzimlənir. İcbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslərə 30 manat, vəzifəli şəxslərə 80 manat, hüquqi şəxslərə isə 200 manat cərimə nəzərdə tutulub.

Düzdür, Azərbaycanda bu sahədə cərimə mexanizmləri şəffaf deyil və tam riayət olunmur, ancaq bu sığortanın vacibliyini şübhə altına almır.

**Sığortanın sosial əhəmiyyəti böyükdür**

Ölkədə keçən ilin əvvəlində Şamaxı, Ağsu, İsmayıllı rayonlarında baş verən məlum hadisələr, yəni zəlzələ və ya son vaxtlar bir sıra ticarət obyektlərində baş verən yanğın və digər bu kimi hadisələr mülkiyyəti sığortalamağın nə qədər vacib olduğunu bir daha aktuallaşdırdı.

Məsələn, inkişaf etmiş ölkələrdə hər hansı ticarət obyektində və yaxud mərkəzində yanğın baş verdikdə bütün maliyyə yükünü sığorta şirkətləri daşıyır və hər şey qabaqcadan onlar tərəfindən sığortalandığı üçün kompensasiya ödənişində məsuliyyət həmin şirkətlərin üzərinə düşür.

Zəlzələ və yaxud digər növ təbii fəlakət nəticəsində evlərə ziyan dəydiyi halda da maliyyə sarıdan sığortaçılar köməyə gəlir.

**Daşınmaz əmlakın sahəsi və dəyəri var...**

Məsələ bundadır ki, daşınmaz əmlakın icbari sığortasına görə inzibati məsuliyyət hələ 2011-ci ildə - doqquz il bundan əvvəl qəbul olunan qanunda öz əksini tapıb və ötən doqquz il ərzində həmin inzibati qaydada məsuliyyət heç kimə tətbiq edilməyib. Üstəlik, elan edilmiş və hazırda qüvvədə olan sığorta məbləğlərinin fərqləndirilməsinin dəqiq meyarları belə yoxdur.

İqtisadçı Pərviz Heydərov haqlı olaraq belə bir sual qoyur: Əmlakın qiyməti, dəyəri bəlli olmadan standart olaraq Bakıda 50, Sumqayıt, Gəncə və Naxçıvanda 40, digər yerlərdə 30 manat sığorta haqqı hansı məntiqə əsaslanır? Avtomobillər üzrə icbari sığorta mühərrikin həcminə görə diferensiallaşdırılmış şəkildə yığılır. Daşınmaz əmlakın mühərriki olmursa da, sahəsi və dəyəri var axı...

Sığortanın 3 əsas sosial iqtisadi rolunun olduğunu deyən Mərkəzi Bankın sədri E.Rüstəmov buraya əhalinin və biznesin iqtisadi təhlükəsizliyi, əhalinin sosial müdafiəsinin təmin edilməsi və iqtisadiyyatın uzunmüddətli investisiya mənbələri ilə təmin olunmasını daxil edir. "Hesab edirəm ki, biz bu işi çox ciddi təşkil etməliyik. Bütövlükdə burada görülməli işlər həddindən artıq çoxdur", deyən E.Rüstəmov Mərkəzi Bankın indiki mandatında da sığorta işinə nəzarət mühüm yer tutduğunu bildirib.

*İlhamə Abdullayeva*



# ASK-nın Goranboy rayon nümayəndəsi: Konservləmə sexlərinə böyük tələbat var

*"Region sahibkarı" rubrikasının qonağı Azərbaycan Sahibkarlar Konfederasiyasının Goranboy rayon nümayəndəsi Rüstəm Nağıyevdir. Məlumdur ki, qeyri-neft sektorunun inkişafında regionların rolu böyükdür və xüsusən də ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında regionlarda yerləşən müəssisələr mühüm rol oynayır. Goranboy rayonu kənd təsərrüfatı üzrə ixtisaslaşsa da, bu rayonda bir neçə emal müəssisəsi fəaliyyət göstərir.*

*– Rüstəm müəllim, Goranboy rayonunda hazırki sosial-iqtisadi vəziyyəti necə səciyyələndirərdiniz?*

– Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası, Azərbaycanın digər rayonlarında olduğu kimi, Goranboy rayonunda davamlı sosial-iqtisadi inkişafa təkan vermiş, rayonumuzda aqrar sahənin və kənd təsərrüfatı məhsullarının istehsalının inkişafına şərait yaratmışdır.

Ölkə Prezidentinin aqrar sahənin inkişafına olan diqqəti və qayğısı sakinlərimizi yenidən öz ənənəvi məşğuliyyətlərinə qaytardı. Bağçılığın inkişafına dövlət dəstəyi onları yeni, müasir meyvə bağlarının salınmasına və heyvandarlığın genişləndirilməsinə həvəsləndirdi.

Ümumiyyətlə ölkəmizin hər yerində olduğu kimi, Goranboy rayonunda da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası istiqamətində işlər uğurla davam etdirilir.

Ölkə Prezidentinin rayona etdiyi səfərlər zamanı verdiyi tapşırıq və tövsiyələr, həmçinin ayrılan vəsaitlər hesabına rayonda geniş abadlıq-quruculuq işləri həyata keçirilmiş, rayon sakinlərinin rahat yaşamaları üçün sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq olan goranboylular onlar üçün yaradılan bu şəraitə, yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

*– Sizin nümayəndə olduğunuz rayonda hansı biznes sahələri daha geniş yayılıb və əhalinin məşğulluğu əsasən nədən ibarətdir?*

– Goranboy rayonunun ərazisi 1700.25 kv metr, əhalisi isə 105 min nəfərdir. Qarabağda gedən müharibələr nəticəsində, eləcə də Ermənistandan öz ata-baba yurdlarından qovulan 11 minə yaxın qaçqın və məcburi köçkün bizim rayonda məskunlaşıb. Yəni hazırda rayonun cəmi əhalisi 116 min nəfərdir. Goranboyda 2 şəhər, 6 qəsəbə, 79 kənd olmaqla ümumi 87 yaşayış məntəqəsi mövcuddur.

Nəzərinizə çatdırım ki, Goranboy rayonu iqtisadi baxımdan çox əlverişli bölgələrdəndir. Rayonda əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı və heyvandarlıq ilə bağlıdır. Həmçinin rayonda pambıqçılıq, dənli bitkilərin becərilməsi və başqa kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsinə böyük səy göstərilir. Rəqəmlərlə ifadə etsək deyə bilərəm ki, bu il 2 min 775 hektarda pambıq, 22 min 644 hektarda dənli bitkilər becərilib. Qeyd etdiyim kimi, əhalinin əsas məşğuliyyətindən biri maldarlıqdır. Ona görə də Goranboyda orüş yerinin umumi sahəsi 68 min 828 hektardan çoxdur. Bunun 5 min 922 hektarı yay, 24 min 410 hektarı isə qışlaqdır. Kənd ətrafı örüş sahəsi isə 38 min 496 hektardır. Rayonda hazırda iri buynuzlu malqaranın sayı 39 min 105, xırda buynuzlu heyvanların sayı isə 198 min 828-dir.

*– Goranboydakı investisiya imkanlarını necə qiymətləndirirsiniz və hansı sahələrdə biznes qurmaq imkanları var?*

– Qeyd etdiyim kimi, Goranboyda əsasən aqrar sahə daha geniş yayılıb və burada aqrar sektora yönəlmiş biznesin inkişafı daha səmərəli nəticə verə bilər. Rayonun ərazisində ümumilikdə 20.0 hektardan çox istixana və açıq sahələrdə becərilən tərəvəz məhsulları, həyətyanı sahələrdəki əkin yerləri də də daxil olmaqla 2 min hektardan çox meyvə bağları mövcuddur. Bu da o anlama gəlir ki, Goranboy rayonunda olan bu

cür potensial meyvə konservləri istehsalı sexlərinə böyük tələbat yaradır.

*– Emal sənayesinin inkişafı ilə bağlı rayonda hansı tədbirlər görülüb. Ən iri müəssisələr hansılardır və bu müəssisələrin əsas satış bazarları haradır?*

– Goranboyda böyük müəssisələr kimi "Gilan Holding" , "Aqropark", "Kaskod Aqro MMC"-nin adını çəkə bilərəm. "Gilan Holding" alçipan istehsal edir və bu tikinti materialları qonşu rayonlara, Bakıya satılır. Qızılhacılıda yerləşən "Kaskod Aqro"MMC istilikxana kompleksi isə daha çox tərəvəzçiliklə məşğuldur. İstilikxana müasir texnologiyalarla işləyir və məhsuldarlıq, keyfiyyət göstəriciləri yüksəkdir. "Aqro Park" daha çox taxıl, qarğıdalı, yonca, pambıq əkinini həyata keçirir.

Müəssisələrin əsas məqsədi ölkəmizi bu məhsullarla təmin etmək və idxal mallarının yerli mallarla əvəzlənməsinə töhfə verməkdir. Goranboyda istehsal olunan bu məhsullara Azərbaycanın hər bir bölgəsində rast gəlmək olar.

*– Hazırda rayonda fəaliyyət göstərən sahibkarların çətinlikləri hansılardır və bu çətinliklərin həlli istiqamətində müvafiq qurumlarla əməkdaşlıq edirsinizmi?*

– Rayonumuzda maldarlıq da geniş inkişaf edib və əhalinin əsas məşğuliyyəti sırasındadır. Hazırda rayonun fəaliyyət istiqamətləri sahibkarların bəslədikləri heyvanların satışı və süd məhsullarının satışı ilə bağlıdır. Hesab edirəm ki, ət və süd məhsulları üçün emal müəssisəsinə ciddi ehtiyac vardır. Muzdurlar (Türk Qida Sənaye) və Balakürd kəndində yerləşən heyvandarlıq kompleksləri məhsullarını əsasən qonşu şəhər və rayonlarda satırlar. Eyni zamanda, heyvandarlıqla bağlı emal müəssisələri açıla bilər. Məsələn dəri emalı müəssisəsi, süd məhsullarının qablaşdırılması sahəsində dəyər zənciri yaratmaq mümkündür və bu son nəticədə bazara daha müasir formalı və daha keyfiyyətli məhsul çıxartmağa imkan verər, həmçinin maldarlıqda son məhsuldək emal prosesinin qurulması əlavə iş yerlərinin yaranmasına səbəb olar.



*– Rüstəm müəllim, pandemiya dövrü rayonda fəaliyyətinizə necə təsir etdi, hansı sahələrdə bu daha çox hiss olundu?*

– Bildirmək istəyərəm ki, hər yerdə olduğu kimi Goranboy rayonunda da çətinliklər var. Xüsusən də iaşə obyektlərinin fəaliyyəti dayandırıldığından müəyyən maddi itkilərlə üzləşdilər. Məlum olduğu kimi, dövlətimizin sahibkarlara maddi dəstək proqramı həyata keçirildi. Burada isə əsas çətinlik müəyyən sahibkarların portalda qeydiyyatdan keçməsi ilə bağlı oldu. Amma bu da aradan qaldırıldı. Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq rayon icra hakimiyyəti ilə sıx əməkdaşlıq edərək, sahibkarlara əlimizdən gələn köməyi göstərdik və onlayn sistemdən istifadə ilə bağlı onların məlumatlılığının artırılması istiqamətində birgə çalışdıq.

*– Dövlətin pandemiya ilə əlaqədar karantin tədbirlərindən zərərçəkən sahibkarlara dəstəyindən sahibkarlar yararlana bilirlərmi?*

– Bəli, yuxarıda qeyd etdiyim kimi fəaliyyəti dayandirilmış sahibkarlar dövlət yardımından yararlandılar. Rayonda fəaliyyət göstərən sahibkarların bir çoxu öz vəsaiti heasabına həm dövlətin yaratdığı yardım fonduna, həm də rayonda az təminatlı ailələrə yardımlar etdi. Hər zaman dövlətin onların yanında olduğunu hiss edən sahibkarlar bu çətin gündə birləşərək dövlətimizin yanında olduqlarını bildirdilər. Vurğulamaq istərdim ki, rayon sahibkarlarına Goranboy rayon icra hakimiyyəti tərəfindən də hər zaman diqqət və qayğı göstərilir. ASK olaraq pademiya dövründə rayon icra hakimiyyəti ilə əməkdaşlığımız uğurlu oldu. Sahibkarların qarşılaşdığı çətinliyə kömək etmək istəyimiz hər zaman müsbət qarşılandı. Fürsətdən istifadə edərək, bu əməkdaşlığa görə Goranboy rayon icra başçısı hörmətli Məhərrəm Quliyevə rayon sahibkarları adından minnətdarlığımızı bildiririk.



# Neft-qaz sənayesi pandemiya dövründə

*Ölkəmiz neftin tarixi vətəni sayılır. Orta əsrlərdən bəri müxtəlif tarixçilərin və səyyahların əsərlərində Abşeron yarımadasındakı neft yataqları və hasilatı barədə yazılar vardır. Dənizdən ilk dəfə neft sənaye üsulu ilə məhz Azərbaycan neftçiləri tərəfindən çıxarılıb. Həm Sovet hakimiyyəti, həm də müstəqillik illərində neft-qaz sektoru ölkəmizin iqtisadiyyatının inkişafında böyük rol oynamışdır. Bundan sonra da onilliklər ərzindən bu sahənin inkişafı ölkəmizin iqtisadiyyatı üçün aparıcı rola sahib olacağı gözlənilir. Neft-qaz sektorundan əldə edilən maliyyə vəsaiti xalqımızın rifahı və ölkəmizin qeyri-neft sektorunun inkişafına yönəldilir. 2000-ci illərdən bəri ölkədə fəaliyyət göstərən neft-qaz şirkətləri (xüsusilə SOCAR və BP) tərəfindən böyük miqyaslı sosial və iqtisadi layihələr həyata keçirilmiş və yüksək inkişaf göstəriciləri əldə edilmişdir. Neft-qaz gəlirlərinin böyük hissəsi Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən idarə olunmaqla gələcək nəsillərə saxlanılır. Hazırda, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından əldə olunan gəlirlər Azərbaycanın bütün neft və qaz gəlirlərinin əsas hissəsini təşkil edir.*

2020-ci ildə dünyadakı bir çox sahələrə mənfi təsir etmiş COVID-19 pandemiyası neft-qaz sektoruna da təsirsiz ötüşmədi. Bu pandemiya nəticəsində neft-qaz sahəsində baş verən böhranının dərinliyi və müddəti hələ də qeyri-müəyyən olsa da, ekspertlər hesab edir ki, yaxın bir il ərzində qiymətlərdə cəlbedici göstəricilərə çatmaq çətin olacaqdır. Misal üçün, bu yaxınlarda ABŞ-ın Enerji İnformasiya Agentliyi 2021-ci ilin ikinci yarımilliyinə kimi neftin bir barelinin qiymətinin təqribən 50 ABŞ dollara kimi qalxacağını proqnozlaşdırmışdır.

Mövcud şəraitdə neft və qaz sənayesi intensiv rəqabət, tələbin davamlı azalması, investorlar tərəfindən nağd vəsaitin qoyuluşuna daha ehtiyatla yanaşması və ətraf mühitə, o cümlədən, iqlimə təsirlərlə bağlı dövlət və qeyri-dövlət qurumlarının təzyiqləri ilə davamlı rastlaşdığı yeni dövrə qədəm atmaqdadır. Bu çətinliklərə baxmayaraq, neft və qaz hələ də ən əlverişli və geniş istifadə olunan enerji mənbəyi olmaqla, on illərlə cəlbediciliyini itirməyəcək. McKinsey şirkətinin ehtimallarına görə, neftə olan tələbat 2030-cu illərdə ən yüksək həddə çatacaq və sonra tədricən enməyə başlayacaq.

Hal-hazırda COVID-19 böhranı neft-qaz sənayesində əsaslı dəyişikliklərə səbəb olmuşdur. Belə ki, dünyada baş verənləri izləyərkən görürük ki, neftin hasilatı və kəşfiyyatı sahəsində ixtisaslaşan şirkətlərin birləşməsi astanasındayıq. Yalnız innovativ və yeni qaydalara uyğunlaşa bilən şirkətlər bu böhrandan uğurla çıxa biləcəklər.

**Neft və qaz kimyası, habelə neft emalı sənayesinin böhran zamanı cəlbediciliyi**

Hələ ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəldiyi vaxtda, kimya kompleksinin inkişafı üçün onun tərəfindən yaradılmış zəngin istehsalat bazası əsasında bu gün "Azərikimya" İstehsalat Birliyi ölkə daxilində, eləcə də, xaricində istehlakçıları öz qiymətli məhsulları ilə təchiz edir. Məhz buna görə, əlavə dəyər yaradan neft və qaz kimyası, habelə neft emalı sənayesinə Azərbaycan dövləti tərəfindən istər ölkənin daxilində, istərsə də xaricində vaxtında böyük investisiyalar yatırılmışdır. Buna misal olaraq SOCAR 2008-ci ildə Türkiyənin ən böyük neft-kimya kompleksi olan "Petkim"in 51% hissəsini alaraq Türkiyə bazarına daxil oldu, STAR



layihəsinə sərmayə yatırdı. Ölkə daxilində isə "SOCAR Karbamid", "SOCAR Methanol", "SOCAR Polymer" layihəsi çərçivəsində Polipropilen və Yüksək Sıxlıqlı Polietilen zavodları kimi strateji əhəmiyyətli layihələr həyata keçirməyə başladı. Bundan əlavə SOCAR-ın Heydər Əliyev adına neft emalı zavodunda və Azərikimya İB neft-kimya kompleksində aparılan modernizasiya işləri də dövlət tərəfindən bu sahənin inkişafına yönəltdiyi diqqəti nümayiş edir. Bu layihələr qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətlidir. Eyni zamanda bu layihələr ölkə iqtisadiyyatı üçün əlavə dəyər yaradan layihələrdir.

Hazırda Türkiyədə neft-kimya məhsullarına olan tələbatın 75%-i idxal hesabına təmin edilir və bu məhsullara tələbat hər il 12% artır. "Petkim" şirkətində davam edən müasirləşdirmə işlərindən sonra ölkəyə neft-kimya məhsullarının idxalının 30% azalacağı ehtimal edilir. "Petkim"in əsas xam mal ehtiyacı naftadır və o hazırda "Star" zavodundan təmin edilir. Biz pandemiya dövründə bu startegiyanın nə qədər əhəmiyyətli olduğunun şahidi olduq. Virus ilk olaraq Çində meydana gəldi və bu ölkədə tətbiq edilən sərt karantin rejimi təchizat zəncirində ciddi problemlər yaratdı. Bu səbəbdən bir çox neft-kimya şirkətləri iri istehsalat müəssisələrini xammal ilə vaxtında təchiz edilə bilmədiyinə görə, məhsul istehsalı ciddi şəkildə aşağı düşdü. Nəticədə bəzi şirkətlərin bazar payları əhəmiyyətli dərəcədə azaldı. Lakin "Petkim" öz xammal ehtiyacını birbaşa "Star"dan qarşıladığına görə, pandemiya dövründə öz istehsalını fasiləsiz və daha keyfiyyətli bir şəkildə həyata keçirə bildi. Beləliklə, Petkim bazarda öz payını artıra bildi. Bu isə qardaş Türkiyə dövlətinin iqtisadiyyatına böyük töhfə verilməsi deməkdir.

Ölkə daxilində fəaliyyət göstərən müəssisələrimizdən söz açdıqda qeyd etmək vacibdir ki, "Azərkimya İB" tərəfindən dezinfeksiya vasitələrinin əsas xammallarından olan izopropil spirtinin istehsalına, habelə "SOCAR Polymer" tərəfindən qoruyucu maskaların istehsalında istifadə olunan polimer məhsulunun istehsalına başlandı. Bütün bunlar ölkəmizin neft və qaz kimyası, habelə neft emalı sənayesində "şaquli inteqrasiya" prinsipi əsasında müəssisələrə yatırılan sərmayənin effektivliyinin bariz nümunəsidir. Böhran bir daha təsdiq etdi ki, digər ölkələrdən ucuz xammalın idxalı əvəzinə, daha dayanıqlı təminat zəncirinin qurulması ölkəmizin təhlükəsizliyinin vacib şərtidir.

**Böhranın təbii qaz hasilatına təsiri**

Bərpa olunan enerji mənbələrinə keçid üçün ən çox tələb olunan yanacaq növü təbii qaz hesab edilir. O, kömürə nisbətən ekoloji cəhətdən daha təmiz yanacaq növüdür. Məsələn, bir ton ekvivalentində təbii qazın yanmasından alınan istixana qazının tullantıları kömür ilə müqayisədə 1.7 dəfə, yanacaq yağı ilə müqayisədə 1.4 dəfə daha azdır.

Bununla yanaşı, dünyada təbii qaza tələbatın 2030-cu illərində pik həddinə çatacağı gözlənilir. Uzunmüddətli perspektivdə təbii qaz hasilatı neftin üzləşdiyi eyni təzyiqlərlə rastlaşacaqdır. Ümumilikdə, neft-qaz sənayesi, o cümlədən Azərbaycana məxsus iri neft-qaz və neft-kimya şirkətləri uzunmüddətli strategiyalarında bir sıra dəyişikliklər edirlər.

Əsas tələb ondan ibarətdir ki, neft-qaz bazarında baş verən dəyişiklikləri özündə ehtiva edən kapitalın diversifikasiya edilməsi nəticəsində dayanıqlılığın təmin edilməsi üçün yeni biznes modelləri işlənilməlidir.

Şirkətlər bütün aktivlərini yenidən dəyərləndirməli və ona məxsus kapitalı az mənfəətli şirkətlərdən daha dayanıqlı və gələcəkdə əlavə dəyər yarada biləcək şirkətlərə transfer edilməsi üçün yol xəritəsi hazırlamalıdır.

Uğurlu fəaliyyət göstərərək daha da mütərəqqiləşmək uğrunda mücadilə edən bir sıra şirkətlər gələcəyin enerji texnologiyalarına doğru sürətlə hərəkət etməli və meydana çıxan fürsətlərdən maksimum dərəcədə istifadə etməlidirlər. Belə diversifikasiya nəticəsində enerji şirkətləri kapital bazarında öz etimadlarını doğrulda və gəlirlərini artıra bilərlər.

Beynəlxalq Enerji Agentliyi COVID-19-un qlobal enerji bazarına vurduğu zərərləri qiymətləndirərək hazırladığı hesabatda bildirib ki, 2020-ci ildə qlobal enerjiyə tələbat 6% azalacaq və bu, İkinci Dünya Müharibəsindən bəri ən böyük azalma olacaqdır. 2009-cu ildəki maliyyə böhranı ilə müqayisədə bu rəqəm yeddi dəfə çoxdur.

Enerji tələbatının azalması, əsasən, COVID-19 virusunun yayılmasına qarşı evdən işləmə, nəqliyyatın (hava, dəmir yolu, avtomobil, gəmi və s.) məhdudlaşması və ya müəssisələrin müvəqqəti dayandırılması kimi karantin tədbirləri ilə əlaqədardır. Qismən və tam karantin tətbiq olunduğu ölkələrdə enerjiyə tələbatın həftəlik azalması müvafiq olaraq 17% və 25% olaraq qeydə alınmışdır. Hər bir əlavə karantin ayının tətbiq edilməsi nəticəsində illik qlobal tələbatın 1.5% azalacağı ehtimal edilir.

Elektrik enerjisinin istehlakı 2020-ci ildə 5% azalacaq və bu, Böyük Depressiyadan bəri ən böyük azalma olaraq tarixə keçəcəkdir.

Pandemiya nəticəsində bəzi sahələrin müsbətə doğru inkişaf etməsi də müşahidə olunur. Artıq Avropada aşağı karbon emissiyalı iqtisadi artım və rifah hədəfləri rəhbər tutularaq bioenerji, geotermal, hidroenergetika, okean, günəş və külək enerjisi də daxil olmaqla bərpa olunan enerjinin bütün növlərinin geniş yayılması və davamlı istifadəsi təşviq edilir. Bərpa olunan enerji mənbələri mövcud vəziyyətdən istifadə edərək bu boşluğu aradan qaldırır. Bu işlərin daha da intensivləşməsinə səbəb Almaniya, İspaniya və Böyük Britaniya kimi dövlətlərin karantinlə əlaqədar elektrik enerjisinə tələbin azaldığı dövrdə kömürlə işləyən elektrik stansiyalarının dayandırılması qərarı olmuşdur.

Ekspertlərin rəyinə əsasən, COVID-19 pandemiyasinin yaratdığı böhranın nəticəsində karbon dioksid (CO2) tullantılarının bəşər tarixində ən güclü azalması müşahidə edilir. Hesablamalar göstərir ki, enerji ilə əlaqəli karbon qazı tullantıları 2020-ci ildə demək olar ki, 8% azalaraq on il ərzində ən aşağı səviyyəyə enəcəkdir.



**Cənub Qaz Dəhlizi layihəsi pandemiya dövründə**

Cənub Qaz Dəhlizi layihəsi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” qazkondensat yatağının istismarının ikinci mərhələsi (“Şahdəniz 2”) çərçivəsində hasil ediləcək qazın Türkiyə və Avropaya boru kəmərləri ilə nəqlini həyata keçirəcəkdir.

Azərbaycanın təşəbbüskar olduğu, 6 ölkənin, 11 iri şirkətin iştirakı ilə ərsəyə gələn bu meqa layihənin reallaşdırılması üçün ona inanıb ortaya siyasi iradə qoymaq tələb olunurdu və bunu məhz Azərbaycanın Prezidenti İlham Əliyev etdi.

Pandemiya böhranına baxmayaraq, artıq Şahdəniz 2 layihəsi üzrə görülən işlər 94.7%, Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans Anadolu Boru Kəməri (TANAP) üzrə işlər 100%, TAP üzrə işlər isə 96.4% yerinə yetirilmişdir. Şahdəniz və Trans Adriatik Boru Kəməri (TAP) üzrə işlər operatorlar tərəfindən karantin rejiminin qaydalarına uyğun olaraq davam etdirilməkdədir. Ümumiyyətlə, hər il layihələr üzrə risklər və onların təhlükə dərəcələri qiymətləndirilir və onların aradan qaldırılması üçün zəruri tədbirlər planlaşdırılır və icra edilir.

BP-nin dərc etdiyi hesabata görə (BP Statistical Review of World Energy) ötən il Azərbaycan kommersiya məqsədli təbii qaz hasilatını dünyada ən çox artıran ölkə olub. Belə ki, Azərbaycanın hasilatı 27.7% artaraq illik 24.3 milyard kub metrə çatıb.

Məlumat üçün qeyd edək ki, 2020-ci ilin may ayında Türkiyənin Azərbaycandan təbii qaz idxalı 14.51% artıb, Rusiyadan idxalı isə 62.01% azalıb. Beləliklə də Azərbaycan Türkiyənin ümumi təbii qaz idxalının 33.05%-ni təşkil edərək Türkiyə bazarında lider olub. TANAP boru kəməri istismara verilən tarixdən bu günədək Türkiyəyə təqribən 6 milyard kub metrə yaxın qaz nəql edilib.

Əlbəttə, geosiyasi risklər, xüsusən, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutması Azərbaycanın neft-qaz sənayesini, o cümlədən, Cənub Qaz Dəhlizi layihəsini böyük təhlükəyə atır. Ermənistanın son təxribatlarında məqsədi bu ərazidə sabitliyi pozmaq və Avropa üçün alternativ enerji mənbələrinə və yeni bazarlara çıxmağa imkan yaradan bu əhəmiyyətli layihələrin fəaliyyətinə maneçilik törətməkdir. Neft və qaz dünya miqyaslı xammal növləri olduğundan dolayı, hasilat aparılan və ya bu məhsulların istehlak olduğu yerlərdə nəinki sabitlik təmin edilməli, həm də onların nəqlinin təhlükəsizliyi qorunmalıdır.

Bakı-Ceyhan boru kəməri gündəlik 1.2 milyon barel xam neftin keçiricilik gücünə malikdir və bu, boru kəmərləri üçün təhlükə olduqda qlobal bazarların reaksiya verməsi üçün yetərli bir həcmdir. Bundan əlavə, hər gün 30 milyon kubmetrdən artıq təbii qaz toqquşmaların baş verdiyi Tovuz bölgəsi vasitəsilə Gürcüstan və Türkiyə bazarlarına nəql olunur. İlin sonuna Avropaya təbii qazın çatdırılması bu həcmləri nəzərəçarpacaq dərəcədə artıracaqdır.

Belə ki, Cənub Qaz Dəhlizinin tikintisinin yekunlaşması istiqamətində həlledici mərhələ bu ilin sonuna qədər Azərbaycan qazının artıq Avropaya çatdırılması olacaqdır. TAP boru kəmərində son qaynaq işləri yekunlaşıb. Bu o deməkdir ki, TANAP boru kəmərinə qoşulan hissədən İtaliyadakı qəbul terminalınadək 878 kilometrlik boru kəməri artıq birləşmişdir. Ötən ay TAP-ın Adriatik dənizindən keçən 105 kilometrlik hissəsinin inşası müvəffəqiyyətlə tamamlandı. COVID-19 pandemiyası nəzərə alınaraq, TAP və onun podratçıları bütün əməkdaşların sağlamlığı və təhlükəsizliyini qorumaq məqsədilə geniş tədbirlər həyata keçirmişdir.

Ümumiyyətlə, COVID-19 pandemiyasının bütün dünyaya zərbə vurması və nəticədə bir çox ölkənin özünütəcrid siyasəti yürütdüyü sirr deyil. Bütün bunlar qeyri-müəyyən vəziyyətin yaranmasına səbəb olub. Belə bir şəraitdə, təbii ki, dünyada iqtisadi fəallıq azalıb və bütün qlobal sahələrdə şok effekti yaranıb. Bütün bunların fonunda Cənub Qaz Dəhlizi layihəsinin bütün həlqələrində layihə operatorları tərəfindən həyata keçirilən zəruri qabaqlayıcı tədbirlər nəticəsində inşaatın son tamamlama işlərinin uğurla və fasiləsiz davam etdirilməsi, həqiqətən, qürurvericidir.

Lakin, COVID-19 nəticəsində təbii-qaz və kondensatın dünya bazar qiymətlərinin aşağı düşməsi Layihə şirkətlərinin maliyyə axınının müvəqqəti olaraq azalmasına gətirib çıxarmışdır. Layihə üzrə təbii qazın hasilatının və nəqlinin plato dövrü öncədən 2022-ci ilə planlaşdırılmışdır və neft-qaz sahəsində nüfuzlu bazar araşdırması şirkətləri neftin və təbii qazın qiymətlərinin həmin dövrə yenidən yuxarı həddə olmasını proqnoz edir. Buna baxmayaraq, dayanıqlı maliyyə modellərinin müxtəlif ssenarilər əsasında hazırlanması bizə deməyə əsas verir ki, "Cənub Qaz Dəhlizi" QSC beynəlxalq maliyyə institutları qarşısında olan maliyyə öhdəliklərini vaxtında və tam olaraq icra edə biləcəkdir.

Vurğulamaq vacibdir ki, layihənin gəlirləri tək təbii qazın satışından deyil, həmçinin xam neftə bərabər olan kondensatın satışından əldə edilir. Həmçinin, pandemiya nəticəsində bütün dünyada təbii qazın qiymətlərinin aşağı düşməsinə baxmayaraq, "Cənub Qaz Dəhlizi" QSC CQBK, TANAP və TAP layihələri üzərindən səhmlərinə mütənasib olaraq təbii qazın daşınmasından əldə etdiyi mənfəət Cənub Qaz Dəhlizi layihəsinin 4 halqasının birlikdə cəlbediciliyini əks etdirir.

Əminik ki, Cənub Qaz Dəhlizi layihəsinin axırıncı seqmentinin açılışı bu ilin sonunda baş tutacaq və biz gələcəkdə Avropaya əlavə 10 milyard kubmetr təbii qazın verilməsi üçün layihənin genişlənməsinin iqtisadi və siyasi aspektləri mövzusu ilə oxucularımızı tanış etməyə davam edəcəyik.

*Rəşad Mustafayev*






# TURİZM SEKTORUNDA RİSK

## Burada çalışan 100 milyona yaxın iş yeri təhlükə altındadır

Koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə atılan preventiv addımların bir parçası kimi ölkələr sərhədlərini bağlamaq məcburiyyətində qaldı. Tətbiq olunan səyahət məhdudiyyətləri səbəbindən COVID-19 pandemiyası turizm sənayesinə əhəmiyyətli dərəcədə təsir göstərmiş oldu.

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı sərhədlərin bağlanması və tələbin azalması səbəbindən qlobal beynəlxalq turist səfərləri 2020-ci ildə 20-30% azalaraq turizm sektorunda 30-50 milyard ABŞ dolları dəyərində zərərə səbəb ola biləcəyini təxmin etmişdir. Beynəlxalq Əmək Təşkilatının açıqlamalarına görə, pandemiya 2020-ci ilin sonuna qədər davam edərsə dünyada təqribən daha 25 milyon insan işsiz qala bilər ki, bunun müəyyən hissəsinin turizm sektorunda çalışanların təşkil edəcəyini proqnoz etmək olar.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə əksər ölkələrin sərhədlərinin bağlaması və daxili hərəkət məhdudiyyətinin tətbiq olunması turizm sektorunun əsas hissəsini təşkil edən aviaşirkətlərə də çox ciddi təsir edəcəkdir. Belə ki, “Moody’s” beynəlxalq kredit reytinq agentliyinin açıqlamasına əsasən, aviasiya sənayesi koronavirus (COVID-19) pandemiyasının təsirindən 2023-cü ildən tez çıxa bilməyəcək və bərpa olunmayacaq . Bütün dünyada aviaşirkətlərin ümumi gəlirinin 113 milyard dollara yaxın azalacağı gözləndiyindən Kanadanın “Air Canada”, Britaniyanın “British Airways”, Norveçin “Norwegian Air”, ABŞ-ın “Delta Air Lines” kimi aviaşirkətləri ümumilikdə 82.000-ə yaxın əməkdaşının işdən uzaqlaşdıracağı bildirilir . Bu fakt Dayanıqlı İnkişaf Məqsədlərinin və digər məqsədlərin icrasını ləngidir.

Ümumdünya Səyahət və Turizm Konsulluğunun məlumatına görə 2020-ci ildə turizm sektorunda 25% kiçilmə gözlənilir. Eyni zamanda, pandemiya səbəbindən turizm sektorunda çalışan 100 milyona yaxın iş yeri risk altındadır. Bunun 63 milyonunu Asiya, 13 milyonu Avropa, 15 milyonunu Amerika və yerdə qalanının isə digər qitələrin payına düşəcəyi təxmin edilir.

BMT-nin Ümumdünya Turizm Təşkilatı “Turizm və səyahət vasitəsilə iş yerlərinin və iqtisadiyyatın dəstəklənməsi” adlı tövsiyələr hazırlamışdır. Ümumdünya Turizm Təşkilatı tərəfindən tövsiyələrin hazırlanmasına əsas səbəb kimi, pandemiyanın ən böyük təsirə məruz qoyduğu turizm sektorunda fövqəladə vəziyyətdən dərhal sonra iş yerlərini qorumaq və bazarda potensialı təmin etmək üçün təcili dəstək paketlərinə ehtiyacın yarandığı göstərilir.

Sənədə əsasən rəqəmsal bacarıqların inkişaf etdirilməsinin təşviqi məqsədəuyğun hesab edilir. Belə ki, marketinq, bazar araşdırması və ümumiyyətlə rəqəmsal bacarıqlar daxil olmaqla yeni bacarıqların inkişafı, iqtisadi cəhətdən ən çox zərər çəkmiş şəxslər üçün pulsuz onlayn təlimlərin keçirilməsi, Ümumdünya Turizm Təşkilatının onlayn Akademiyası kimi beynəlxalq təşkilatların ödənişsiz təşviqi tövsiyə olunur.

Eyni zamanda sənəddə ba-

carıqların inkişaf etdirilməsinin, xüsusən də turizm sahəsi üzrə işsizlər üçün rəqəmsal bacarıqlar üzrə xüsusi proqramların yaradılmasının, turizm üzrə məşğulluq yarmarkalarının və onlayn platformaların inkişaf etdirilməsinin, ixtisasartırma və yenidən ixtisaslaşma üzrə təlim proqramlarının hazırlanmasının əhəmiyyəti vurğulanır. Gələcək innovativ və rəqəmsal transformasiyanının inkişafına kömək məqsədilə, xüsusi proqramların yaradılması, turizm və qonaqlama sektorunda qısa təchizat zəncirlərinin təşviqi, daha inkluziv və şaxələndirilmiş yerli tədarük zəncirinin yaradılmasına ehtiyac vardır.

Ümumdünya Turizm Təşkilatı tərəfindən daxili turizm bazarı kimi daha tez geriləmə meyli olan bazarlar və seqmentlər üçün xüsusi tədbirlərin müəyyənləşdiririlməsinin, eləcə də pandemiyadan sonrakı mərhələdə daxili turizmə tələbatın artacağını nəzərə alaraq milli iqtisadiyyatın yenidən formalaşdırılması üçün daxili turizmin təşviq edilməsinin əhəmiyyəti vurğulanır. Bunu həyata keçirmək üçün isə bazar araşdırması aparılmalı, daxili səyahətləri asanlaşdıracaq və qalma müddətini artıracaq planlar olmalıdır. Buraya daha çox rəqabətədavamlı qiymətlər, xüsusi təşviqat və ya işəgötürənlər tərəfindən turizmə çox güvənən istiqamətlərə səyahət təşviqləri daxil ola bilər.

Tövsiyədə, məqsədli və davamlı gəliri təmin etmək üçün rəqəmsal marketinqə investisiya qoyuluşunun, yerli iqtisadiyyata töhfə verəcək mədəni irsi, təbii sərvətləri qoruyacaq məlumatı və məsuliyyətli səyahətlərin təşviqi kampaniyalarının keçirilməsinin əhəmiyyəti öz əksini tapmışdır.

Mövcud vəziyyətlə əlaqədar olaraq, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq ölkəmizdə atılmış preventiv addımlar nəticəsində hava və quru sərhədləri bağlandı, ölkədaxili hərəkət məhdudiyyətləri tətbiq olundu. Tətbiq olunan məhdudiyyətlərə baxmayaraq, ölkəmizin turizm sektoruna təsirlərinə gəldikdə ötən il ərzində Azərbaycanda ümumi daxili məhsul əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 81,7 milyard manata çatmışdır. Bunun 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə müəssisələrinin payına düşür . Hazırki karantin vəziyyəti ilə əlaqədar turizm sektorunun ölkəmizin Ümumi Daxili Məhsulunda payı azalacaqdır.



Ölkəmizin turizm sektorunun dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Belə ki, pandemiyadan zərər çəkmiş iqtisadi fəaliyyət sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işçilərinin rəsmi əmək haqqı və sosial sığorta ödəmələrinin dövlət tərəfindən aprel və may aylarında kompensasiya edilməsi, Fərdi (mikro) sahibkarlara maliyyə yardımı dəstək proqramı dedikdə pandemiyadan zərər çəkmiş iqtisadi fəaliyyət sahəsində çalışan mikro və fərdi sahibkarlara minimum 250 AZN, maksimum 5000 AZN yardımın edilməsi, pandemiyadan zərər çəkmiş iqtisadi sahələrə, o cümlədən, yerləşdirmə (hotel), səyahət agentlikləri və turoperator fəaliyyəti ilə məşğul olan sahibkarlara vergilər üzrə güzəşt və azadolmalar, tətillərin verilməsi kimi dəstək mexanizmləri həyata keçirilmişdir. Bununla əlaqədar olaraq, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə, əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştləri verilmişdir.

Həmçinin, pandemiyadan sonrakı dövr üçün turistlər arasında aviadaşıyıcılar vasitəsilə səyahətə skeptik yanaşılacağını eyni zamanda, preventiv tədbirlər səbəbindən biletlərin qiymətinin artacağını nəzərə alaraq, yerüstü və fərdi nəqliyyat vasitələri ilə qonşu ölkələrə, eləcə də qonşu ölkələrdən Azərbaycana turist səfərlərinin baş tuta biləcəyi gözlənilir. Bu səbəbdən, ölkəmizin əsas təşəbbüsçüsü və icraçısı olduğu Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə sərnişin daşınmasının təşkili əhəmiyyətli rol ala bilər.

Eyni zamanda, post-pandemiya dövründə Türk Şurasına üzv dövlətlər arasında mövcud iqtisadi artım tempini turizm üzrə qarşılıqlı əlaqələrin gücləndirilməsi hesabına artırmaq imkanı yaranmışdır. Belə ki, Xəzər dənizi vasitəsilə birgə kruiz səfərlərinin təşkilinin, bununla yanaşı, ipək yolu boyunca üzv dövlətlərin mədəni və tarixi irsinin öyrənilməsi məqsədilə “Türk Şurasının Müasir İpək Yolu Birgə Tur Paketi” turizm layihəsinin daha effektiv həyata keçirilməsinin əhəmiyyəti artmışdır. Gələcəkdə Türk dövlətləri arasında turist səfərlərinin canlandırılması məqsədilə aviabiletlərin qiymətlərinə yenidən baxılması və innovativ texnologiyalar vasitəsilə birgə marketinq strategiyasının işlənib hazırlanması da önəmlidir. Nəzərə almaq lazımdır ki, böhran böyük çətinliklərlə bərabər böyük fürsətlər gətirir. Təsadüfi deyildir ki, çin dilində böhran sözünə uyğun ieroqliflərin düzülüşünün ikinci mənası fürsətdir.

**Ehtiram Müslümov**



# DƏYİŞİKLİKLƏR DÖVRÜ, DƏRKETMƏ KAPİTALI, TƏHSİLİN ROLU

**Dəyişikliklər dövrü! Biz bu söz birləşməsini çox eşitməklə bərabər bu dövrü birlikdə yaşayırıq. Dəyişikliklər dövrü nədir və bizə nə vəd edir? Biz nəyə hazır olmalıyıq? Bu dövrü idarə etmək və uğur qazanmaq üçün hansı bilik və bacarıqlara sahib olmalıyıq?**

Qısa bir məqalədə dərin bir mövzunu əhatə etmək çətin olsada bəzi maraqlı məqamlara toxunmaq mümkündür. Müasir texnoloqiyaların gətirdiyi dəyişiklər dövrü – yüksək sürət, daim hərəkətdə olmaq, qeyri müəyyənliyin çox olması, qeyri xətt üzərində hərəkət etməsi, əldə olunan biliklərin və bacarıqların tez köhnəlməsi, əmək bazarının, sosial və iqtisadi münasibətlərin dəyişilməsi ilə müşahidə olunur. Bu dövr bizim gözləntilərimizə və hazırlığımıza görə yox, texnoloqiyaların gətirdiyi qanunauyğunluqlara görə davam edir.

Dəyişikliklər dövrünü idarə etmək və bu dövrdə uğur qazanmaq üçün biz hansı bilik və bacarıqlara malik olmalıyıq? Davosda keçirilən Dünya İqtisadi Forumunda yaxın




AFƏR KƏRİMOV

*Təhsil Siyasəti üzrə magistr*


10 ildə dəyişikliklərin formalaşdırdığı əmək bazarında mövqe tutmaq üçün 4 əsas bacarıqların vacibliyini vurğulayıblar, buna 4 K (yumuşaq bacarıqlar) da deyilir: kritik düşüncə, kreativlik, kommunikasiya və kooperasiya.

Dünyaca ünlü biznes təlimçisi İsxak Adizes dəyişikliklər dövrünü idarə etmək və cəmiyytin bu dövrdə uğur qazanması üçün daha 3 resursun olmasının vacibliyini vurğulayır: etibarlılıq, özünəinam və israr (həvəsdən düşməmək)

Bü bilik və bacarıqları, qeyd olunan içtimai resursları əldə etmək üçün cəmiyyətlər intellektual sıçrayış etməlidirlər və bunu üçün çalışırlar. O cümlədən bizim ölkəmizdə də o işlərə və islahatlara start verilib. İntellektual sıçrayışın mənbəyi əldə olunan təhsil imkanlarının məzmunu və keyfiyyətindən asılıdır. Məhz bu baxımdan, dünyanın bütün aparıcı ölkələrində təhsil sektorunda islahatlar aparılır, bilik və bacarıqların sürətlə köhnələn bir dövründə yeni biliklərin əlçatan olması, onlardan

daha çox insanların faydalanması istiqamətində işlər gedir.

Yeni bilik və bacarıqların əldə olunması nəyə görə aktualdır? Dəyişikliklər dövründə yeni ixtisasların yaranması, bir çox ixtisasların avtomatlaşdırılması, yeni tip idarəetmənin formalaşması sosial iqtisadi münasibətləri dəyişməklə, yeni imkanları yaratmaqla bərabər müyyən neqativ tendensiyalar da gətirir. Bunlardan ən çox gözə dəyəni dünya səviyyəsində əmək bazarında olan münasibətlərin dəyişməsi və işsizliyin artmasıdır. Bu baxımdan, biz hər birimiz yeni biliklər qazanmaq, onları yaratmaq və öyrədilməsi üçün məsuliyyət daşıyırıq.

Təhsil sistemlərində islahatlar, böyük layihələrin icra olunması - dəyişiklik dövrünün tələbidir. Çünkü təhsil sistemi ənənəvi və öyrəşdiyimiz "bilikləri ötürmək" funksiyasını tədricən itirməklə bərabər daha çox cəmiyyətdə gedən sosial iqtisadi dəyişikliklərin əsas mexanizminə çevrilir, təhsil alanları yeni bilik və bacarıqlarla "silahlandırır". Eyni zamanda bu islahatlar yuxarıda da qeyd etdiyimiz kimi, dəyişikliklərin gətirdiyi neqativ nəticələri vaxtında müəyyən edərək onların aradan qaldırılmasına xidmət edir. Yeni biliklər və bacarıqlar ölkələrin inkişafında daha çox rol oynamaya başlayır və aparılan islahatlar bu sahədə düzgün strateqiyanın müəyyən olunmasına xidmət edir.

Niyə öyrədirik? Nə öyrədirik? Necə öyrədirik? Bu aparılan islahatların əsas açar suallarıdır. Bu suallar təhsil strateqiyasını, məzmununu və metodologiyasını müəyyən edir

> "Təhsil sistemi ənənəvi və öyrəşdiyimiz "bilikləri ötürmək" funksiyasını tədricən itirməklə bərabər daha çox cəmiyyətdə gedən sosial iqtisadi dəyişikliklərin əsas mexanizminə çevrilir, təhsil alanları yeni bilik və bacarıqlarla "silahlandırır".

Burada yeni bir sual yaranır: tədrisin məzmunu, mövcud metodologiya, məktəblərin və valideynlərin hazırlığı və onların təhsil sistemlərindən gözləntiləri, əməkdaşlıq etmək həvəsi və imkanları bu bacarıqları formalaşdırmağa şərait yaradırmı?

Bu gün məktəb şagirdlərə və tələbələrə yaxın perspektivdə uğur qazanmağa kömək edir. Məsələn, illik qiymətlərin yaxşı olması, olimpiyadada yaxşı nəticə göstərmək, ali məktəbə qəbul olmaq üçün yaxşı bal toplamaq və diplom almaq. Onların uzun müddətli perspektivlərdə uğur qazanmalarını nə təmin edə bilirik nədə ki, ölçə bilirik. Məsələn, əmək bazarında fəaliyyət göstərən işə götürən şirkətlər ali məktəblərin məzunlarının sadə biznes əməliyyatlarının apara bilməməsi, onlarda danışıqlar aparmaq bacarıqlarının olmaması, özünü təqdim etmə və iş yeri tapmaq üçün məlumatlarla işləmək bacarıqlarının zəif olması, şəxsi karyera ilə bağlı planlarının olmaması ilə bağlı haqlı şikayətlər edirlər.

2000 ci ildən başlayaraq dünya ölkələrində beynəlxalq PİSA (Programme for International Student Assessment) testi – monitorinqi aparılır. Sadə dildə desək – bu testlərin əsas məqsədi şagirdlərin əldə etdiyi funksional biliklərin praktikada tətbiq etmə imkanlarını, bu biliklərin onlar tərəfindən dərk edilməsini və bu biliklərlə müxtəlif gündəlik problemlərini həll etmək bacarıqlarını ölçməkdir. PİSA müəllifləri monitorinq aparılan ölkələrin sosial iqtisadi inkişafının məhz şagirdlər tərəfindən alınan biliklərin dərkedilməsindən asılı olmasını vurğulayırlar.

Biliklərin dərk edilməsi və onların tətbiqi Dərketmə Kapitalı kimi artıq istifadə olunur və geniş



məna daşıyan İnsan Kapitalının sinoniminə çevrilib.

Şagirdlərimizdə Dərketmə Kapitalının artırılması, əldə olunan funksional biliklərin tətbiqi üçün hansı işlər görülməlidir? Qeyd edək ki, bizim əldə olunan biliklərin və informasiyaların tətbiqi ilə bağlı problemlərimiz daha erkən yaşlarda, uşaq bağçalarında başlayır (bununla bağlı ayrıca qısa araşdırma aparmağa ehtiyac var)

Şagirdləri əldə olunan biliklərin dərk edilməsi və praktiki tətbiqinin öyrənilməsinə dair araşdırmalar 20 əsrin əvvəllərində amerikalı pedaqoq Djon Dyui və rusiyalı pedaqoq Lev Viqotski ayrı ayrı vaxtlarda aparıblar. Finlyandiya təhsilin uğurlarında Lev Viqotskinin təcrübəsindən çox istifadə olunub. Bunu Finlyandiyada təhsil sisteminin islahatlarının əsas fiqurlarından biri Harvard Universitetinin Professoru Pasi Salsberq öz müsahibəsində açıqlayıb.

Dyui və Viqotskinin Dərketmə Kapitalının formalaşdırdığı məktəblər fəaliyyət məktəbləri adlanır. Bu məktəblərdə şagirdlər biliklərə müxtəlif treninqlər nəticəsində yiyələirlər. Bunun nəticəsində onlar daha müstəqil fəaliyyət qura bilir, öz səhvlərini düzəltmək imkanları əldə edirlər, onların yaradıcılığı və komandada işləmək bacarıqları artır, yeni biliklərə yiyələnməkdən qorxmurlar və buna müqavimət göstərmirlər, yeni bilikləri əldə etmək imkanlarını müəyyən edə bilirlər, sosial məsələlərin və sosial layihələrin həllində aktiv iştirak edirlər və ən əsası onlarda Özünəinam, Etibarlılıq və İradəli olmaq xüsusiyyəti artır. Bu özünü dəyişmək fəlsəfəsidir və dəyişiklilər dövrünün əsas resursudur.

Nəyə görə fəaliyyət yönümlü məktəb bu gün daha çox vacibdir? Dünyada biliklərin və məlumatların həcmi o qədər artır ki, bu bilikləri yadda saxlamaq və ənənəvi qaydada şagirdlərə ötürmək çətin, vaxt baxımından mümkünsüz və az faydalıdır. Təhsil verənlər və Təhsil alanlar birgə fəaliyyət nəticəsində lazım olan bilikləri əldə etməyi bacarmalıdır.



> Dəyişikliklər dövründə yeni ixtisasların yaranması, bir çox ixtisasların avtomatlaşdırılması, yeni tip idarəetmənin formalaşması sosial iqtisadi münasibətləri dəyişməklə bərabər müyyən neqativ tendensiyalar da gətirir.

Ölkəmizdə də artıq bu istiqamətdə işlərə başlanılıb. Azərbaycan Məktəblərində Dərketmə Kapitalının formalaşmasına yönələn STEAM layihəsi icra olunur və biz inanarıq ki, bu layihələr bizim şagirdlərin inkişaf etməsində və onların yaxın gələcəkdə bu layihələrdən əldə etdikləri bilik və bacarıqlarla ölkəmizin sosial iqtisadi inkişafında öz töhfələrini verəcəklər.

Bu sahədə daha hansı işləri görə bilərik? Düşünürük ki, 2 istiqamətdə işlərin sürətləndirilməsi qeyd olunan bilik və bacarıqların artmasına kömək edə bilər. Bunlardan biri, son dövrlər dünyada əsas sosial iqtisadi inkişaf resursuna çevrilən peşə təhsilinin imkanlarını və orta məktəblərin təcrübələrinin inteqrasiyası, digəri isə orta məktəblərdə tədris olunan fənlərin kəsişməsindən yarana biləcək yeni biliklərin və bacarıqların mənimsənilməsidir.

Orta məktəb ərazisində şagirdlərlə birgə kiçik bir bağın salınmasında müxtəlif fənlərdən olan biliklərin Dərk Edilməsində çox kömək edə bilər. Məsələn, riyaziyyat fənnindən (əkilən sahənin ölçülməsi və hesablanması), fizikadan (əkin vaxtı mexaniki hərəkətlərin öyrənilməsi), tarixdən (əkilən bitkilərin tarixnin öyrənilməsi), kimyadan (torpağın sadə yolla analizi), biologiyadan (bitkinin strukturu), ədəbiyyatdan (bu bitki ilə bağlı şifahi xalq ədəbiyyatı nümünələri), coğrafiyadan (əkin sahəsinin müəyyən olunması) biliklər şagirdlər tərəfindən daha tez dərk olunar.

İnanırıq ki, bu təhsil formatında olan ünsiyyət və birgə fəaliyyət bizə yaratmağa və inkişaf etməyə imkan verəcək. Bu istiqamətdə çalışan bütün maraqlı tərəflərə və Ölkəmizə Uğurlar arzulayırıq!



# "Bir kəmər, bir yol" layihəsi:

# "İpək Yolu İqtisadi Kəməri" və "21-ci əsr Dəniz İpək Yolu"

Bir kəmər bir yol layihəsinin əsas məqsədi tarixi İpək Yolu marşrutu boyunca infrastrukturun inkişafı və ölkələrin iqtisadi inteqrasiyasının sürətləndirilməsini hədəfləyən trans-kontinental uzunmüddətli siyasət və investisiyanı formalaşdırmaqdır. Başqa sözlə, tarixi ipək yolunun bərpasının əsas məqsədi Asiya, Avropa və Afrika qitələrinin və onlara bitişik dənizlərin əlaqəsini təşviq etməyə, bir kəmər bir yol boyunca ölkələr və dövlətlər arasında tərəfdaşlıq əlaqələrini formalaşdırmaq və daha da gücləndirmək, hər ölçüdə və xüsusilə çox şaxəli kompozit bağlantı şəbəkələri qurmaq və formalaşdırmaqdır.

Hazırda tarixi ipək yolunun bərpasına yönəlmiş təşəbbüsə Azərbaycan Respublikası da daxil olmaqda 70-dən çox ölkə qoşulmuşdur ki, bu dünya əhalisinin 65 faizini və ya dünya Ümumi Daxili Məhsulunun üçdə birini əhatə edir.

Bir kəmər bir yol layihəsi iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "21-ci əsr Dəniz İpək Yolunu".



ELNUR İBRAHİMOV




Mənbə: Bir kəmər bir yol təşəbbüsünün rəsmi internet səhifəsi (BRI)



Bir kəmər bir yol təşəbbüsünün məqsədi birbaşa layihəyə qoşulan ölkələr arasında millətlərarası və ya regional əməkdaşlığın inkişaf etdirilməsi üçün inkişaf planlarının və tədbirlərin birgə tərtib edilməsini təşviq etməkdir. Bu məqsədin icra mexanizmi layihənin beş əsas planı əsasında formalaşdırılır ki, bu beşliyin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyindəki çağırışlarla birbaşa əlaqəsi vardır. Beşliyi Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi ilə Bir Kəmər Bir Yolun əsas başlanğıc nöqtəsi kimi qeyd etmək olar (Breakeven point). Beşlik çətiri altında formalaşdırılan əlaqələr birbaşa Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin beşliyə müvafiq məqsədinin icrasına təkan verir və ya icrasının sürətləndirir.

*Bir Kəmər Bir Yolun layihəsi beş əsas əməkdaşlıq prioritetinə əsaslanır:*

1. *Siyasətlərin əlaqəndirilməsi* – əsasən hökumətlərarası əməkdaşlığın təşviqi, çoxşaxəli hökumətlərarası makro siyasətin mübadiləsi və rabitə mexanizminin qurulmasını nəzərdə tutur.
2. *Əlaqələrin asanlaşdırılması* – əsas məqsədi infrastruktur inşaat planlarının və texniki standartlar sistemlərinin əlaqəsinin yaxşılaşdırılmasıdır.
3. *Maneəsiz ticarət* – əsas məqsədi investisiya və ticarət maneələrinin azaldılması, regional iqtisadi inteqrasiyanın təşviqinin artırılmasıdır.
4. *Maliyyə inteqrasiyası* – əsasən pul siyasətin dolğun formalaşdırılmasında əlaqələrin və əməkdaşlığın və eyni zamanda maliyyələşdirmə institutlarının qurulmasına dəstəyin göstərilməsidir.
5. *İnsanlar arasında birbaşa əlaqə* – milli, mədəni və elmi (akademik) istiqamətlərdə mübadilənin və media əməkdaşlığının gücləndirilməsinə yönəlmişdir.

## Bir Kəmər Bir Yol layihəsinin Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi ilə əlaqəsi

Birləşmiş Millətlər Təşkilatının "Minilliyin İnkişaf Məqsədləri" Bəyannaməsinin davamı olaraq BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri (DİMlər) hər kəsi əhatə edən və universal xarakter daşımaqla yanaşı "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq, yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq kimi məqsədləri özündə ehtiva edir. Azərbaycan Respublikası da daxil olmaqla BMT-nin 193 ölkəsi tərəfindən qəbul edilən sənəd 17 məqsədi, 169 hədəfi və 244 göstəricini özündə birləşdirir.

## Dayanıqlı İnkişaf Məqsədləri

Heç kimin geridə qalmaması prinsipi üzərində dayanan bu məqsəd və hədəflər



- insanlıq naminə bütün formalarda və ölçülərdə yoxsulluğa, aclığa son qoymaq, insanların ləyaqətlə və bərabər şəkildə sağlam mühitdə öz potensiallarından istifadə etməsini;
- planet naminə dayanıqlı istehlak və istehsal, təbii ehtiyatların dayanıqlı şəkildə idarə olunması və iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz tədbirlər görməklə, planetimizi korlanmadan qoruyaraq indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi;
- tərəqqi naminə bütün insanların firavan və xoşbəxt həyat yaşamasını, iqtisadi, sosial və texniki tərəqqinin təbiətlə ahəngdarlığının təmin edilməsini; -sülh naminə qorxu və zorakılıqdan azad olan dinc, ədalətli və ayrı-seçkiliyə yol verilməyən cəmiyyətlərin dəstəklənməsi;
- tərəqqi naminə gücləndirilmiş qlobal həmrəylik ruhunda, ən yoxsul və ən zəiflərin ehtiyaclarına ayrıca diqqət yetirərək bütün ölkələrin, maraqlı tərəflərin və insanların iştirakı ilə dayanıqlı inkişaf üçün qlobal tərəfdaşlığın yenidən canlandırılması və tələb olunan vasitələrin səfərbər edilməsini nəzərdə tutur.

**Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına Bir kəmər Bir yol layihəsi necə və hansı formada təsir edir..?**

İlk növbədə ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına yönəlmiş Dayanıqlı İnkişaf Məqsədlərinin 2030 Gündəliyinin icrası şübhəsiz ki, böyük həcmdə xərc tələb etdiyini nəzərə alaraq yüksək gəlirli iri miqyaslı layihələrin vacibliyini ön plana çıxır.

Bir Kəmər Bir Yol layihəsi əlaqələrin qurulması və gücləndirilməsi istiqamətində əsas beşlik prioritetləri Dayanıqlı İnkişaf Məqsədlərinin doqquz məqsədinə birbaşa təsir edir.

Bir Kəmər Bir Yol layihəsindən irəli gələn Siyasətlərin əlaqəndirilməsi prioriteti Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin 17-ci məqsədinin icrasına birbaşa müsbət təsir edir ki, 17-ci məqsəd Dayanıqlı inkişaf naminə qlobal əməkdaşlığı canlandırmaq və gücləndirməyi özündə ehtiva edir. Bir Kəmər Bir Yol layihəsinin icrası istiqamətində formalaşdırılan Əlaqələrin asanlaşdırılması prioriteti 17 məqsəddən 4-ünə birbaşa təsir edir (Məqsəd 8: Davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etmək; Məqsəd 9: Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyalara dəstək vermək; Məqsəd 11: Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək; Məqsəd 17: Dayanıqlı inkişaf naminə qlobal əməkdaşlığı canlandırmaq və gücləndirmək.)

Maneəsiz ticarət prioriteti birbaşa davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etməyə (Məqsəd 8), möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyalara dəstək verməyə (Məqsəd 9) və eyni zamanda tərəfdaşlığın gücləndirilməsinə (Məqsəd 17) müsbət təsir göstərir.

İnsanlar arasında əlaqələrin gücləndirilməsi prioriteti hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləməyə (Məqsəd 4) və eyni zamanda davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etməyə (Məqsəd 8) təsiri əvəzedilməzdir.

Xüsusilə Bir Kəmər Bir Yol layihəsinə qoşulan ölkələr arasında maliyyə inteqrasiyası prioriteti həmin ölkələrdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə 2030 Gündəliyindən irəli gələn yoxsulluğun bütün formalarına hər yerdə son qoymaq, şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək, yer ekosistemlərini mühafizə və bərpa etmək və onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqredasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq və eyni zamanda dayanıqlı inkişaf naminə qlobal əməkdaşlığı canlandırmaq və gücləndirmək kimi məqsədlərinin icrasını müsbət istiqamətdə sürətləndirəcəyini nəzərdə tutulmuşdur.

| KƏMƏR VƏ YOL PRİORİTETLƏRİ | DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ |
| --- | --- |
| Siyasətlərin Əlaqələndirilməsi | 17 Məqsədlər üçün tərəfdaşlıq |
| Əlaqələrin asanlaşdırılması | 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur; 11 Dayanıqlı şəhərlər və icmalar; 17 Məqsədlər üçün tərəfdaşlıq |
| Maneəsiz ticarət | 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur; 17 Məqsədlər üçün tərəfdaşlıq |
| İnsanlar arasında birbaşa əlaqə | 4 Keyfiyyətli təhsil; 8 Layiqli əmək və iqtisadi artım |
| Maliyyə İnteqrasiyası | 1 Yoxsulluğa son; 11 Dayanıqlı şəhərlər və icmalar; 13 İqlim dəyişikliyinə qarşı mübarizə; 15 Torpaq ekosisteminin mühafizəsi; 17 Məqsədlər üçün tərəfdaşlıq |

# Taxıl OPEK-i ideyası və Azərbaycandan keçən nəql yolları

**Azərbaycanda payızlıq bitkilərin yığımına iyunun əvvəlində başlanılıb və bu mövsümdə quraqlığın çox olması bəzi dənli bitkilər üzrə proqnozlaşdırılan yüksək məhsuldarlığı götürməyə imkan verməsə də, ümumi məhsuldarlığın səviyyəsi qənaətbəxşdir.**

## RƏQƏMLƏR NƏYİ GÖSTƏRİR?

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, avqustun 10-da Azərbaycanda taxıl yığımı 2 milyon 903,6 min ton, məhsuldarlığı isə hər hektardan 30,7 sentner təşkil edib.

Dövlət Statistika Komitəsinin saytında dərc edilmiş məlumatlara görə, 944,4 min hektarda taxıl biçini aparılıb ki, bu da taxıl əkin sahələrinin 97,6%-ni əhatə edir.

Məlumata görə, 10 avqust tarixinə 2 milyon 903,6 min ton məhsul, o cümlədən 1 milyon 860,2 min ton buğda, 1 milyon 18.7 min ton arpa, 24.7 min ton - digər dənli bitkilər toplanıb.

Şəki rayonunda 199,9 min ton taxıl, Cəlilabadda 176,6 min ton, Kürdəmirdə 128 min ton, Neftçalada 123.8 min ton, Füzulidə 118 min ton, Ağsuda 113.7 min ton, Ağcabədidə - 105,5 min ton, Naxçıvan Muxtar Respublikasında - 118 min ton məhsul götürülüb.

“Ölkənin 30 bölgəsində, eləcə də Naxçıvan Muxtar Respublikasında taxıl yığımı artıq başa çatmışdır”, - deyə statistika idarəsi vurğulayır.

Statistikaya əsasən, hər hektardan məhsuldarlıq Bərdə rayonunda 44,1 sentner, Saatlıda - 41,6 sentner, Sabirabadda - 41.3 sentner, Samuxda - 40.1 sentner, Ağdamda - 40.1 sentner, Tərtərdə - 39.6 sentner , Salyanda - 39,6 sentner, İmişlidə - 39,1 sentner, Tovuzda - 38,4 sentner, Ağcabədidə - 37,2 sentner olub.

Xatırladaq ki, 2019-cu ildə Azərbaycanda 3,5 milyon ton taxıl yığılmışdı, bu isə 2018-ci illə müqayisədə 6,9% artım demək idi. Ötən il taxılın məhsuldarlığı hər hektardan 32,4 sentner təşkil edib. Məhsuldarlığın bu il bir qədər aşağı düşməsinə səbəb kimi su çatışmazlığı qeyd edilir.

## AZƏRBAYCAN HƏLƏ DƏ ƏRZAQ BUĞDASI İDXAL ETMƏK MƏCBURİYYƏTİNDƏDİR

Ümumiyyətlə, danılmaz faktdır ki, son dövrdə ölkədə taxılçılıq təsərrüfatlarının genişlənməsi



və texnika ilə təchiz edilməsi istiqamətində irimiqyaslı işlər görülüb. Nəticədə, ardıcıl olaraq iki ildir ki, taxılçılıqda məhsuldarlıq artır. Bunun sayəsində dənli bitkilər üzrə idxalı əvəzləmə səviyyəsi artıq 74%-ə yüksəlib. Düzdür, Azərbaycan hələ də ərzaq buğdası idxal etmək məcburiyyətindədir, amma yaxın gələcəkdə dayanıqlı olaraq özünü təmin etməyə çıxmağı planlaşdırır. Sonuncu məsələ özəlliklə də taxıl ixracatçısı olan qonşu ölkələrdə gedən müzakirələr fonunda həddindən çox önəmlidir, bu ölkələr bazar qiymətlərini tənzimləmək üçün bir növ neft karteli OPEK-ə bənzər bir qurum yaratmaq niyyətindədirlər.

## MÜSBƏT GÖZLƏNTİLƏR

İyunun əvvəlində Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədi rayonunun Hindarx kəndindəki fermaların birində olub və arpa yığımına həsr olunmuş mərasimdə iştirak edib. Görüşdə qeyd edilib ki, son illər havanın quraq keçməsinə baxmayaraq, savadlı və vaxtında edilmiş aqro-texniki qulluq, çağdaş texnikadan istifadə, əkin dövriyyəsinin tətbiqi və s. sayəsində rayonun əkin sahələrində məhsuldarlıq hər hektardan 32 sentnerə çatır. Oxşar mənzərə ölkənin digər taxılçılıq bölgələrində də müşahidə olunur ki, bu da yüksək məhsul yığımına ümid etməyə imkan verir, çünki bu, Azərbaycanda öncəki iki ildə də müşahidə edilib. O cümlədən, 2018-ci ildə 3,3 milyon ton taxıl və dənli-paxlalı bitki toplanıb ki, bu da 2017-ci illə müqayisədə 13% çoxdur. 2019-cu ildə isə rekord göstəricilər əldə edilib. 3,5 milyon ton məhsul götürülüb və bunun 2,2 milyon tonunu buğda təşkil edib.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu il ölkədə 1 milyon hektardan çox ərazidə taxıl əkilib ki, bunun da 2/3-si buğdanın, qalan hissəsi arpa, yulaf, qarğıdalı və digər bitkilərin payına düşür.

Bu sahədə müsbət gözləntilər isə bir sıra amillərə, o cümlədən



*2019-cu ildə Azərbaycanda taxıl yığımı 3,5 milyon ton taxıl yığılmışdı bu isə 2018-ci illə müqayisədə 6,9% artım demək idi. Ötən il taxılın məhsuldarlığı hər hektardan 32,4 sentner təşkil edib.*

lazımi qədər yığım texnikasının olmasına, bir neçə toxum emalı zavodunun istifadəyə verilməsinə, əlliyə yaxın iri taxılçılıq təsərrüfatının və aqroparklarının yaradılmasına əsaslanır. Bu aqroparklarda taxıl yığımı göstəricisi respublika üzrə orta göstəricidən 1,5 dəfə çox olur. Beynəlxalq təcrübə göstərir ki, taxılçılıq təsərrüfatlarının gücləndirilməsi istehsal həcmini artırmağın və maya dəyərini aşağı salmağın ən optimal yoludur. Böyük ərazilərdə kənd təsərrüfatı texnikasının saxlanması və istismarı, gübrə verilməsi və zərərvericilərə qarşı mübarizə, suvarma və digər kənd təsərrüfatı tədbirləri üzrə xərclər önəmli dərəcədə azalır.



"Ölkə üzrə taxılçılıqda orta məhsuldarlıq 32 sentnerdir, aqroparkda isə 40-50 sentner məhsul əldə edilir. Bu da çox vacibdir. Çünki bizim əkin sahələrimiz bir qədər məhdud olduğu üçün məhsuldarlığın artırılmasına xüsusi diqqət göstərilməlidir", – deyə Prezident İlham Əliyev ilin əvvəlində Ağstafa Kənd Təsərrüfatı Parkının açılış mərasimində bildirib.

Qeyd edək ki, bu il Ehtiyat Fondundan dövlət büdcəsinə 5 milyon manat ayrılacaq və fermerlər təkrar qarğıdalı əkininə toxum almaq üçün hər hektar üzrə 60 manat məbləğində birdəfəlik ödəniş alacaqlar. Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyevin sözlərinə görə, yayın sonunda məhsul yığımından sonra ölkənin aran və dağətəyi rayonlarında, təxminən, 100 min hektar sahədə vegetasiya dövrü 80-90 gün olan hibrid qarğıdalı toxumlarının əkini aparıla bilər. Hər hektar əkin sahəsindən 40-50 sentner məhsul əldə edilə bilər və bu, əlbəttə ki, ölkə üzrə ümumi taxıl yığımı göstəricilərinə müsbət təsir göstərəcək.

## TAXIL OPEK-i İDEYASI

Etiraf etmək lazımdır ki, Azərbaycanda taxıl istehsalının artırılması meyli son bir neçə ildə – 2015-ci ildə Azərbaycan manatının iki devalvasiyasından sonra aydın hiss olunmağa başladı, çünki Qazaxıstandan və Rusiyadan gətirilən ərzaq buğdasının qiymətləri müvafiq olaraq artdı. Bu gün hökumət məhsul istehsalını artırmaqla və xərcləri azaltmaqla taxıl idxalının payını mərhələli şəkildə azaltmağa istiqamətlənib. Bu istiqamətdə uğurlar göz qabağındadır. Son beş ildə taxıl üzrə idxalı əvəzetmə səviyyəsi 66%-dən 74%-ə qədər yüksəlib. Özü də, yem seqmentində idxal önəmli dərəcədə azalıb və özəlliklə, çörəkbişirmə, makaron və şirniyyat sənayesində tələb olunan yüksək özlü bərk sortlar da daxil olmaqla yerli ərzaq buğdasının payı getdikcə artır.

Azərbaycan hökumətində düşünürlər ki, taxıl istehsalı sahəsində idxalı əvəzetməni daha da gücləndirmək üçün işlərin davam etdirilməsi gərəkdir. Qlobal ərzaq bazarındakı qeyri-sabitliyi və xüsusən də koronavirus pandemiyası ilə bağlı son hadisələri nəzərə aldıqda, bu, tamamilə doğru yanaşmadır. Bu çətin dövrdə bir sıra dövlətlər daxili bazarlarını qorumaq üçün ərzaq ixracına məhdudiyyətlər qoymağa başladılar. Belə ki, Rusiya və Qazaxıstan buğda, un, qarabaşaq, yağ sənayesi bitkilərinin və s. ixracını müvəqqəti məhdudlaşdırdı. Dünya Ticarət Təşkilatının (DTT) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) mütəxəssislərinin fikrincə, bu meyil qlobal ərzaq bazarında qiymətlərin artmasına səbəb olub və inkişaf etməkdə olan ölkələrin taxıla və digər əsas ərzaq məhsullarına çıxış imkanlarına çox mənfi təsir edib.

Məhz bu dövrdə aparıcı taxılçılıq ölkələrini birləşdirən və bu baza məhsulun qiymətlərini tənzimləyə biləcək beynəlxalq bir qurumun yaradılması zərurəti fəal şəkildə müzakirə olunmağa başladı. Keçən ilin oktyabr ayında Kölndə keçirilən ANUGA-2019 qida sərgisi zamanı Rusiya baş nazirinin müavini Aleksey Qordeyev bu cür

fikirlər səsləndirməyə başladı. O, taxıl bazarında sabitliyi təmin etmək üçün neft OPEK-i kimi beynəlxalq bir qurum yaratmağı təklif etdi. Onun fikrincə, "taxıl OPEK"nə ən böyük taxıl istehsalçıları - Rusiya, Qazaxıstan, Avropa Birliyi ölkələri, ABŞ, Kanada, Argentina, Avstraliya daxil ola bilərlər və birgə səylər nəticəsində taxıl qiyməti siyasətini əlaqələndirərək planetdəki aclıq problemini həll edə bilərlər.

"Rusiya və Qazaxıstan dünya üzrə buğda ixrac edən ilk on ölkənin sırasındadır. Dünya buğda ixracatında onların payı 3%-dir. "Taxıl OPEK"nin yaradılması taxıl bazarının sabitliyinin təmin edilməsinə və qiymətlərin əlaqələndirilməsinə yönəlmiş maraqlı təşəbbüs ola bilər. Ancaq belə bir kartel yaratmadan öncə bunun Dünya Ticarət Təşkilatının standartlarına nə dərəcədə uyğunluğunu və kiçik oyunçuların maraqlarının nə dərəcədə nəzərə alınacağını düşünmək lazımdır", - deyə Qazaxıstan prezidenti Kasım-Comart Tokayev bildirib.

Eyni zamanda, bir sıra mütəxəssislər taxıl kartelini yaratmaq fikrini qeyri-mümkün hesab edirlər. Belə ki, Qazaxıstan Taxılçılar İttifaqının nümayəndəsi Yevgeni Karabanovun sözlərinə görə, taxıl istehsalında qiymətləri və tələbləri müxtəlif olan çox fərqli bazarları var. "Rusiya üçün əsas satış bazarları Şimali Afrika və Yaxın Şərq, Qazaxıstan üçünsə Orta Asiyadır. Yəni kartel ona görə yaradılır ki, müəyyən bazarlarda rəqabət artmasın və qiymətlər aşağı salınmasın", - deyə ekspert məntiqlə vurğulayır.

Avropa Birliyi ölkələri bu məsələdə daha sərt mövqe tuturlar. Rusiyanın dünyada "taxıl OPEK"inə bənzər nəsə yaratmaq təklifi, ümumiyyətlə, Avropa mətbuatı tərəfindən Moskvanın beynəlxalq ərzaq bazarlarına nəzarəti ələ almaq cəhdi kimi qiymətləndirilir. BMT, FAO və DTT-nin bu məsələyə münasibətini də nəzərə alaraq, demək olar ki, "taxıl OPEK"i yaratmaq təşəbbüsünün dünya üzrə dəstəklənməsi ehtimalı azdır.

## AZƏRBAYCANIN ƏLVERİŞLİ DURUMU

Azərbaycan pandemiya dövründə qlobal taxıl bazarında müşahidə olunan qeyri-sabitlikdən və bəzi dövlətlərin proteksionist siyasətindən lazımi nəticələr çıxarıb və özünü öz çörəyi ilə təmin etməyə çalışır. Maraqlıdır ki, buna yalnız istehsal bazasını optimallaşdırmaqla deyil, həm də Rusiya və Qazaxıstan buğdasının nəqli yollarına Azərbaycanın inteqrasiyası və ölkədə uyğun infrastrukturun yaradılması ilə nail olmaq planlaşdırılır.

Bir çox ekspertlər hesab edirlər ki, Azərbaycandan keçən marşrutlar təhlükəsiz və rahat taxıl logistikası üçün optimaldır. "Regionlararası taxıl logistikasında Azərbaycanın rolu müstəsnadır: ölkənin misilsiz coğrafi mövqeyi onu geniş tranzit potensialı ilə təmin edərək, regional taxıl dövriyyəsində mühüm oyunçuya çevirir", - deyə Rusiya Taxılçılar İttifaqının vitse-prezidenti Aleksandr Korbut bildirib.

Özəlliklə, son illərdə yaradılmış infrastruktur potensialı nəzərə alındıqda, Azərbaycanın tranzit ölkə kimi mövqelərinə şübhə yaranmır. Ölkədə 30-dan çox iri anbar yaradılıb və 2007-ci ilin aprelində istifadəyə verilmiş Bakı Taxıl Terminalı (BTT) da bu sıraya daxildir. O, çağdaş avadanlıqla təchiz olunub ki, bu, 15 min tonadək taxıl məhsulunu müvəqqəti saxlamağa imkan verir. Terminalın gündəlik emal gücü 1,5 min tondur.

Öz növbəsində, bu ilin ikinci yarısında Azərbaycan Astarasında bölgənin ən böyük taxıl terminalı olan "Astara Grain Terminal"ın tikintisi başa çatacaq. "Terminalın gücü ildə 500 min ton taxıl təşkil edəcək və 2021-ci ilə qədər bu rəqəmin ildə bir milyon tona çatdırılması planlaşdırılır. Terminalın eyni vaxtda taxıl saxlamaq tutumu 60 min ton təşkil edəcək", - deyə "Astara Grain Terminal"ın əməliyyat meneceri Fərid Həsənov bildirib.

Astara terminalından Rusiya və Qazaxıstan taxılının İran istiqamətində və daha sonra Körfəz bölgəsinə daşınmasında istifadə edilməsi planlaşdırılır. Nəzərə alsaq ki, İran sabit şəkildə Rusiya taxılının ilk üç ixracatçısı sırasındadır, "Şimal-Cənub" dəhlizinin qərb qolu Samur sərhəd keçidindən daxil olaraq, daha sonra İrana çıxmalıdır, Rəşt və Qəzvin şəhərlərinə birbaşa dəmir yolu əlaqələrini təmin etməlidir. Taxıl ixracatçıları üçün daha bir güzəşt "Şimal-Cənub" marşrutu ilə İrana tranzitdə 50 faiz endirim təqdim edilməsi olacaq.

Bundan əlavə, 2019-cu ilin mayında Ankarada üçtərəfli memorandumun imzalanmasından sonra Rusiya faktiki olaraq Bakı-Tbilisi-Qars layihəsinə qoşuldu və bu dəhliz boyunca digər mallarla birgə türk idxalçıları üçün Rusiya taxılı da daşınır. Bu məqsədlə taxıl və taxta daşınması üçün ortaq Rusiya-Azərbaycan şirkəti yaradıldı və şirkət bölgədə taxıl daşınması üçün geniş vaqon parkına sahib yeganə qurumdur.

Beləliklə, şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun olması Azərbaycanı Qara dəniz bölgəsi, Orta Asiya və Yaxın Şərqin taxıl bazarları arasında "taxıl qapısı" hesab etməyə əsas verir. Tranzit ölkə statusunu əldə edən Azərbaycan nəticədə müstəqil şəkildə buğda və unun satınalmasını, saxlanmasını və satışını gerçəkləşdirərək, zamanla regionun ən böyük taxıl habına çevrilə bilər. Yəni gələcəkdə regional taxıl birjasının formalaşması barədə danışa bilərik və ölkə genişmiqyaslı taxıl bazarında fəaliyyət göstərməklə ərzaq təhlükəsizliyini təmin etmək üçün əlavə resurslar əldə edəcək.

# Düzgün məsləhətçini necə seçək?

**Konsaltinq xidmətləri son illərdə Azərbaycanda daha çox önəm qazanmağa başlayıb. Lakin bu inkişafla bərabər heç də az olmayan suallar da gündəmə gəlmişdir. Konsaltinq xidmətinin əhatə dairəsi, məsləhətçinin kim olması, niyə məsləhətlərə ehtiyac duyulduğu, ödəniş meyarlarının müəyyən olunması, düzgün məsləhətçini necə seçmək və digər buna bənzər suallar sahibkarlarda yaranan qeyri-müəyyənliklərdən yalnız bir hissəsidir.**

Bu gün konsaltinq şirkətləri marketinq, hüquq, insan resurslarının idarəedilməsi, mühasibat əməliyyatları və bir çox digər məsələlərdə mövcud qanunlar çərçivəsində müxtəlif məsləhət xidmətləri təklif edirlər. Bazarın və texnologiyanın inkişafı ilə ortaya çıxan ehtiyacların böyüməsi konsaltinq sektorunun günbəgün inkişaf etməsinə səbəb olur. Biznes konsaltinq sahəsində imkanların genişlənməsi rəqabətə dayanıqlığı kifayət qədər mürəkkəbləşdirir.

### Biznes konsaltinq nədir?

Konsaltinq tərifini ən sadə formada «müvafiq sahədə ixtisaslaşmış şəxslərin və ya şirkətlərin bilik və bacarıqlarını xidmət fəaliyyəti olaraq müəssisələrə məsləhət vermək» kimi müəyyən etmək olar.

Konsaltinq xidmətləri göstərən şirkətlərin ixtisaslaşması müxtəlif olur – idarəetmə sisteminə dəstək məqsədilə maliyyə, kommersiya, hüquqi, texniki və ekspert fəaliyyəti sahəsində geniş məsələlər üzrə menecerlərə məsləhət vermək fəaliyyəti kimi qəbul olunur.

Aktual məsələlərin həlli üçün konsaltinq şirkətləri tərəfindən düşünülmüş yanaşmanın, şirkətlərin bazara daxil olması üçün məsləhətləşmənin nə qədər vacib olduğu haqqında danışaq. Məlum olduğu kimi konsaltinqin əsas vəzifəsi müştərinin spesifik sahəsini və problemlərini nəzərə alaraq elmi, texniki və təşkilati həll yollarının təhlil edilməsi və əsaslandırılmasıdır.

Konsaltinq xidmətləri göstərən şirkətin əsas məqsədi ümumi idarəetmə keyfiyyətinin, fəaliyyət effektivliyinin və individual səmərəliliyin təkmilləşdirilməsinə və artırılmasına yönəlmişdir.

"ASK Biznes Konsaltinq" MMC 2013-cü ildə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası nəzdində təsis olunub. Şirkətin xidmət göstərdiyi əsas sahələr biznes planların hazırlanmasında məsləhətlər, xarici və yerli bazar araşdırmaları, biznes missiyaların təşkili, tenderə müraciət ərizələrinin hazırlanması, beynəlxalq sərgilərdə iştirakın təmin olunması, xarici şirkətlərin Azərbaycan bazarında təqdimatının təşkili, idarəetmə, satış və marketinq, mailiyyə, mühasibatlıq, əməliyyatlar, insan resursları, texnologiya və digər xidmətlər göstərir. Xidmətlərimiz bir şirkətin bütün həyat dövrünü əhatə edir: qeydiyyata alındığı dövrdən, hüquqi dəstəyindən tutmuş şirkətin fəaliyyətinin dayandırılması və ya ləğvi dövrünə dək dəstək göstərilir.



ŞƏBNƏM NURİYEVA

Azərbaycan Sahibkarlar Konfederasiyasının nüfuzu sayəsində çox sayda sahibkarlara dəstək olmaqla, fəaliyyətimizi daha da gücləndirərək dəstək olmaqda davam edirik. Hətta belə bir böyük axının öhdəsindən gəlmək üçün tədbirlər görməli olduq, əməkdaşlığa əlavə heyət cəlb etdik, onlarla mülki və əmək müqaviləsi bağladıq, bizim üçün aparıcı olmayan, lakin bəzən sahibkarlar tərəfindən tələb olunan sahələrdə xidmətlər göstərməkdə daha çox təcrübəsi olan şirkətləri kömək etmək üçün əməkdaşlığa cəlb etdik.

Şirkətimiz yalnız mənfəət üçün fəaliyyət göstərmir, eyni zamanda sektorlar arasında əməkdaşlıq yolu ilə Azərbaycanda ümumi iqtisadi rifaha töhfə verməyə çalışır, yerli özəl və dövlət müəssisələrin böyüməsinə kömək edəcək əlavə dəyər xidmətləri təqdim etməklə korporativ, sosial və milli sahibkarlıq dəyərlərinin artırmasında qatqılılıq prinsipinə əməl etməkdədir. Aparıcı konsaltinq şirkəti olaraq, mikro sahibkardan tutmuş



böyük şirkətlərə etibarlı məlumat verməklə özəl sektorun inkişafında dayanıqlı rol oynamağı hədəfləmişik. "ASK Biznes Konsaltinq" MMC-nin dəyərləri - uzunmüddətli münasibətlər, etibarlılıq və nəticəyə yönümlülükdür.

**Hansı sahələrdə məsləhət xidməti əldə etmək olar?**

Bir çox müəssisə və təşkilatlar, xüsusən də KOB-lar, aşağıda göstərilən beynəlxalq səviyyədə qəbul edilmiş məsləhət xidmətlərinə ehtiyac duyurlar:

- Biznes missiyaların təşkili;
- Biznes forumların təşkili;
- Biznes proseslərin rəqamsallaşdırılması;
- Beynəlxalq sərgilərdə iştirak və təqdimat imkanları;
- Beynəlxalq ticarət üzrə məsləhət və dəstək;
- Beynəlxalq əlaqələrin qurulması, tərəfdaşların və təchizatçıların tapılması;
- Spesifik sahəyə uyğun xarici mütəxəssislərin dəvət edilməsi;
- İdxal-ixrac əməliyyatlarına dəstək;
- IT konsaltinq və veb-resursların yaradılması;
- İnsan Resursları üzrə məsləhət;
- Marketinq məsləhətləri;
- Maliyyə və mühasibat uçotu;
- Satınalma üzrə məsləhət;
- Tədqiqat və məsləhət xidmətləri;
- İnzibati idarəetmə məsləhətçiliyi;
- Tədqiqat və inkişaf (R&D);
- Sahəvi sertifikatlaşma məsləhətləri;
- Layihə idarəedilməsi üzrə məsləhət və s.

Yuxarıda sadalanan istiqamətlərdə biznesə dəstək alətlərindən aktiv istifadə edərək, sahibkarlarımıza keyfiyyətli xidmət göstərməkdən məmnunuq.

Əlavə olaraq bildirmək istərdim ki, ASK Biznes Konsaltinq olaraq ölkəmizdə fəaliyyət göstərən digər konsaltinq şirkətlərinə rəqib deyil əməkdaşıq. ASK platforması istər beynəlxalq, istər yerli müstəvidə ASK Biznes Konsaltinq MMC-yə saysız imkanlar açdığı üçün daim yenilənən xidmətlər bazamızla sahibkarlara dəstək olmağa hazırıq.

**Bizimlə işləmək niyə effektlidir?**

İlk öncə onu qeyd etmək lazımdır ki, kommunikasiya qurma, çoxsaylı zənglər, məlumat bazasının hazırlanması istənilən biznesin başlanğıc nöqtəsi və ən çox vaxt aparan hissəsi olduğu üçün peşəkar komandamızla 5 dildə alıcılarla yazılı və şifahi ünsiyyət quraraq təklifləri təqdim edirik və tələblərə uyğun araşdırmaları çevik şəkildə hazırlayırıq.

Biz şirkətlərin təklifləri ilə maraqlana biləcək müəssisələrlə birbaşa əlaqəyə girərək vaxtınıza və pulunuza qənaət etməyə köməklik edirik. Yalnız tərəflərin qarşılıqlı maraqları ilə təşkil olunan görüşlər üçün ödəniş edirsiniz. Görüş zamanı təklif olunan tərəfdaşlarla danışıqların hər bir nöqtəsini əvvəlcədən razılaşdırırsınız və hər hansı bir uyğunsuzluqda görüşdən əvvəl imtina edə bilərsiniz.

Bizim işimiz – canlı və onlayn işgüzar əlaqələr qurmaq - beynəlxalq ticarətdə mövcud məhdudiyyətlər altında olsa da, idxal və ixrac prosesləri zamanı sahibkarlarımıza dəstək olmaqdır.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin iclası keçirilmişdir

Avqustun 5-də Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin onlayn video-konfrans formatında hesabat iclası baş tutmuşdur. İclasda Azərbaycan Sahibkarlar Konfederasiyasının 2020-ci ilin birinci yarısı ərzində gördüyü işlərə dair hesabat dinlənilmiş, eyni zamanda sahibkarlarları narahat edən məsələlər müzakirə edilmişdir.

İclas Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevin sədrliyilə keçmişdir. İclası açıq elan edən M.Musayev respublika Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atıldığını, bu istiqamətdə ölkəmizin qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynadığını qeyd etdi. M.Musayev eyni zamanda pandemiya dövründə hökümət tərəfindən iqtisadi artıma və sahibkarlığa edilən güzəştlərin sahibkarlar tərəfindən çox yüksək qiymətləndirildiyini vurğulamışdır.

Konfederasiyanın baş katib əvəzi Kristina Məmmədova COVİD-19 pandemiyası ilə əlaqədar karantin qaydaları çərçivəsində ASK-nın fəaliyyətinin davam etdiyini bildirmiş və bu ilin birinci yarısında ASK-ya qəbul olunan yeni üzvlər, sahibkarlardan daxil olan müraciət və təkliflərin əsas məzmunu barədə məlumat vermişdir. Konfederasiya prezidentinin baş məsləhətçisi Fərid Vəlizadə pandemiya dövründə sahibkarlarla keçirilən iclaslar, müzakirə olunan əsas mövzular və dövlət qurumları ilə ASK arasında mövcud olan Əməkdaşlıq Şuralarının fəaliyyəti haqqında Rəyasət Heyətinə hesabat vermişdir. Baş katibin







müavini Bəhruz Kərimov isə Konfederasiyanın maliyyə hesabatını təqdim etmişdir.

Sonra sahibkarlar karantin dövründə biznesin genişləndirilməsi istiqamətlərini müzakirə etmişdir. "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdulbari Gözəl Prezident cənab İlham Əliyevin su çatışmazlığının həlli ilə bağlı gördüyü işləri yüksək qiymətləndirdiklərini və bu işdə sahibkarların da fəal iştirak etməli olduğunu bildirdi. A.Gözəl həmçinin yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə yerli istehsalın artırılmasının vacibliyini vurğulamışdır.

ASK-nın vitse-prezidenti Vüqar Abbasov maliyyə əlçatanlığı məsələsini gündəmə gətirmişdir. Yerli istehsala dəstək məqsədilə qanunvericilikdə dəyişikliklər edilməsi və bu dəyişiklərin çevik olması, dövlət-özəl dialoqunun dərinləşdirilməsi təklif olunmuşdur.

Rəyasət Heyətinin üzvü Səkinə Babayeva son dövrlərdə təhsil, turizm sektorunda çalışan qadın sahibkarların fəaliyyəti barədə məlumat vermişdir.

Sahibkarlar ölkə prezidenti cənab İlham Əliyevin siyasətini daim dəstəklədiklərini qeyd edərək, sahibkarlara dövlət yardımlarına görə təşəkkürlərini bildirmişlər. Eyni zamanda biznesin karantin şərtləri üzrə ciddi qaydalar çərçivəsində fəaliyyətini davam etdirməsini xahiş etdilər.

Video Konfransın sonunda ASK-nın Rəyasət Heyəti toplanan təklifləri İqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyi ilə keçiriləcək iclasa təqdim etməyi qərara almışdır.

# Əməkdaşlıq Şurasının növbəti iclası keçirilmişdir

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə Dövlət Gömrük Komitəsi arasında Əməkdaşlıq Şurasının video formatda növbəti iclası keçirilmişdir.

İclasa ASK-nın vitse-prezidenti Vüqar Abbasov və DGK sədrinin birinci müavini İsmayıl Hüseynov sədrlik etmişdir.

Əməkdaşlıq Şurasına üzv olan tanınmış şirkətlərin rəhbərləri və Dövlət Gömrük Komitəsinin baş idarə rəislərinin qatıldığı iclasda DGK sədrinin birinci müavini İsmayıl Hüseynov COVİD-19 pandemiyasının gömrük keçid məntəqələrində yaratdığı vəziyyətlə bağlı iştirakçılara məlumat verərək, dövlət başçısının rəhbərliyi ilə ticarət–təchizat zəncirinin davamlılığının və təhlükəsizliyinin təmin olunması, ölkənin ixrac və tranzit potensialının qorunub saxlanılması məqsədilə bütün zəruri dəstək tədbirlərinin görüldüyünü və hazırda sanitar epidemioloji vəziyyətin tam nəzarətdə saxlanıldığını qeyd etmişdir. İ.Hüseynovun sözlərinə görə, ötən müddətdə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və yüklərin rahat hərəkəti üçün keçid məntəqələrində lazımi şərait yaradılmışdır.

Ölkə prezidentinin sahibkarlara dəstəyinin və diqqətinin təzahürü olan gömrük sahəsində prosedurların asanlaşdırılması və şəffaflığın təmin olunması istiqamətində işlərin bundan sonra da davam edəcəyini vurğulayan İsmayıl Hüseynov biznes mühitinin inkişafına, gömrük xidmətlərinin sadələşdirilməsinə və tamamilə elektronlaşdırılmasına töhfə verəcək innovativ layihələrin hazırlandığını və tezliklə “Yaşıl Dəhliz” sisteminin daha da təkmilləşdirilməsini açıqlamışdır.

ASK-nın vitse-prezidenti Vüqar Abbasov son bir ildə gömrük sistemində həyata keçirilən islahatların biznesin inkişafına ciddi dəstək verdiyini vurğulamışdır. “Yaşıl Dəhliz” sisteminin sahibkarlar üçün yaratdığı rahatlıq və şəffaflıqla bağlı atılan addımları xüsusi qeyd edən V.Abbasov gömrük prosedurlarında sahibkarları narahat edən bəzi məsələləri diqqətə çatdırmışdır.

Sahibkarlardan – “Azərsun Holdinq”in İdarə Heyətinin üzvü Savaş Uzan inspektorların sahə üzrə mütəxəssisləşməsini (gömrük rəsmiləşdirilməsini yalnız müəyyən mal seqmentləri üzrə aparılmasını) təklif etmişdir. Onun sözlərinə görə, eyni malların təkrar ekspertizaya göndərilməsi yüklərin gecikməsinə səbəb olur. “Veysəloğlu” Şirkətlər Qrupunun Biznesə dəstək üzrə Baş direktoru İlqar Nuri ƏDV-nin tutulmasındakı mövcud prosedur ilə bağlı təkliflərini səsləndirmişdir.

“Karantin müddətində Azərbaycanda heç bir məhsulun qıtlığı müşahidə olunmadı. Bu məsələdə sahibkarlarla yanaşı, Dövlət Gömrük Komitəsinin də böyük əməyi olmuşdur. Gərgin iş rejimindəki fəaliyyətinizə görə Sizə təşəkkür edirik”, – deyən İ.Nuri malların gömrük dəyərinin müəyyən edilməsindəki yubanmalarla bağlı bir neçə məsələyə toxunmuşdur.

DGK sədrinin müavini Cavad Qasımov sahibkarların səsləndirdiyi fikirlərlə və təkliflərlə bağlı aparılan müzakirələr zamanı qərarların icrası prosesinin izlənməsinin vacibliyini vurğulamışdır.

“Məcburi qərarlar sistemi qurulur və ölkəyə gələn mallar üzrə ekspertizanın cavabları sistemləşdiriləcək, nəticədə bu məsələlər aradan qaldırılacaq”,-deyən C.Qasımov sahibkarları narahat edən bütün məsələlər üzrə öz fikrini bildirmiş və bu cür görüşlərin ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyəti olduğunu qeyd etmişdir.

# Maarifləndirici aksiya davam edir

Məlumat verildiyi kimi, İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və özəl sektorun (“Mətanət A”, Neftçala Avtomobil Zavodu, “A.M.O.” MMC) dəstəyi ilə vətəndaşların koronavirus infeksiyasının profilaktikasına dair maarifləndirilməsi tədbirlərinə dəstək məqsədilə sosial aksiya keçirilir.

İndiyədək Sumqayıt və Xırdalan şəhərlərində, Qaradağ rayonunun Lökbatan qəsəbəsində, Masallı, Lənkəran, Astara, Neftçala rayonlarında keçirilmiş aksiyalar çərçivəsində KOB dostları və könüllülər tərəfindən ticarət və xidmət obyektlərinə yaxın yerlərdə, parklarda vətəndaşlarla xüsusi karantin rejimi qaydalarına dair maarifləndirici söhbətlər aparılıb, 9 minə yaxın tibbi maska paylanılıb.

Aksiya 28-29 iyul tarixlərində Mingəçevir şəhərində və Ağstafa rayonunda davam etdiriləcək.



Dövlət-biznes əməkdaşlığı çərçivəsində həyata keçirilən maarifləndirici aksiya iyul-avqust ayları ərzində davam etdiriləcək və ölkənin 20-yə yaxın şəhər və rayonunu əhatə edəcəkdir.

# ASK-nın Elm, Təhsil və Peşə Təlimi Müəssisələrilə İş Komissiyasına yeni sədr seçildi

İyulun 27-də Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının tərkibində fəaliyyət göstərən Elm, Təhsil və Peşə Təlimi Müəssisələrilə İş Komissiyasının videokonfrans formatında iclası keçirilib. İclasda təşkilati məsələlər həll edilib və növbəti iclasın gündəliyinin müəyyənləşdirilməsi məqsədilə müzakirələr aparılıb.

Komissiyanın iclasını ASK-nın vitse-prezidenti Vüqar Zeynalov açaraq bildirib ki, Konfederasiya 2001-ci ildən dövlətin sosial tərəfdaşıdır və hər iki ildən bir hökumətlə Baş Kollektiv Saziş imzalayır. ASK Azərbaycanda çalışan sahibkarların sözçüsü qismində onların maraqlarını müdafiə etmək, həmçinin iqtisadiyyatın inkişafı üçün biznes mühitinin əlverişliliyinin yüksəldilməsi istiqamətində aparılan islahatlara dəstək verir.

Bu və digər məsələlərlə bağlı komissiyanın işinin məhsuldar olacağını vurğulayan ASK-nın vitse-prezidenti komissiya sədri seçmək üçün təklifləri səsləndirib. İclas iştirakçılarının təklif və səsverməsi yolu ilə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov komissiyanın sədri seçilib.

Ə.Muradov göstərilən etimada görə təşəkkür edərək bildirib ki, universitet təhsilini real iqtisadiyyatın tələblərinə uyğunlaşdırmaq hazırda təhsil sisteminin ən vacib məsələsidir. “Bu komissiya real sektorla təhsil müəssisələri arasında körpü rolunu oynayacaq”, – deyən Ə.Muradov tələbələrin təcrübə proqramları ilə bağlı bir neçə məsələni iştirakçıların diqqətinə çatdırıb.

“Azərsun Akademiyası”nın rəhbəri Cəlal Eynullayev peşə təhsili məzunlarının təcrübə proqramları və peşə təliminin effektivliyini artırmaq üçün təkliflərini qeyd edib.

# ASK-nın “Aqrar İnkişaf Komissiyası”nın iclası keçirilmişdir

Aprelin 23-də Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) tərkibində fəaliyyət göstərən “Aqrar İnkişaf Komissiyası”nın iclası keçirilmişdir. “Azərsun Holdinq”in Müşahidə Şurasının sədri Abdolbari Gözəlin sədrliyi ilə keçən iclasda pandemiya dövründə sahibkarların, xüsusən də kənd yerlərində yaşayan, aqrar sektorda fəaliyyət göstərən sahibkarların üzləşdiyi çətinliklər və onların aradan qaldırılması yolları, kənd təsərrüfatının ümumi problemləri müzakirə edilmişdir.

Müzakirələrdə ASK-nın prezidenti Məmməd Musayev, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev də iştirak etmişdir.

Sahibkarlar pandemiyanın biznesə təsirləri, su çatışmazlığının əkin sahələrində ciddi çətinliklər yaratdığı, kənd təsərrüfatı sektorunda işlədilən texniki avadanlıqlar üçün ehtiyat hissələrinin çatışmazlığı, heyvan yemi ilə bağlı müəyyən çətinliklər barədə məlumat veriblər. Mövcud kredit borclarının restruktruzasiya olunması, faizlərin ödənilməsi vaxtının uzadılması, emal dərinliyinin artırılması istiqamətində gömrük tariflərində bəzi dəyişikliklərin edilməsi təklif olunmuşdur.

Komissiyanın sədri Abdulbari Gözəl hazırda qida məhsulları sektorunun dünyada strateji əhəmiyyət daşıdığını söyləmişdir: “Qida məhsulları ilə özünütəminata nail olmaq mühüm əhəmiyyət daşıyır. Hesab edirəm ki, müvəqqəti pompalar qurmaqla Kürdən suyun kanallara vurulması mümkündür”.

Komissiya üzvü Əlibala Əlizadə torpaq sahələrinin münbütlüyünün bərpa edilməsi üçün hazırlanan proqram barədə iştirakçılara geniş məlumat vermişdir. Onun sözlərinə görə, bu proqram yüksək məhsuldarlıq əldə etmək üçün orqanik gübrələrdən istifadə edilməsini nəzərdə tutur.

AKİA-nın İdarə Heyətinin sədri Mirzə Əliyevin sözlərinə görə, heyvan yemi xammalı bazasının formalaşdırılması üçün hökumətə təkliflər təqdim edilmişdir. Ehtiyat hissələri ilə bağlı yaranan çətinliklərin karantin dövrü ilə əlaqə olduğunu vurğulayan M.Əliyev, su çatışmazlığı və digər məsələlərin həlli istiqamətində nazirliyin sahibkarların yanında olduğunu, lazımi dəstək göstəriləcəyini söyləmişdir.

İclası yekunlaşdıran ASK prezidenti Məmməd Musayev bildirmişdir ki, möhtərəm prezident İlham Əliyevin tapşırığı ilə hökumət koronavirus pandemiyasından əziyyət çəkən sahibkarlıq sahələrinə geniş güzəştlər və maddi dəstək paketini təqdim etmişdir. Azərbaycanda aqrar sahənin böyük inkişaf potensialına malik olduğunu vurğulayan M.Musayev sahibkarları daha əzmlə çalışmağa və dövlətin ətrafında sıx birləşməyə çağırış etmişdir. ASK prezidenti səslənən təkliflərin sənədləşdirilərək müvafiq dövlət strukturlara təqdim ediləcəyini bildirmişdir.